**EMFİRA ƏRKLİ**



# TANRIM MƏNİ UNUTMA

**Redaktor: Vidadi Turan Ağdamlı- Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü, şair publisist, Vətən, Azərbaycan bayrağı, Qarabağ Azərbaycandır!, Ulu Öndər, Ali Baş Komandan, Turan yolu, Şərəfli ömür yolu, Həkəri, Qızıl qələm, Vintsas, Ziyadar, Dövrün Vətənpərvər şairi, Xalqın nüfuzlu ziyalısı, Xurşidbanu Natəvan, Xəlil Rza Ulutürk, Səməd Vurğun, Bayram Bayramov, Mustafa Museyiboğlu diplomları ilə mükafatlandırılmışdır. Həkəri qəzetinin şöbə müdürü, Radio FM-in xüsusi müxbiridir. YİN-nin Ağsaqqallar Şurasının sədridi. 2023-cü ildə KİV tərəfindən "Heydər Əliyev" diplomu və medalı, "Azərbaycanın fəxri" diplomu və kuboku ilə təltif olunub.**

**Texniki redaktor: Mehri Ağdamlı-şair publisist, İrak-Türkmən Yazıçılar Birliyinin üzvü, Vətən, Azərbaycan bayrağı, Ulu Öndər, Ali Baş Komandan, Ziyadar, Vintsas, Vətənpərvər şairə, Qızıl qələm, Dövrün ziyalısı mükafatçısı. Vidadi Turan Ağdamlı, Xəlil Rza Ulutürk, Səməd Vurğun, Vidadi-70 fəxri diplomların mükafatçısı, YİN-in üzvüdür. 2023-cü ildə KİV tərəfindən "Heydər Əliyev" diplomu və medalı, "Azərbaycanın fəxri" diplomu və kuboku ilə təltif olunub.**

**Korrektor : Təranə Tunar-şair publisist, Heydər Əliyev, Bayram Bayramov, Xurşidbanu Natəvan, Vidadi-70, Vintsas, Ziyadar, Vidadi Turan Ağdamlı və YİN-in Zəfər günü fəxri diplomların mükafatçısıdı. YİN-in Qaradağ r/n sədr müavinidi.**

**Dizayner:Fariz Məhərrəmov**

**"Tanrım məni unutma" şeirlər kitabı Bakı "Maarif" nəşriyyatı, 2024. xxx səh.**

İSBN:

# MÜƏLLİF HAQQINDA

Emfira Ərkli ( Emfira Hacıbaba qızı Tağıyeva)-1950-ci ilin fevralın 17-də Xaçmaz rayonundakı Alıc-Qışlaq kəndində ziyalı ailəsində anadan olub. "Tanrım məni unutma" kitabı şairənin üçüncü kitabıdır. Orta məktəbi bitirdikdən sonra Konserv kombinatında laborant və hesablayıcı vəzifəsində çalışıb. 1969-cu ildə Bakı Yeyinti-Cənaye Texnikumuna daxil olub.Texnikumu bitirdikdən sonra Xaçmaz Taxıl hazırlığı kombinatında hesablama şöbəsinin müdüri işləyib, həm də Partkom (ilk partiya təşkilatının katibi) kimi calışıb. Daha sonra Texniki peşə məktəbində ixtisası üzrə istehsalat təlimi ustası kimi işə düzəlib, həm də müəllimlik edərək ilk partiya təşkilat katibi ictimai vəzifəni də daşıyıb. Hələ orta məktəbdə oxuduğu illərdən şeir, poeziya həvəskarı kimi şeiriyyətə qovuşub.

İlk "Ana" şeiri 1970-ci ildə 8 mart qadınlar günü ərəfəsində, rayon qəzeti olan "Dostluq" qəzetində şair Murad Qudyalçaylı tərəfindən və davamlı çap olunub. Şeirləri müxtəlif mətbuat orqanlarında, almanaxlarda, poeziya antologiyalarında işıq üzü görüb. O cümlədən, Bakıda "Şərqin səsi", "Ziya", "Elm və Təhsil", "Yurd", Qubada "Şəfəq", Sumqayıtda "Fakt" qəzetlərində, Qubanın "Gülüstan inciləri", lX-X-XI nəşrlərində, Şabranın "Şabran nəğmələri" almanaxlarında, Bakıda Müşfiq Borçalının "Zirvə" poeziya antologiyasında, "Canım Azərbaycanım", "Sazlı-sözlü Borçalı", "Şah dağı", "Ləlbər dağı", "Vətənim", "Zəfər", "Xarıbülbül", "Qarabağ Azərbaycandır", "Turan", "Rəvan" poeziya çələngi" ədəbi məcmuədə, elmi publisistik və sairə ədəbi məcmuələrdə davamlı çap olunub. Birinci kitabı çap olunması münasibətiylə Şair publisist Zaur Ustac ona "Ziyadar" diplomu təqdim edib.

Şair Vidadi Ağdamlının “Gözüm yolda, könlüm səsdə”, “Qələbəyə gedən yol”, “Gəlirik Qarabağ!”, “Kimlərə qaldı dünya, Nizami Gəncəvinin 880 illiyi”, “Gəlin gedək Ağdama”3 hissə, “Sirrli dünya” və s. poeziya antologiyalarında da davamlı çap olunur. Uzun illərdən sonra “Dünyam mənim” adlı ilk kitabı 2021 -ci ildə “Borçalı” nəzriyyatında çap olunub. “Ana ürəyi” Emfira xanımın ikinci kitabıdır. Emfira xanımın şeirlərində Qarabağ müharibəsindən, şanlı qələbədən, mərd oğullarımızın döyüşlərdə göstərdikləri şücaətlərdən, qəhrəmanlıqlardan bəhs olunur. O, 70 illik yubileyi ilə əlaqədar olaraq AKİVİHİ Rəyasət heyətinin qərarı ilə “Qızıl qələm” və “Ulu öndər” fəxri media mükafatlarına, eləcə də, “Azərbaycan bayrağı”, “Abdulla Şaiq”, “Xəlil Rza Ulutürk” diplomlarına layiq görülüb. Xaçmaz PİH-i onu davamlı fəaliyyətinə görə fəxri fərmanla təltif etmişdir. Quba Gülüstan elmi ədəbi məclisi də yubilyarı fəxri fərmanla təltif etmişdir. Emfira xanım bu günlərdə isə “Zəfər”, “Xarıbülbül” və “Xurşidbanu Natavan”, media diplomu ilə təltif olunub. Ailəlidir. Üç övladı iki oğlu, bir qızı, yeddi nəvəsi var. Onlardan biri qız nəvəsidi. Biz də hörmətli Emfira xanımı həm yeni mükafaylarla təltif olunması münasibətilə, həm də ikinci kitabının işıq üzü görməsi mübasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

# DAİMA UĞURUNUZ OLSUN
# EMFİRA XANIM




***Umma səxavəti, səxavətsizdən,***
***Varlıdan dövlətli səxavətlisən.***
***Əzəldən hazirə nazil olandan,***
***Gözləmə mərhəmət, ədalətlisən.***

***Emfira Ərkli***



***Türkiyədən gələn nümayəndə heyəti ilə şairlərin və fəalların görüşündən xatirə***



***Xaçmaz rayon İcra başçısı Elnur Rzayevin Emfira Tağıyeva Ərklini fəxri fərmanla təltifi zaman***ı.



***Xaçmaz H.Əliyev adına mədəniyyət mərkəzinin direktoru Aqil Əlisultanovun "İlham çeşməsi" elmi ədəbi məclisinin şairləri ilə dirçəliş günü görüşündən***



***Politoloq Azər Həsrətin Türkiyədə şeirimin bəstəsinin bələdiyyə konsertindən göndərilən dəvətnaməsinin təqdimatı zamanı***




***Novruz şənliyində «İlham Çeşməsi» elmi-ədəbi məclis üzvlərinin kitablarının nümayişi.***




***Quba Gülüstan İrəm elmi ədəbi məclisin sədri Seyid-məmmədov Şixəmməd müəllimin fəxri fərmanla təltifi zamanı.***



***Heydər Əliyev muzeyində, şəhid ailələri və aktiv qadın-larla 8 mart  qadınlar bayramındakı tədbirdəki görüşdən xatirə  şəkili***

# ÖN SÖZ

Mən Emfira xanımın yazıları  və əvvəlcə onun dövrü mətbuatda nəşr olunan  şeirləri ilə tanımış oldum. Onun kitablarında vətənpərvərlik, bədii sözə həssas münasibət, sərras bədii təsvir istedadlı bir şairə olmasından xəbər verirdi. Sonra mətbuatda onun müxtəlif mövzuda şeirləri ilə bağlı bədii-publisist qeydləri ilə tanış oldum. Onun şeirlərində özünəməxsus yazı manerasını, mətnə fərqli yanaşma tərzini müşahidə elədim. Onun şeirlərində realizm və romantizm elementləri kəsişir. Onun kitablarında  adları çəkilən şəhidlərimiz, Qarabağ müharibəsində şəhid olan yüzlərlə şəhidlərdən bəziləridi. Onların timsalında şairə  şəhidlərimizin vətən uğrunda necə qəhramanlıq göstərdiyini, onların vətən deyə ölümün gözünə dik baxaraq şəhidlik zirvəsinə ucaldığını göz yaşları ilə bərabər kitablarına köçürmüşdü. Son vaxtlar müəllifin mətbuatda dərc olunan, ayrı-ayrı ədəbiyyat, incəsənət və mədəniyyət adamları ilə müsahibələrindəki bir çox  bədii-publisistik məqamlar da onun bir şairə kimi zaman-zaman püxtələşməsindən xəbər verir. Mən  şairənin  şeirlərini oxuduqca onun şeriyyət dünyasında tutduğu yolu açıq və aydın gördüm. Mənə elə gəlir ki, sairəin vətən, şəhidlər, qazilər, ana-ata və övlad sevgisiylə, ümumiyyətlə  yazdığı seirlər müasir Azərbaycanımın hər bir gənc oxucusuna örnəkdi. Şairə şeirlərini öz dəsti xətti ilə işləmişdir. Şairə şeirlərinin birində  "Xaçmazım" deyərək  yazır:

***Nə gözəldi Xaçmazımın havası,***
***Sevinci bayramdı, suyu dəvası,***
***Bərq vurur işıqlar, bir nur parçası,***
***Nur saçır baxanda parlaq siması.***

*Sönməz bir məşəldi, yanan ürəkli,*
*Qızıllı, gümüşlü, altun biləkli,*
*Gecəsi gündüzlü, almaz dirəkli,*
*Nur saçır baxanda parlaq siması.*

*Sevib sevilməkdi, gəncliyin dadı,*
*Böyük bir həyatdır, bulağın tamı,*
*Sevənlər yığışıb, hardadı, hanı?*
*Nur saçır baxanda, parlaq siması.*

Şairə başqa şeirlərinin birində də deyir:

*Yoxdu bu dünyada, səndən ey vətən...!*
*Tayın-bərabərin, yoxdu millətim...!*
*Sakit həyatlara, soxuldu düşmən...!*
*Ayırmaq olarmı, dırnağı ətdən...?!*

*Nə qədər dünyada əclaf, maymağ var...?!*
*O qədər narahat olacayıq biz...*
*Nə qədər həyatda acgöz, tamahkar...?!*
*Məcburən vuruşa qalxaca*ğıq biz*...!*

*Nə qədər ətrafda, gəmirici var...?!*
*O qədər didəcək həyatımızı...!*
*Nə qədər satqın var, vicdansızlar var...?!*
*Qoy döysün dizinə insan olanlar...!*

*Az qalıb ey vətən "sil göz yaşını"...!*
*Düşmən içimizdən təmizlənəcək...!*
*Nə qədər sərhəddə əsgərimiz var...?!*
*Düşmən Qarabağdan qaçıb gedəcək!!!*

Və yaxud başqa bir şerində "Mən səni necə sevmişəm" deyərək yazır:

***Mən dünyanı "dolaşmışam",***
***Ürəyimlə çarpışmışam,***
***Qayalar, dağlar aşmışam.***
***Özüm də çaş-baş qalmışam,***
***Mən səni necə sevmişəm?***

***Həyat məni ağladanda,***
***Həyat məni dağladanda,***
***Əl-qolumu bağladanda.***
***Ən adi bir şey bilmişəm,***
***Mən səni necə sevmişəm?***

***Həyat məni alışdırıb,***
***Həyat məni çalışdırıb,***
***Həyat məni qovuşdurub.***
***Sevmişəm, həm sevilmişəm,***
***Mən səni necə sevmişəm?***

***Dünyam mənə dayaq olub,***
***Dünya mənə soraq olub,***
***Arzularım donub, solub.***
***Ayaq üstə büdrəmişəm,***
***Mən səni necə sevmişəm?***

***Eyləsənə sən bir soraq,***
***Birləşək bir saziş quraq,***
***Zəncirləri qıraq, ataq.***
***Gör necə həyat görmüşəm,***
***Mən səni necə sevmişəm?***

Şairə başqa bir şerində "bir gözələ" həsr etdiyi şerində deyir:

***Bu gözəl vücudu, gözəl ruhunu,***
***Necə gizlədirsən, orda ay gözəl?***
***Sinən bir qalxandır, dilin də qılınc,***
***Necə qoruyursan, özün ay gözəl?***

***Günəş bərq vuranda siman parlayır,***
***Bütün qaranlıqlar, nura boyanır.***
***Əsəndə sərt külək, qopanda tufan,***
***Buludlar toqquşur, səs də qoparır.***

***Unutdururmu sənə, eşq-məhəbbəti,***
***Yadına salırmı, hicran, həsrəti?***
***Solurmu yarpağı, ağaclarının,***
***Qopara bilirmi budaqlarını?***

***Çox gözəl yaraşır ruh bədəninə,***
***Getmə uzaqlara, gəl sevgilinə.***
***Nuhun gəmisi tək "gəmin" batacaq,***
***Səni də qərq edıb, dərya udacaq.***

***Gəl sən yanımda dur, məndən ayrılma,***
***Batan arzulara can verək, durma.***
***Sənin arzuların, istəklərinlə,***
***Qol-qanad çırparaq, biz pərvazlanaq.***

Şairə başqa bir "nəsihət" şerində deyir:

***Sığmaz heç bir məkana,***
***hər kəsin, bir sevgisi..***

*Ən gözəli həyatdır,*
*O da, Allah vergisi!*

*Nəsib olmayan bir eşq?*
*Bir həyat əfsanəsi.*
*Sevib, sevilmək özü,*
*Bir gənclik nişanəsi.*

*Yaşamasan həyatın,*
*Sənə olan payını?*
*İtirərsən dövrünün,*
*Bütün haqqı-sayını!*

*Keçmə gözəl Allahdan,*
*Səni qoruyan odur..*
*Əgər naşükür olsan,*
*Cəhənnəm alovudur.*

Emfira xanımın "Tanrım məni unutma" şeirlər kitabı da mənə elə gəlir ki, çapa gedə bilər. Şairəyə bu yolda uğurlar və növbəti kitablarının çapa hazırlanmasını arzılayıram.

***Vidadi Turan Ağdamlı: Azərbaycan və İraq- Türkmən Yazıçılar Birliyinin üzvü.***



# VƏTƏNİMİN DAŞINA QURBAN

# ŞƏHİD VƏ ANA

***(Xaçmaz şəhidi Davud Hacıyeva İthaf olunur!)***
***(Şəhid anasının arzuları, dialoq)***

Həyat qocaltdı məni, qəlbim cavan olsa da,
Müharibə qızışdı, atəş ərşə qalxsa da.
Alovlandı ürəklər, alovlandı saf qəlblər,
Şəhid verdi vətənim, çoxaldı qəlbdə kədər.
Olmayaydı bəd xəbər, sevincim çoxalaydı,
Qələbə sorağıyla səhərim açılaydı.

Rayona şəhid gəlir, yayıldı birdən xəbər,
Sıxıldı qəlbi birdən, yumuldu dərhal gözlər.
Dili, ağzı qurudu, demədi bir kəlmə də,
Ürək çox şey deyirdi, lal olaydı dillər də.

Mafəsini görən tək, əyildi yerə dizlər,
Göz yaşı gildir-gildir, ərşə qalxdı nalələr.
Bilmir neyləsin ana, mafəni qucaqlasın,
Başını ovxalayıb, ayağını axtarsın?

**Şəhid:-**
-Qarşıla məni anam, gəlmişəm, yanındayam,
Mən vətən övladıyam, ay mənim gözəl anam.
Sevindirə bilmədim, vətəndi öncə.. anam,
Borcumu verdim ona, şəhidlər yanındayam.
Yerimi rahla gəlim, diz üstə başım qoyum,
Bu qalib torpağımda, sonra da məskunlaşım,
Bağışla məni ana, sənə dayaq olmadım.

**Ana:-**
-Yaxşı birrtgv yerə qoyun, tez oğlum inciməsin,
Qonaqdı o bu gecə, istəyir rahatlansın.
Ümüd çırağım Davud, doyunca görəmmədim,
Niyə hər səhər-axşam, sevincini bölmədin...?
Arzulardan söz açıb, sorğu-sual vermədin...?
--Müharibə qoymadı, arzulara çatasan,
Dedim evləndirərəm, tək salamat olasan.
İstədiyin seçərsən, elçiliyə gedərəm,
Evləndirrəm səni mən, gərdəyinə gətirrəm.
Xonçaların  bəzərəm, təamları düzərəm,
Qələbə sorağıyla, bitməyin izləyərəm.
Bir nəvə sorağıyla səbrimi də gözlərəm,
Hər kəsin süfrəsində, qulluğunda gəzərəm.

## AXIR NƏFƏSİNDƏ ANAYLA SÖHBƏT

***(Yardımlı şəhidi Amal  Alışanlıya ithaf!)***

Dərdim vətən dərdi mənim,
Mən orduya yazılmışam.
Yardımlıdı obam-elim,
Vətənimçün vuruşmuşam.
Adım Amal  Alışanlı,
Düşmənlərə dağ çəkmişəm.

Bir gülləyə alıb canın,
Soysuzları pərt etmişəm.
Yaşamaq da çox gözəldir,
Vuruşmaq ondan özəldir.

Şəhid oldum ana.. canım,
Torpağa töküldü qanım.
Haqq yoludur bu yolumuz,
Şanlıdı bizim ordumuz.

Dağ döşündə topladığın,
Gülləri dərərsən ana!
Hər şəhidin məzarına
Gülləri düzərsən ana!

## İSLANIB, QURUYUB, KÖÇƏNLƏR VAR Kİ..

***(Cəmi dünyasını dəyişənlərə, şəhidlərə ithaf...
Allah rəhmət eləsin!)***

Sanma bu dünyadan tək sən köçürsən,
O qədər dünyadan köçənlər var ki...
Biri isti gündə, yağışlı gündə,
İslanıb, quruyub, köçənlər var ki...

Baharın ətrini qoxlayıb gedən,
Yazın gül-çiçəyin qoxlayıb gedən,
Hər yeri, hər şeyi yoxlayıb gedən,
İslanıb, quruyub, köçənlər var ki...

Dərd deməm dərdlərə hali olanlar,
Arzusu çin olub vali olanlar,
İnsana dayaqkən xali olanlar,
İslanıb, quruyub, köçənlər var ki...

Bir yetim qalıbdır, üzlərdən iraq,
Valideyn  həsrətli, sönübdü çıraq,
Hamıdan, hər şeydən uzaqdı uzaq,
İslanıb, quruyub, köçənlər var ki...

***2023***

## ŞƏHİDLƏR

Şəhidlər gələndə sızlayır qəlbim,
Yaralar qan verir, yada düşəndə.
Şəhid anaları gözləri dolur,
Çağırış vərəqi evə verəndə.

Axı müharibə, övlad yarası,
Qoparır qaysağı, qəlbi qanayır.
Bir vaxt onlara da hərbi kommissar,
Çağırış vərəqi bir-bir paylayıb.

Könüllü gedənin əksəriyyəti,
Şəhid kimi mafələrdə qayıdıb.
İgid balaların cansız nəşləri,
Yola salan analara paylanıb.

# ŞƏHİD NURAN TAPŞIRALANDA TORPAĞA

***Şəhid Nuran Mirzəyevin əziz xatirəsinə həsr olunur!***

Düzəmlədi köynəyinin yaxasını,
Musiqiylə yola saldı balasını.
Nəsihəti, sözləri qaldı yanında,
Yanağında izi qaldı bacının da.

Kasıblıqla böyümüşdü bu uşaqlar,
Öz xoşlarıyla döyüşə yollandılar.
Anası yazıq oğlunu ağlayırdı,
“Qımıl” kənddə ürəyini dağlayırdı,

Döyüşlərə göndərdiyi balasını,
Sağ gəlsəydi, sarıqlardı yarasını!

Güllə-çiçəklə bəzədildi yolları,
Ərşə qalxdı ah-nalələrin qolları,
Bir igidin nəşi də medallarıyla,
Sipər olmuşdu sinəsi oğulların.

Qəhərləndi əzizləri, sirdaşı da,
Qohum-qonşu, mərasimdə olanı da,
Ağlayırdı böyük-kiçik doğması da,
Şəhid Nuran tapşırılanda torpağa.

## VƏTƏNİMİN DAŞINA QURBANAM

Yoxdu bu dünyada, səndən ey vətən...!
Tayın-bərabərin, yoxdu millətim...!
Sakit həyatlara, soxuldu düşmən...!
Ayırmaq olarmı, dırnağı ətdən...?!

Nə qədər dünyada əclaf, maymağ var...?!
O qədər narahat olacayıq biz...
Nə qədər həyatda acgöz, tamahkar...?!
Məcburən vuruşa  qalxacağıq biz…!

Nə qədər ətrafda tülkü, çaqqal var...?!
O qədər didəcək həyatımızı...!
Nə qədər satqın var, vicdansızlar var...?!
Qoy döysün dizinə insan olanlar...!

Az qalıb ey vətən “sil göz yaşını”...!
Düşmən içimizdən təmizlənəcək...!
Nə qədər sərhəddə əsgərimiz var...?!
Düşmən Qarabağdan qaçıb gedəcək!!!

## ŞƏHİD OLSAM SEVİNƏRƏM!

***(Şəhid Yaşar Xuduyevin əziz xatirəsinə həsr olunur!)***

Qubanın Dağlı kəndindən,
Quba komisarlığından.
Həqiqi hərbi xidmətə,
Yola düşdü şəhid Yaşar.

Goranboyun Ballı qaya,
Ərazisində yerləşən.
Hərbi hissədə and içdi,
XTQ-ə ərizə verdi.

Gecə ilə Murovdağda,
Güclü döyüşlər başladı.
Əsgər, gizir, zabitləri,
Komandir birgə topladı.

Qorxmayaraq vuruşdular,
Düşmən ilə üzbəüzə.
Qan su yerinə axırdı,
Qanları çıxmışdı dizə.

Nə gecəsi, nə gündüzü,
Nə yeməyi, suyu vardı.
Tək gülləsi pulemyotu,
Dayanmadan atılardı.

Döyüşlərə qatıldılar,
Silahlara sarıldılar.

Düşmənləri ərazidən,
İti qovan tək qovdular.

Can vətənim səninlə mən,
Həlak olsam fəxr edərəm.
Elə güclü, qüdrətlisən,
Şəhid olsam sevinərəm!

## ŞƏRƏF,LƏYAQƏTLƏ VURUŞUN BARI

Sanki təcrid oldum mən bu dünyadan,
Körpə cəsədləri başsız görəndən.
Necə də biganə baxırıq buna,
Dünyanın əlləri bulanıb qana.

Ey qansız dövlətlər, qansız rəhbərlər,
Çox da sizə öldürün əmr veriblər.
Söyləyin, siz niyə, döndüz nadana,
Bulandı əliniz insan qanına.!!!!?

44 gün müharibə oldu ölkədə,
Birinin də burnu qanamadı ki.
Komandan əmrini vermişdi belə,
Bir nəfər mülküyə toxunmadı ki.

Oğul böyüdübdü bizim analar,
Mərdi mərdanə tək vuruşur onlar.
Bir qadın, bir qıza əl vurmayıblar,
Qaldı ki, uşağa əl qaldırsınlar.

İtə də, qurda da, bir ehtiyatla,
Yanaşma tərziylə seçilibdilər.
Qadına, qocaya, körpələrinə,
Bir çırtmayla belə, əl vurmayıblar.

Əksinə cəbhədə əsir qadını,
Yedirib, içirib yola salıblar.
Xocalı qatili olan qadının,
Şərəfinə belə toxunmayıblar.

Kimdi bu dünyanı tutub oturan,
Kimdi mal-mülkünü burdan aparan?
Şərəf, ləyaqətlə döyüşüb onlar,
Qoruyub tarixdə, vicdan meyarın.
Mülküyə bir güllə atmayıb onlar.

## AĞLA EY VƏTƏNİM, AĞLA

***(Tovuzun təxribatçılardan azad olunmasında, 44 günlük Qarabağ savaşında, Suqovuşanın azad olunmasında fədakarlıq göstərən Biləsuvarlı qəhraman Mübariz İbrahimovun yerlisi, qəhraman şəhid gizir Saleh Məcidzadəyə ithaf edirəm. Hərbiçi qardaşı Əhliman Məcidovun xahişiylə)***

Kasıb üçün, yetim üçün,
El yolunda gedən üçün,
Ən son anda özün üçün,
Ağla, ey vətənim, ağla.

Sən çağla ki, könlün doysun,
Qoy səsini cahan duysun,

Göz yaşları izin qoysun,
Ağla, ey vətənim, ağla.

Biləsuvar torpağında,
Ömrün gözəl bir çağında,
Getdi Saleh, mərd oğlun da,
Ağla, ey vətənim, ağla.

Düşmənlərə qan udduran,
Nişanlıykən öndə duran,
Bir tale də oldu viran,
Ağla, ey vətənim, ağla.

Ürəyində vətən qədər,
Sevgisi yox ona yetər,
Getmədi bir anı hədər,
Ağla, ey vətənim, ağla.

Çox sevərdi o idmanı,
Heç olmazdı bir boş anı,
Neçə-neçə medalını.
Özü getdi, adı qaldı,
Ağla, ey vətənim, ağla.

Şəhid Saleh öndə durub,
Düşməninə qan uddurub,
Hadrudda qəhrəman olub,
Ağla, ey vətənim, ağla.

Sinəsində medal dolu,
Başla birdir qalxan qolu,

Murov dağı sağı solu,
Ağla, ey vətənim, ağla.

Vuruşduğu hər bir döyüş,
Hər gün oldu yeni dönüş,
“Salehlər”dən qalır bu iş,
Ağla, ey vətənim, ağla.

***2023***

## TƏK QALAN ŞƏHİD ATASI

Bu nə hayat, bu nə rüzgar!!
Həyatda dərdsiz insan yox!
Ona dayaq olanı yox,
Tək qalıbdı, həyanı yox!

Şəhid olub bir balası!
Köçüb, gedib şah anası,
Parçalanıbdı dünyası,
İlk yol ayrıcında qalıb!

Nə o yannıq, nə bu yannıq,
Xəstə ata köməyi yox,
Kimsəsizdi, dərdi də çox.
Belə də bir dərdmi olar?
Dərdinə bir çarə də yox.

# ƏSAS SEV SƏN VƏTƏNİ

Səni aləm istəsin,
İstəməsən də olar.
Dünya sənə yar olar,
Yar olmasan da olar.
Sev vətənin hər yerin,
Nağılların, şeirin.
İnsanların birini,
Sən sevməsən də olar.
Sev elini-obanı,
Sev dağdakı çobanı,
Sev atanı-ananı.
Mehriban düşmənini,
Sən sevməsən də olar.
Sev adət-ənənəni,
Sev babanı-nənəni,
Sev sən nəvələrini,
Sevmə dərd çəkməyəni.
Sevmə pislik edəni,
Sevmə yalan deyəni,
Dodağını büzəni,
Sən sevməsən də olar.
Dayağın olmayanı,
Bayrağı olmayanı,
Sevmə, uzaqlaş ondan,
Sözdə olmasın yalan.
O cüssəli bədəni,
Ermənini əzəni,

Əsgəri, gizirini,
Əziyyətin çəkəni,
Əsas sən sev vətəni,
Onun qədrin biləni.

***2023***

## XAÇMAZIM

Nə gözəldi Xaçmazımın havası,
Sevinci bayramdı, suyu dəvası,
Bərq vurur işıqlar, bir nur parçası,
Nur saçır baxanda parlaq siması.

Sönməz bir məşəldi, yanan ürəkli,
Qızıllı, gümüşlü, altun biləkli,
Gecəsi gündüzlü, almaz dirəkli,
Nur saçır baxanda parlaq siması.

Sevib sevilməkdi, gəncliyin dadı,
Böyük bir həyatdır, bulağın tamı,
Sevənlər yığışıb, hardadı, hanı?
Nur saçır baxanda, parlaq siması.

## ODLAR YURDUM

Ustadlar məskəni Azərbaycanın,
Nə qədər ziyalı, aliliyi var.?
Nə qədər əzabı, dərdi də olsa.?
O qədər qoynunda,  təssübkeşi var.!

Kasıba bağlıdır vətən, el-oba,
Təknədə çörəyi yoxsa da onun.!
Baxmaz ehtiyaca çağırar çaya.
Ruhu vətən eşqi, duz çörək onun.

Varlıda insaf yox, dayaqda dursun,
Gəlib beş quruşu, kasıba versin.
Kasıb boğazından tukəni  verər,
Desən canını ver, onu da verər.

***2023***

## KOMANDANA MÜRACİƏT

Allahdı dayağımız, arzumuz, muradımız...!
Xalqına bağlanmasa, yox olar məramımız.
Düşmən oçaq qırağı, düşmən hasar dibində,
Düşmən süfrə başında, komandan sən dayaq ol.

Düşmənə güvənənin, vətəni puç olacaq,
Qonşuya  güvənənin, evi şamsız qalacaq.
Yansa da od-ocağın, tüstüsünü görərsən,
Qızınmaq istəyənə Allahım sən dayaq ol.

Əziz komandanımız, millətinə inan sən,
Məmurlar azğınlaşıb, süpür birdəfəlik at.
Xalqın sənə inanır, inamları qırma sən,
Sən də inan  xalqına, sən də ona dayaq ol.

Həmişə sağlam olub, xalqa nəfəs, dayaq ol,
Ac qoyma sən xalqını, millətə güvənli  ol.
Düşmənə sipərdi xalq, o öndə dayanacaq,
Vətən sizə əmanət, həmişə önündə ol.

***2021***

## BİR MİLLƏT İKİ DÖVLƏT

***(Başın sağ olsun)***

Dərdimizə məlhəm etdin,
Şər başından vurdu sənin.
Xeyir əməllər eylədin,
Dağıtdılar yurdun sənin.

Göz yaşları axıtdılar,
Xocalıda ölənlərin.
Param-parça oldu qəlbi,
Bir millət iki dövlətin.

Türkiyəylə Azərbaycan,
Qardaşlığın qısqandılar.
O xeyirxah olan qəlbi,
Dırnaq ilə qopartılar.

Yarana məlhəm qoyarıq,
Sən heç darıxma qardaşım.
Düşmənə qalib olaraq,
Əl-ələ tutub çıxarıq,
Qoy gəlsin zaman, dərd daşım.

***2023***

## TET-A-TET

***(Azərbaycan-Erməni)***

**Düşmən dedi:-**
Qarabağ da, Xankəndi də, Laçın da,
Yerləşdiyimiz torpaqlar bizimdir.
**Azərbaycan:-**
Cəhənnəmlər, bataqlıqlar sizindir!
**Düşmən dedi:-**
Bu dağların sərvətləri bizimdir.
**Azərbaycan:-**
Arzuların saxtalanmış, dərindir!
**Düşmən dedi:-**
Bu ormanlar, bu dərələr, bu dağlar,
Bu mədənlər, sərvətlər də bizimdir.
Mədəniyyət, incəsənət var siz də?!
Tar, kamança, qaboy, tütək, zurna da,
Klarneti, nağarası, qeyrisi də...
Mahnıları, rəqsləri də bizimdir..
Kabab, boşbaş, yeməklər də bizimdir.
**Azərbaycan:-**
Nə deyirsən..?!!!
Saydıqların hamı bizim kökümüz,

Sərvətimiz, nöyütümüz /neft/, közümüz.
Yeraltı, yer üstü sərvətlərimiz,
Tükənməyən bir varlıqdı biləsiz!
Adımıza "yan" qoşdunuz, "sizindir"?!
Dadımıza  "yan" qoşdunuz "sizindir"?!
Qanımıza "yan" qoşdunuz "sizindir"?!
Ay öləsiz, gəbərəsiz, leşiniz,
Onlar olar doğru dediz sizindir.
"Siz" sözü də yaraşmayır "sizlərə".
Siz özünüz yaraşmırsız bizlərə!
Başa salım gör sənə ay erməni?!
Sənlə burda danışmağa dəyərmi?!
Nə adların, soy adların, məkanlar,
İrəvan da, yaşadığın hər şəhər,
Havası da, suları, daş-kəsəyi,
Dədə, baba bizim olub, olacaq,
Siz yadların, qəbriniz qalmayacaq.!!!!
Kişiləşib önümüzə çıxsanız,
Əlinizə özgə silah alsanız.
Tuşlayarıq alnınıza gülləni,
Dağıdarıq o ağılsız kəlləni.!!
Adınızı yer üzündən silərək,
Hamınızı bircə- bircə qıraraq.!
Tələsməyin zəmanə də bizimdir!
Külünüzü səmaya sovuracaq!
Azərbaycan oğulları olacaq!!
Qarabağ Azərbaycanın...!
Xankəndi  Azərbaycanın...!
Laçın da Azərbaycandır...!
Qarabağımız bizimdir...!!!

***2020***

## HƏSRƏTLƏ..

Səfərbər olunmuş oğul, ananın,
Bir an qucağında yumdu gözünü.
Niskilli ana da, bərk qucaqlayıb,
Bağrına basaraq, öpdü üzünü.

Silib göz yaşını dedi anacan!
-Kişilik məktəbin keçməliyəm mən.
Düşməni yerində oturtmaq üçün,
Döyüş taktikasın bilməliyəm mən.

Ana yola salır, doğma balasın,
Əmanətsən deyir, vətənə oğul!
Dürüst ol düşmənə göstər gücünü,
Verdiyin sözünə əməl et oğul!

Kənardan baxanlar göz yaşlarıyla,
İzləyir ananı, onun oğlunu.
Bir ana oğlunu əsgər yollayır,
Gözləyir digəri, igid yolunu.

## FARS REJİMİ TAXTIN UÇSUN BAŞINA

Qan qardaşım bu gün əziyyətdədi,
Təminatları nə vəziyyətdədir?
Qış kəsdirib qapısın, bacasını,
Sinəsində körpə uşaq mələşir,
Ac qarınla axşamacan əlləşir.

Şaxta keçir sümüyə, iliyinə,
Baxan varmı çayına, çörəyinə?
Uşaqların çəkməsi, geyiminə,
Donacaqlar çatmasalar dadına,
Bu rejimin, kül olubdu başına.

Çöl-biyaban ailələr dolaşır,
Xaxaları bir-biriylə kəlləşir,
Əməlləri baxırsan ki, göz deşir.
Fars rejimi kül olubdu başına,
Ay qansızlar, taxtın uçsun başına.

***2023***

## VƏTƏNİMİN OĞLUYAM

Vətənimin oğluyam,
Yalançıyam, doğruyam.
Bunu Allahım bilir,
Ürəyimlə bağlıyam.
Sərhəd zonasındayam,
Xidmətimdən razıyam.
Həyat o qədər şirin,
Sərhədçidən biriyəm.
Səhər tezdən oyanır,

İşimə yollanıram.
Avtomatım əlimdə,
Dostuma güvənirəm.
Sərhəd zastavasında,
Düşmən hər an ayıqdı.
Ordumuz postlarında,
Həm ayıq, həm sayıqdı.
Dünən keçmək istəyən,
Düşməni saxladılar.
Yedirib içirdilər,
Yarasın bağladılar.
Maşına da mindirib,
Çasta yola saldılar.

Dumanlı bir havada,
Azıb düşüblər əsir.
Bilmədən iki əsgər,
Əsirliyə düşdülər.
O ki, var əzişdirib,
Qana qəltan etdilər.
Dəyişmək istədilər,
Razılıq vermədilər.
Sərhəddən keçib deyə,
Cinayət qaldırdılar.
Yazıq ata analar,
Gözü yolda qaldılar...
Ukrayna torpağında,
Misir Qasımlı kimi,
Səbuhiylə birlikdə.
Məhkəməni qurdular.
“Milli Qəhrəman” kimi,
Türmədə saxladılar.

## VƏTƏNƏ BORCU

Vətən çağırdı bizi,
Səfərbərlik anıdı.
Yığışdı qardaş-bacı,
Yola saldı karvanı.
Gecə çatdıq mənzilə,
Kazarmaya bölüşdü.
Hər gəlmiş bir əsgərə,
Əsgər yatağı düşdü.
Bir dəst əsgər geyimi,
Bir avtomat verildi.
Düzəmləndi yataqlar,
Mətbəxə say deyildi.
Yemək də hazırlandı,
Düzdülər süfrələrə.
Hamı bir nəfər kimi,
Oturdular yeməyə.
Bitirib yeməkləri,
Getdilər dincəlməyə.
Səhər hamıdan tezcə,
Oyanıb duran zaman.
Yataqlar yığışılır,
Hər kəs eyni vaxt -zaman.
Ardını əsgər bilir,
Həm silir, həm süpürür.
Geyiminə hər anda,
Gizir nəzarət edir.
Hər kəsin bir naryadı,
Hər kəsə vəzifə var.
Sözə baxmayanların,

Ayrı cəzaları var.
Beləcə hər gün eyni,
Hadisələr baş verir.
Günü gündən əsgərin,
Günləri saya gəlir.
Verərək o borcunu,
Qayıdır evə gəlir.

## ZATI QIRIQ ZAY ERMƏNİ..

Yaz bitib yay gələndə,
Cücü-mücü çoxalır.
Qarışqalar yeriyir,
Milçəklər gözə girir.
Qarabağda erməni,
Həmin milçək kimidir.
Qabağına çıxanı,
Özü kimi də bilir.
Az qalıb hay erməni,
Çatıbdı day erməni.
Ölüm gəlib çatanda,
Çomax(q)dı vay erməni.
Zat(ı) qırıx zay erməni..

***2023***

## HEYİF DEYİL

Heyif deyil vətənində,
Azad  elin-oban, olsun?!
Düşməninə qan udduran,
Qəhrəman igidlər olsun?!

Keşiyində hər an duran,
Bizə qələbə daddıran,
Dağlarında ocaq quran,
Qəhrəman oğullar olsun?!

Qara pərdə götürüldü,
Önümüzdən qırx dörd gündə.
Qələbəmizdə hökm sürdü,
Mənim azad vətənimdə.

## QƏLƏBƏYLƏ QAYIDIN!!

Çox baxdım ətrafıma,
Bəlkə dəydin gözümə.
Bir nəfər axtarırdım,
Bəlkə baxa sözümə.
Qarşımda bir dağ idin,
Söykənmişdim böyrünə.
Hardasan ay vəfasız?
Heç baxmadın üzümə.
Ürəyim parçalandı,
Niyə yox səs-səmirin?
Eşitdim cəbhədəsən,
Bəlkə oldu əmirin.

Mərdliklə döyüşürsən.
Yoxmudur bir istəyin?
Ürəyim dağa döndü.
Bəlkə oldun qonağım.
Qovun iti qovan  tək,
Düşməni torpaqlardan.
Qələbəylə qayıdın,
Bu ən böyük bir sədan.
Cəbhədə əsgərlərin,
Qoy canları sağ olsun.
Qəbirdə şəhidlərin,
Ruhları rahat olsun.
Sinələrdə medallar,
Qəhrəmanlar var olsun.
Mən də onlarla birgə,
Ürəyim dağa dönsün.

***2021***



## QƏDRİNİ BİL!

Yaxma yağı (düşmən) çörəyinə,
Gücünü ver biləyinə,
O yaralı ürəyinə,
Məlhəmin qoy, qədrini bil!

Yoxdu ağıllı-kamallı,
Yarı kasıb, yarı varlı?
Üzündə də qoşa xalı,
Xanımının qədrini bil!

Dünya dövr edir, sənə nə,
Fırlanırsan, nə olsun nə?
Başqasının sevincinə,
Kədərlənmə, qədrini bil!

Oğul, uşaq, təhsil alır,
Ailədə nəsil artır,
Dövlət qərar imzalayır,
İgid oğlun qədrini bil!

Sanma belə davam etsin,
Dediyin yerinə yetsin,
Düşmənini oxla, getsin,
Vətəninin qədrini bil!

***2023***



# OLMASA SAF MƏHƏBBƏT

## MƏN SƏNİ NECƏ SEVMİŞƏM

Mən dünyanı “dolaşmışam”,
Ürəyimlə çarpışmışam,
Qayalar, dağlar aşmışam.
Özüm də çaş-baş qalmışam,
Mən səni necə sevmişəm?

Həyat məni ağladanda,
Həyat məni dağladanda,
Əl-qolumu bağladanda.
Ən adi bir şey bilmişəm,
Mən səni necə sevmişəm?

Həyat məni alışdırıb,
Həyat məni çalışdırıb,
Həyat məni qovuşdurub.
Sevmişəm, həm sevilmişəm,
Mən səni necə sevmişəm?

Dünyam mənə dayaq olub,
Dünya mənə soraq olub,
Arzularım donub solub.
Ayaq üstə büdrəmişəm,
Mən səni necə sevmişəm?

Eyləsənə sən bir soraq,
Birləşək bir saziş quraq,
Zəncirləri qıraq, ataq.
Gör necə həyat görmüşəm,
Mən səni necə sevmişəm?

***2021***

## SEVƏ BİLMƏYİB

Aşiq olub bu dünyanın özünə,
Aşiq olub bu dünyanın sözünə,
Aşiq olub o simana gözünə,
Maraqlıdı səni niyə sevməyib?

Çalışıb hər zaman səni görməyə,
Çalışıb səninlə ömür sürməyə,
Çalışıb hər zaman ömrüm deməyə,
Maraqlıdı səni niyə sevməyib?

Gəzdiyi yollarda səni arayıb,
Hər zaman, hər işdə, sənə yarayıb,
O sənin yerini gizli arayıb,
Maraqlıdı səni niyə  sevməyib?

Yatıb yuxuda da görmək istəyib,
Çox çalışıb, necə görüm deməyib,
Nə qədər alçalıb,səni ucaldıb,
Maraqlıdı səni niyə sevməyib?

Süfrəni də salıb, hər şeyi düzüb,
Çeşidlə nimçənə təam da düzüb,
Nəyi istəmisən onu da alıb,
Maraqlıdı səni niyə sevməyib?

Emfira yazacaq qəmdən, qüssədən,
Eşqi məhəbbəti unudub indən,
Yazıb yaratmağı sevib binədən,
Maraqlıdı səni niyə sevməyib?

***2021***

## SƏNSİZ

Sənsiz  xoş keçərmi günlərim mənim?
Bir ömrə bəs edər, bircə görməyim.
Açılmaz önümdə, xoşbəxtlik qapım,
Nəfəsin ruhuma qidadır mənim.

Bar verməz ağaclar, açmaz çiçəklər,
Sənsiz çəmənlikdə qoxumaz  güllər.
Dinər hər bir canlı, inciməz  ruhu,
Nəfəsin ruhuma  qidadır mənim.

Fikirlər dağınıq, düşüncən geniş,
Dağların yolları, gah yoxuş, eniş.
Mən səni sevmədim sanki bir naxoş,
Nəfəsin ruhuma qidadır mənim.

***2022***

## BƏS ELƏMƏZ

Mənə ömür bəs eləməz,
Bundan sonra “sevsəm” əgər.
Desəm sevgi yaxşı şeydi,
Dost-doğmalar gör nə deyər?!

Yalanları demək günah,
Aparasan kimə pənah?
Ürək nədən çəksin ki, ah?
Aşiq kəslər verər dəyər.

Kefi-keflə, dərdi-dərdlə,
Çıxma yola sən həm-dərdlə,
Gör işini yalnız mərdlə,
Yoxsa ömür gedər hədər.

## MƏLHƏMİN QOYSUN

***(Kimsəsiz qaziyə ithaf)***

Sənin hər nazını çəkərəm inan,
Sənin hər nazına dözərəm inan.
Çayı, çörəyini bişirib həman,
Özüm öz əlimlə verərəm inan.

Sənin cəbhələrdə çəkdiyin  əzab,
Kimsəni çəkməyə məcbur etməzsən.
Sənin gecələri yuxusuz qoyan,
Gözləri kimsədən ala bilməzsən.

İndi qayıtmısan baxanın varmı?
O yetim canını ovanın varmı?
Çəkirsən ağrını-acını heyhat,
Yarana tökməyə, məlhəmin varmı?

Sızıldayır canın, gözündə yuxu,
Yummursan gözünü, yatıbdı çoxu.
Barı bir mələk tap, yaran sarınsın,
Səhər də, axşam da, səni qoxusun.

Öpüb yanağından isti nəfəslə,
Dərdə  çarə tapıb məlhəmin qoysun.

***2022 Xaçmaz.***

## QƏBRİMİ BƏZƏRSƏN

Nədən xəbərim yox, mənim dünyada?
Həyat məni çox çək-çevirə salıb.
O qədər görmüşəm haqsızlığı mən,
Ölmək istəmirəm, əzrayıl donub.

Onsuz da dünyanın hər bir yerində,
Ağlayan insanın say-hesabı yox.
O qədər göz yaşı axdı dünyada,
Gözlərin nuru da sönübdür artıq.

Baş daşı mərmərdən olmasa olar,
Ucaltma göylərə gözə girməsin.
Əgər bu dünyada sevilmirsəmsə,
Güllərin əvəzi şeir düzərsiz.

## KƏSDİN BİR BƏND TƏK

Baxarkən qəlbimin pəncərəsindən,
Qəmdən başqa ayrı bir şey gördünmü?
Könlümün yanıqlı əndişəsində,
Ya bir sevgi gördün, sevinc gördünmü?

Bəlkə qonaq oldun qəm pəncərəmdə,
Önündən keçənlər bir kölgə oldu?
Dolan gözlərim də, kipriklərim də,
Dolub daşan sular, bulaqlar oldu?

Qarşısı alınmaz göz yaşlarım da,
Axdıqca axırdı, dağ çayları tək.

Nə bilim bəlkə də yanılıram mən,
Qol açsan qarşısı alındı bəlkəm?

***2023***

## OLMASA SAF MƏHƏBBƏT

Ağlama sən həyatım,
Göz yaşın silən olmaz.
Dərdi-sər o qədər ki,
Silməyə qələm çatmaz.

Gah qələmin qırılar,
Gah  da əlin yorular.
Kağız sürüşər, o an,
Yazın da ki, pozular.

Gör necə dəyişibdir,
İnsan, həyat, kainat,
Allahım istəməsə
Onda olmaz səadət.

Tək deyilik həyatda,
Lap olmasın heç kimin.
Başın üstdə Allahın,
Yerdə sən, bir də varın?

Təklik Allaha məxsus,
Sən heç düşünmə bunu.
Tək deyil bir kimsə də,
Həkk elə beynə bunu.

Harda hörmət olacaq,
Orda səadət, dövlət.
Qarşılıq olmaz heç vaxt,
Olmasa  saf məhəbbət.

## SEVGİYƏ QARMAQ ATMARAM

Nə qədər sevsəm də onu,
Sevgiyə qarmaq atmaram.
Məni qınamış olsalar,
Kandarına da baxmaram!

Ziyan vurmaq istəyəni,
Mən ayağından asaram.
Hər kəsin bir taleyi var,
Xoşbəxtliyini pozmaram.

Sevgi müqəddəs anlamdı,
Yusif, Züleyxadan qalıb.
Sevərəm, qəlbin qırmaram,
Sevgiyə layiq olaram.

Qəlbinin incə telinə,
Heç vaxt axı toxunmaram.
Dərmana möhtac olarsa,
"Yarasını" sarıqlaram.

## HƏYATINDA OLUM SƏNİN

Görürəm ki, çox yalqızsan,
Gəl nazını çəkim sənin!
Yalnızlığın daşını at,
Həyatına girim sənin..
Səni pərişan görəndə,
Narahatlıq boğur məni.
Ürəyimdə yeni-yeni,
Fikirlərim doğur məni.
Gəl qadanı alım sənin,
Qəlbini ovudum sənin.
İncitmişəm bağışlarsan,
Həyatında olum sənin.

## AZ DA OLSA ÇAPIM MƏN

Tərpətdi qəlbimin incə telini,
Dinlə çaylarımın şır-şır səsini,
Nənəmin kövrəldən zümzüməsini.
Çal kamanım ürəyimi qopar sən,
Uzaqlara bu naləmi, çatdır sən!

Şuşa, Laçın, Xankəndi, Kəlbəcər də,
Boş küçələr, evlər, mənzərələr də,
Ey insanlar... sıxılır nəfəslər də.
Çal kamanım, ürəyimi qopar sən,
O diyara apar, məni çatdır sən.

Xanın səsi bürüyərdi aləmi,
Cıdır düzü valeh edərdi məni,

Ay insafsız, qovlamışıq düşməni.
Çal kamanım, ürəyimi qopar sən,
Cıdırında az da olsa, çapım mən.

## SEVƏNLƏRƏ TÖVSİYYƏ

Sevirəm söyləsə inanmaz heç kəs,
İndiki sevgilər, bir əyləncədir.

Məhəbbətin gücü yandırar qəlbi,
Ocaqların sonu, küllük təpədir.

Sevgi məhəbbətin fərqi böyükdür,
Alışıb yananda, sevdim deyirlər.

Bir müddət keçəndə, soyuqluğundan,
Üşüdüm ocağı yandır deyirlər.

Nə yanma, yandırma, izini qoyma,
Nə də ki, ocaqda külnən oynama.

***2023***

## BU QƏLBİMDƏ PAYIN VAR

Elə bilirsən ki, mən, dərdindən öləcəyəm?
Hər an səni axtarıb, bir gün izləyəcəyəm?
Ürəyimi sındırıb, soruşmursan nə olub?
Niyə belə deyinir, niyə, qəmli nə olub?

Sənli günlərin qədrin bilmədin ki, sormursan?
Yan-yörənə baxırsan, məni orda görmürsən?

Nə vaxtadək mən deyib, sən deyib axtaracam?
Sənin halın necədir, haçanacan soracam?

Bəyəm insan deyiləm, niyə məni sormursan?
Görmək də istəmirsən, hardayam axtarmırsan?
Gecələri sübhədək yummayıram gözümü,
Gözləyirəm bir zaman mən də deyim sözümü.

İstəyirəm  çalasan, zəng səsiylə qol açam,
Şıdırğı bir mahnıda mən doyunca oynayam,
Mən sənin, sən də mənim, sorağında olmayam.
Eh, dünya, etibarsız, sən də davamçısısan.

Qəlbin açarlarını sən nə vaxt açacaqsan?
Cingiltiyə qıfılın, açarları durubdu.
Gözləyir səbirsizcə, nə vaxt açılacaqdır?
Bu ürək daşdan deyil, palçıq deyil yapasan.

Sən nə vaxt ayılacaq, qəlbimi alacaqsan?
Axı burda sənin də, mənim də bir payım var,
Borcumuz o qədərdi, onda haqqı sayım var.
İllər keçir, qocalır, gün yetməyir ay insan,
Ayıl sən nəhayətdə, bu qəlbimdə payın var.

## FAYDASIZDI

***(Xəyal aləmi)***

Deyəsən yadından çıxmışam sənin?
Heç axtarmırsan,  aramırsan məni?
Gözlərim yoldadır, qulağım səsdə,
Varmısan, yoxmusan, anmırsan məni?

Dərdimiz bir idi, sərimiz də bir,
Yeyirdik biz birgə, gəzirdik birgə.
Daha yada salıb, sormursan məni,
Deyən elə mən də unutdum səni.

Eh bibəfa dünya, niyə dağıldın?
Niyə oyatmadın yatanları sən?
Niyə sən yanında oturanları,
Beləcə tezlikdə unutmusan sən?

Eybi yox o gələn tez də yollanar,
Bilirsən də, tez də peşiman olar,
Axırıncı peşmanlıq fayda verməz,
Versə də faydası, müvəffəq olmaz.

***2023***

## TƏXTİMİN TACISAN

Ovçuyam, şikarım sənsən ay gözəl,
Sevgi nişangahım, durma, bəri gəl.
Oduna yandığım bir mələksən sən,
Nişangaha düşdün, durma, bəri gəl.

Yanar bir ürəyəm, vuruldum sənə,
“Yüz il” axtardığım, tapdım, bəri gəl.
Sevgi yollarını gəzdim illərlə,
Gözümə gəldiyin, durma, bəri gəl.

Burda seçimimə mane olan yox,
Eşqidə seçim var, durma, bəri gəl.
İki göz var burda, qıyılıb, durub,
Yetirir sevgisin, durma, bəri gəl.

Şükür ki, tapmışam istədiyimi,
Gözəl deyiləm mən, etdim seçimi,
Əsas məhəbbətdi, elə deyilmi?
Allahdan payımsan, bəxtim, bəri gəl,
Təxtimin tacısan,durma bəri gəl.

## SƏNİN XƏYALINDAYAM

Bu dünya bir pəncərə,
Çoxdur gəlib-gedəni.
Bu qəlbim arzulayır,
Ürəyimcə sevəni.

Dərd-qəm nədi, bilməyib,
Qəlbimi dinləyəsən.
Soruşasan ay insan,
Nə yeyib, nə içibşən?

Dərdli bir insan kimi,
Dərdimi dinləyəsən.

Heç bilmək istəmərəm,
Nə qədər biganəsən?

Mənə çox maraqlısan,
İlk gündən, lap əzəldən.
Çəkilib bir xəlvətə,
Dinlədəsən qəzəldən.

Atılasan, düşəsən,
Oynayasan, güləsən.
Sevincdən nəşələnib,
Yuxuna çəkiləsən.

İslanmışın yağışdan,
Nə qorxusu, hürküsü,?
Sökülüb meşələr də,
Yox çaqqalı, tülküsü.

Nə dost qalıb, nə tanış,
Nə bacı, nə qardaşım.
Darıxanda getməyə,
Yoxdur heç bir sirdaşım.

Sil gözünün yaşını,
Hər zaman yanındayam.
Qəmli keçməsin günün,
Sənin  xəyalındayam.

## AXI GÖYCƏKSƏN...

Hərə bir maşını qoyub altına,
“Bağdadda kor Xəl(i)fə burda mən” deyir!
Gözünə xoş gələn incə mələyə,
Sən, sən olsan da bil, mən də, mən deyir!

Çəkmə sən yaxanı, o əlimdədi,
Dartınsan parası əlimdə qalar.
Axı sən  incəsən, müqavimətin,
Güc etsən sonunda dartışmaq olar!

Qəlbimdə arzular çiçək açmışdır,
Sən bir açılmamış gülsən, çiçəksən.
Tərsliyin arzuya nə dələləti,
Sevmişəm mən səni, axı göyçəksən.

***Bakı***

## BİR ANLIĞA

Yumdum gözlərimi, itsin gözümdən,
Bu an qara kölgə keçdi önümdən,
Söylədim, ay aman, çıx, get, dözüm mən,
Batdı bir anlığa səsi sevginin.

Yağdı qara palçıq gözlənilmədən,
Sanki bir yağışdı, enirdi göydən,
Ağ saçlar bozarıb, qaraldı birdən,
Soldu bir anlığa üzü sevginin.

Mal-qara, camışlar lığlara yatdı,
İnsanlar özü də palçığa batdı,
Sel-sular zəmini yerlərə yaxdı,
Söndü bir anlığa közü sevginin.

Gül üzlü yarımın bənizi soldu,
Qəm-kədər simada yerini aldı,
Baxdı yana-yana, qəmlərə daldı,
Uçdu bir anlığa, sözü sevginin.

## TARİXLƏRƏ YAZILASI..

Hər  keçəndə küçənizdən,
Baxıram ki, pəncərədən,
Tül  pərdənin arxasından.
Gizlin-gizlin boylanırsan,
Bəs nədən daldalanırsan?

Xəyalımda maral-ceyran,
"Ovlayıram" hər bir zaman.
Əllərində hərarətin,
Bacarığın, məharətin.
Sanki məndən utanırsan,
O duyğunla ucalırsan.

Baxçanızın gül-çiçəyi,
Gözəl sözün, təmiz qəlbi.
Qəlbindəki istıliyi,
Göstərirsən hər bir zaman.
Nədən belə odlanırsan,
Alovunla yandırırsan.

Qoxuyanda sevgi ətri,
İnan bürüyür hər yeri.
Ürəyimdə məhəbbəti,
Alışdırıb yandırırsan,
Sonra “külnən” oynayırsan.

## İSİDİR MƏNİ

O gözəl gözlərin dərindən dərin,
Vücudun qəlbimi oxşayır mənim.
Havalar nə qədər keçsə də sərin,
İsidir gülüşün qəlbimi mənim.

Diqqət yetirirəm sənə, simana,
Yad deyil sevinc də, kədər də mənə,
Nə qədər desən də sən yadsan  mənə,
İsidir baxışın qəlbimi mənim.

Dünya çox nəhəngdir, ovuca sığmaz,
Onu parçalamaq mümkünsüz, olmaz.
Dağıdar, səpələr, yeknəsək olmaz,
İsidir duruşun qəlbimi mənim.

***2023***

## DÜŞDÜM

Yağışdan qaçırdım, yağmura düşdüm,
Qar, çovğun başladı, borana düşdüm.
Yayı yay ayında yazı yazanda,
Sevgili yarımın toruna düşdüm.

## GÖRÜŞƏK

Bir vaxt elə, sənlə bir də görüşək,
Üz-üzə oturub, bir də dərdləşək.
İçindən gələni söylə sən mənə,
Dilim də deyəcək doğrusun sənə.

Vəfalı dost kimi, görüşək bir də,
Sevinci bölüşək, verməyək qəmə,
Qəlbini zəpt edib, çıxıb gedənə,
Yer vermə, sonra da, yönəlmə mənə.

Yadına düşürmü ilk görüşümüz,
Birdən birə çəp gəlmişdi sözümüz?
Sən dedin, dinlədim, gözlədim görək,
Mən boyu bəstəyəm, sən enli kürək.

Toqqaşa bilmədi, çənli gözümüz,
Dərdli baxışımız, qəmli üzümüz,
Gözlər yol çəkirdi, durub ikimiz,
Deyə bilmədik ki, nədi cözümmüz?

Gör neçə vaxt idi, biz görüşmədik,
Nələr çəkmişiksə, heç bölüşmədik.

İndi rast gəlmişik, sözlər çəp gəlib,
Nələrə əl atdıq, çözə bilmədik.

Söhbət elədikcə söz-sözə gəldik,
Uzandı yolumuz, səmti dəyişdik,
Dərdləri unudub göz-gözə gəldik,
Həll etmək istədik, edə bilmədik.

Bir vaxt elə, sənlə bir də görüşək,
Doğru yalan söhbətləşək, dəyişək.
Bəlkə anlaşarıq yenidən sənlə,
Barışa bilməsən, dalaşma mənlə.

## SƏN MƏNİM ŞEİRİMSƏN

Sən mənim şeirinsən,
Misralarda nələr var?
Dərdim başımdan aşar,
Məlhəmini kim arar?

Yaralar qan verəndə,
Rastıma sən gəlmədin.
Bu bədən can verəndə,
Səni tapa bilmədim...

Artıq illər ötübdür,
Köz bağlayıb yaralar.
Ağın rəngi solubdur,
Bu qəlbim də qan ağlar.

***2021 Bakı***

## SEVGİ GÜÇLÜ MƏVHUMDUR

Sevgi güclü bir məvhumdur,
Hər kəs onu bilə bilməz.
İnsan sevginin quludur,
Arxasında dura bilməz.

Sevgi gözümün nurudur,
Axar sel kimi, dayanmaz.
Sevgi qəlbin aynasıdır,
Aynasına baxa bilməz.

Sevgi ağrılı-açılı,
Sevgi dərdlər yuvasıdır.
Qoparsan onun yarasın,
Bu ağrıya dözə bilməz.

## KİMLƏ DƏRDİN BÖLƏSƏN?

Dərdi-sərdən bezəndə,
Ruhun  da səndən bezir.
Gördüyün hadisələr,
Göz önündə rəqs edir.

Nə duyğular yaşamır,
İnsan bu gün həyatda?
İstəyirsən qaçasan,
Olmur, qaçır həyat da.

Könül xoş olsun deyə,
Vurnuxursan həyətdə.

Sən onlardan qaçanda,
Qaçır səndən həyat da.

Dərdi-sər səndən uzaq,
Kimə gedib deyəsən?
Hərə bir həyat sürür,
Kimlə dərdin böləsən?

## SEVƏNLƏRƏ

Məhv eləmə həyatını, həyatlar toxunulmaz,
Elə incə nəxş edilib, heç bir vəclə oxunmaz.
Hər görənə aşiq olsan, hər gülü də qoxlasan,
Qoxu gedib gül solacaq, eşq qəlbində oyanmaz.

Aşıla qəlbdə sevgini, sevgi gözəl deyil ki?
Sən qəlbini gözəlləşdir, yoxsa qəlbin qızınmaz.
Alışsa da, yansa da, alovu ərşə qalxsa da,
Yandıra bilməsən qəlbi, istəməsə alışmaz.

***2022***

## MƏNİ EŞQƏ ÖYRƏDƏNİM

Bax bu əlim, bu ayağım,
Səndən başqa yox dayağım,
Təbiətə var marağım.
Ürəyi dağa dönəmin,
Məni eşqə öyrədənim.

Dərdini demə heç kimə,
Nə desələr, de tək mənə,
Nolar yaz sən namə mənə.
Ürəyi dağa dönənim,
Məni eşqə öyrədənim.

Hər vaxt sənin, mən qulunam,
Mən eşqinin yorğunuyam,
Ala gözün vurğunuyam.
Ürəyi dağa dönənim,
Məni eşqə öyrədənim.

Sevmişəm səni əzəldən,
Hərdən deyirəm qəzəldən,
Nə yazsam da,mən özəldən.
Ürəyi dağa dönəmin,
Məni eşqə öyrədənim.

Güvənmə sən bir kimsəyə,
Gəlmisən ərə-ərsəyə,
Verməәrəm səni özgəyə.
Ürəyi dağa dönəmin,
Məni eşqə öyrədənim.

***2023***

## SEVGİ NƏDİR BİLİRSƏNMİ..?

***(Reallıq)***

Hər oyananda yuxudan,
Gününə gözəllik qatsın.
Səhər yeməyindən sonra,
Sözün bal-şəkərlə ovsun.

Köhnə fikirləri silsin,
Sevsin, sevilsin, sevdirsin.
Qaş-gözünü oynadaraq,
Sənin üzünü güldürsün.

Qoy axmasın gözün yaşı..
Töksün ətəyindən daşı.
Fikirlərin çaxmaq kimi,
Qorusun ki, qoy çaxmasın.

Vətəninə dayaq olsun,
Torpağın hər an qorusun.
Quru çörək yedirsə də,
Təki canımız sağ olsun.

Şirin-şirin desin-gülsün,
Söyləsin, yola verməsin.
Halal olan ömrümüzü,
Halallıqla yola versin.

## ÜZÜMƏ BAX ...

Heyran-heyran baxıram o üzünə,
Necə də gözəlsən, bərabərin yox!
Utancaqlıq tökülür üz-gözündən,
Məlul-məlul, ürkək baxışlarIa sən,
Nədəndi bilmirəm, çıxıb getmirsən?

Bu qədər şirinlik olar vücudda?
Baxdıqca doymuram, baxışlarından.
Vallah səni narahat, etməzdim mən,
Məhəbbət süzülür, o gözlərindən,
Başını əyirsən, sən istəmədən.

Endirib nazınla utancaqlıqla...
Baxırsan üzümə, oğrun-oğrun sən.
Gözlərindən yaş süzülür, gözümü,
Bir maralsan, çəkə bilmirəm səndən,
Tökülür üzünə, yoxdur bir silən..?

Bu qədər dərdlisən, bunu bilən yox..?
Dərdini sinəndən, bir silən də  yox...?
Ürkək bir ceyran tək, qaçmırsan məndən,
Qayğısız kimsəyə, bənzəyirsən sən,
Üzümə bax, gözüm ayrılmır səndən!

***2021***

## SEVƏRƏKDƏN DÜZƏK BİZ...

***(G**ənclər gününə həsr edirəm)*

Ver ovcuma əllərini, qəmini dağıdım mən,
Gəl sənə mən sevgi verim, ürəyimi dinlə sən.
Aç ürəyin qapısını, icazə ver keçim mən,
Ürəyim çox yaralıdır, qoy dincəlim orda mən.

Rahat olsana əzizim, göynəməsin ürəyin,
Görüşəcək baxışlarım, əsdirməsin tellərin.
Sözün düzün söyləyirəm, ürəyim narahatdır,
Danlama gəl öz-özünü, sevgim sənin əsirin.

Sıxma sən incə qəlbini, de, dinləyim səbrimlə,
Rahat olsan sən təmkinli, dinər qəlbim səninlə.
Hiss edirsənmi mən sənlə, necə həyəcanlıyam,
Əllərim  də tir-tir əsir, sevgidə ünvanlıyam..

Ürəyim də dolub daşır, deməyə risk etmirəm,
Fikrini söylə sən mənə, bax səni dinləyirəm.
Yollar uzun, yollar qısa, fikirlər də dağınıq,
Mənimlə razılaşsan əgər, yollar qət etməliyəm.

Fikirləşmə heç bir zaman, sənə xain çıxaram,
Mən ən yaxşı hisslərimi, kiminləsə bölərəm.
Ürəyini buz kimi tut, sevilək biz, sevək biz,
Cocuqları yanı-yana, sevərəkdən düzək biz.

***2021***

## YEKSƏN GÜLÜM

Gözəllikdə  yeganə,
Toxunanda batırsan.
İkicə gün keçməmiş,
Büzüşürsən, solursan.

Zamanın gözləməkdən,
Göz köküm də saralır.
Tikan batdığı yerdən,
O andaca qan çıxır.

Necə toxunum sənə,
Necə qəlbini alım?
Axı səni sevirəm,
Tikanın canlar alır?

***2023***

## DONUBDUR

Tut əlimdən oyat məni yuxudan,
Kaş vaxtında ayılaydıq röyadan.
Görəydik ki, hər şey tutub yerini,
Düşünmürük keçmişləri, gerini.

Dərd əlindən böyüməyir bir ot da,
Çatışmayır orqanizmdəki yod da.
Baş pozulub, heç nə qalmayıb yadda,
Bir düşünmür insanlar bu həyatda.

Görən gözlər nurundan da qalıbdır,
Daha eşitmir, qulaq da tutulubdur.
Vücudları sümüyəcən donubdur,
Baş tərpənmir, düşüncələri qəlbdə.

Qəlb soyuyub, tək zilləyib gözünü,
Donub dili, deyə bilmir sözünü.
Qəlb xəzinəsi tükənib, fikrini
Deyə bilmir, qorxu tutub gözünü.

Məhəbbəti sönüb, gözdə qalıbdır,
Aşiqlərin sözü içdə qalıbdır.
Yazıları ağ vərəqdə yazılıb,
Buz tutub misra da, beytdə qalıbdır.

***2023***

## ÖZÜNÜ SEVMƏYƏN SEVMƏZ FƏRDİ DƏ

Bu nədi, məhəbbət qalmayıb yerdə,
Uçub səmalara, baş vurub, gedib.
Sevgi bambaşqadı, dadı bilinməz,
Məhəbbət-qəlblərdə tamı da gedib.

Ürək asta-asta vurur sinədə,
Qəlb də asta-asta qalxır, həm enir.
Damarlar gərəlir, qan coşur birdən,
Qaldırır ruhunu, olduğu yerdən.

Sağalmaz yaradır, eşq və məhəbbət,
Sevgi dodaqlarda gəzir, dolaşır.

Dadını, tamını bilməyən kəs də,
Özünü sevmirsə, sevməz fərdi də.

***2023***

## TALEYİM

Sevgiylə dolu qəlbimi,
Ailəmə bağlamışam.
Bir gün belə ürəyimdən,
Mən kənarə atmamışam.

Bir qızım var, anam da yox,
Sidq ürəklə bağlanmışam.
İki igid yetişdirib,
Vətən borcumu vermişəm.

Yeddi nəvə böyüyürlər,
Hərənin öz yeri vardır.
Altı oğul, biri pəri,
Şirinliyi daha çoxdur.

## GƏL SÖHBƏT EYLƏYƏK..

Gəl söhbət eyləyək sənlə sevgidən,
Ataq dərdi, qəmi, elə bu gündən…
Hə..nədən başlayaq? Söylə də, nədən...?
Qəlbimi dağlayan, o gözlərindən...!?

İndi söylə görüm, bu nə bəladı?
Yandırır, həm yaxır, halım fənadı.
Nə yuxu gedir gözümə, dincəlir,
Vücudum günə-gün, yaman incəlir..?

Nə həkim istəyir, nə də ki, dəva,
Bircə sevgilimdi qəlbimdə yara.
--Söyləyin ay təbib, yoxmudur şəfa.!?
--Dərdinə dərmandı, eşqi-məhəbbət,
Nəfəsin daralır..? Məlhəmdi əlbət.

--Sən səhər oyanıb dua eyləsən,
Hər gün düşünərək idman eyləsən,
Azalar xiffətin, dərdin o zaman,
Əlbəttə zamanla sən düzələrsən.

--Zəng eylə halını soruş, bir dinlə,
Azalsın əzabın, dərdini günlə.
Çıx bir az eyvana, park, biyabana,
Gəz sən gülşənləri, ziyarət eylə.

Eyləmə zülümü, sən bu yaşında,
Ağarıb tellərim, qaşım, başım da.

Sənin nə yaşın var, fikir çəkəsən,
Bəlkə qəm ağacın dibdən üzəsən.?!

Al sazı sinənə, bir dastan söylə,
Dərdinə əlac et, çalaraq böylə.
Onda unudarsan qəmi, kədəri,
Atarsan sinəndən ağır yükləri.

Sevgilin dərdinə hali də olar,
Yaranı sarıyar, məlhəm də qoyar.

***2020***

## MƏCNUNAM..(DƏLİİ)

Gözəlliyin qamaşdırır  gözlərimi, dəliyəm...!
Ürəyimlə bacarmıram, savaşdırır, ölüyəm...!

Allah elə yaradıb ki, sənin  incəliyini,
Alıb mənim dincliyimi, məlhəmim yox, dəliyəm...!

Kimə fikrimi söyləsəm, deyəcəklər dahisən...!
Qeysəm, Leyla tək sevgilim, söylədilər valisən...!

Çöl biyabanı dolaşdım, mənə Məcnun dedilər,
Adıma dastan qoşdular, indi mən də dəliyəm..

Varlığına aşiq oldum, sınağından çıxardı.
Məcnuntək görmək istədim, Leylanı məhv elədim.

## BİXƏBƏR

“Mən səni, sən də məni, sevməyə cəhd eləmişik,”
Biz «Boşuna getməyib cəhdi də boş etməmişik.”

Bu dünya, qoruyub bizləri də ey növü cavan,
Şükr edək bu günlərə biz peşiman olmamışıq.

Baxıram “indiki gənclərə mən də, dərk eləmir,”
“Nə etsin ki, buna bədəndə baş da imkan vermir.”

Nə deyilən sözlərə bir münasibət  bildirmir,
Nə də ki, düşüncə yox, bir dənə də qərar vermir.

Xəbərin yox xəbərdən, qonşu düşübdü çəpərdən,
Yıxılıb bel qırılıb, ayaq sınıbdır dibindən.

Çağırıb ambulansı yerləşdiriblər maşına,
Təzədən qəza-qədər gəlibdi bunun başına.

Yığılıb öz ətrafı ki, kömək etsinlər buna,
Harasından tutublar qırılıb qalıb sonunda.

Dərdinə əlac üçün cəhd eləsinlər həkimlər.
Nə qədər çalışdılar, olmadı ondan bir xəbər.

Dəyişib dünyasını tərk eyləyib bundan betər,
Qəbrinə sallayanda qırıldı ip, olsun xəbər.

## QADIN SEVDİSİ..

Mən səni ömrümə elə yazdım ki,
Bir ömür bu sevgi bitən deyildir.
Zamanla yazılan söz dəyərləri,
Həyatın gərdişi silən deyildir.

Elə həkk oldun ki, qəlbimə mənim,
Baxışın sinəmə xoş yara vurdu.
Titrəyən tellərim, əsdi yarpaqtək,
Axtara-axtara bir yuva qurdu.

Qadın böyük qüvvə, dəyər sahibi,
Əlləri, gözləri həssas çəkibdi.
Çəkəcək yüklərin say, hesabı yox,
Bilinməz dəyərdir heyif bilən yox.

Sevmişəm səndəki o dəyanəti,
Siman gülümsərdi, sevdim mən səni.
Qoy desin görənlər hər an, həmişə,
Necə bəxtəvərdi heç yoxdur qəmi.

***08 mart 2023***

## MÖHTACAM

Sevincimi sevincinə qatardım,
Dərdlərimi sıxışdırıb atardım,
Kini-küdurəti mən unudardım.
Əgər damarımda axan qan olsan,
Həmən qana inanırsan..?
**Möhtacam..!**

Azalsın dərdlərim ölməsin qəlbim,
Hər nə varsa, unudulsun kədərin,
Mənə qanad verən xatirələrin.
Həyatında bircə-bircə çin olsun .!
Çin olan arzuya, inan..
**Möhtacam..!**

Sevgi bir möcüzə, pərvazlananda,
Quşun lələkləri qanad çalanda,
İsti qanım damarımda axanda,?
Qan çəkənim, kaş yanımda olaydın,
Bilirsənmi, ona necə..?
**Möhtacam.!**

## KÖZÜ QALIB

Mən səni görəndə gənc bir qız idin,
İndi dəyişmisən, şişman olmusan.
Ay kimi parlardın, işıq saçardın,
Çölü-biyabanı işıqladardın.

Sən onda içməli bir qaşıq suydun,
Ürəyim alışıb yanardı sənsiz.

Qəlbim də alışıb odsuz-alovsuz,
Yanardı, təsəlli tapmazdım sənsiz.

Dərdimin üstünə dərd gətirmisən,
Səni qara torpaq qucubdur mənsiz.
Qəlbimi özünlə alıb apardın,
Közü qalıb burda, alışır sənsiz.

***2023***

## ƏRİTDİN GETDİN..

Mən sənə inamla ip ucu verdim,
Sənsə ip ucunu dartdın, uzatdın.
Mən səndə inamı imanın bildim,
Sənsə o inamı saldın, itirdin.

Dağltdın qəlbimin təməl daşını,
Dağıtdın dünyamın əməl başını,
Sökdün gözlərimdə, sən göz yaşını,
Təməli qurmadan dağıtdın, getdin.

Uzatdın əlini, əlimi verdim,
Mənə ürək verdin, saf sevgi verdin.
Qəlbini gizlicə etibar etdin,
Mən etibar, inam, iman, itirdim.

İndi nə təməl var, nə eşq, məhəbbət,
Nə ürəkdə olan  sevgi, sədaqət.
Nə əlin istisi, nə göz yaşları,
Qəlbimin yağını əritdin, getdin.

## SƏHVLƏRİ DÜZƏLDƏK...

Torpağın dərdini çəkə bilmirəm,
Yadlar ayaqlayır, dözə bilmirəm.
Belədən beləyə keçir yağılar,
Dərdim içim yeyir, deyə bilmirəm.

Vicdan əzabını veribdi bizə,
Allahdan bir bəla gələydi sizə.
Silinəydi yer üzündən iziniz,
Heç bir vəclə yada düşməyəydiniz.

Artıq qan ağlayır, qan damır gözdən,
Qəlbimiz sızlayır bir quru sözdən,
Hiss olunur, artıq düşürük gözdən.
Səhvləri düzəldək, artıq məqamdır,
O qara ləkəni silək, amandır..!!!

***09-03-2018***

## SORMA, GÖZƏL...

Sorma, gözəl, haralısan?
Ürəyindən yaralısan?
Qəlbimdə yuva salmısan,
Səni unuda bilmərəm...!

Ürəyimə toxunmusan,
Damarımda qan olmusan,
Qəlbimi viran qoymusan,
Səni unuda bilmərəm...!

Danma ki, sən də donmusan,
Sevgimizdən yorulmusan...?
Dünyamdan da yox olmusan,
Səni unuda bilmərəm...!

Mən bir odun, sən ocaqsan,
Çaxmaqsız da, yanacaqsan,
Kül olub sovrulacaqsan,
Səni unuda bilmərəm...!

***2020***

## HƏMRƏY..

Mən sənə nə dedim  xətrinə dəydi?
O siman gözümdən silinməyir heç.
Üzündən süzülən yaş damcıları,
İncik olduğundan xəbər vermir heç.

Həmrəylik günümüz astanadadı,
Sıxma ürəyini, sıxma qəlbini.
De, gül, şənlən səndə hamıyla birgə,
Sevgiylə nəşələn, göstər dəmini.

Hamı sevinəcək, şənlənəcəkdir,
Qəmli olduğunu sezməsin heç kəs.
Düşmən partlayacaq, dost sevinəcək,
Üzündə təbəssüm görəndə hər kəs.

***2019***

## SEVGİ DEYİL..BƏS NƏDİR?

Sevgi-qaloş deyil geyib gəzəsən,
onun parlaq üzü səni qorusun.
Sevgi-dəryalarda damcı biləsən,
həmən o sevgini tapa biləsən.

Sevgi-geyim deyil, qürrələnəsən,
mən aldım, sən qaldın, deyib gəzəsən.
Sevgi anlayışın olmasa əgər,
onun arzusuyla yana bilərsən.

Sevgi gələn zaman xəbər tutmazsan,
o özü qapından içəri girər.
Sənin ürəyində yuvasın qurub,
sevər, sevgisini etiraf edər.

Sevgi hər insanı dəyişə bilər,
Inan, o bəlaya düçar da olar.
O elə bimərəz, elə möcüzə,
pəncərə açıqsa oradan girər.

Tutub qulağından ata bilməzsən,
o mərəz səni də mübtəla edər..
Elə saf qəlbinə girib fırladar,
başın da hərlənər hərəkətindən.

O durduğun yerdə ruzu gətirər,
xəbərin də olmaz bərəkətindən.
Səni kasıb edər, varlı da edər,
aliqarx olarsan doxsan yaşında.

Varı-dövlətini elə artırar,
nə qədər yığsan da, itər başın da.
Sevgi vara-bara uyan deyildir,
səni sövq eyləyər, uya bilərsən.

Yığdığın varını bircə gecədə,
uduzub, qumara qoya bilərsən.
Bax belə sevgi var bunca həyatda,
ona tutularsan, ölə bilərsən.

Dərdini bir kimsə bilə  də bilməz,
o gecə yuxuya  gedə bilərsən.
Bir anda tutduğun varı-dövləti,
birmərrə əlindən üzə bilərsən.
Qohumu-qonşunu yaddan çıxarıb,
özünü  unudub, dərdə düşərsən…!

***2019***

## UNUTMARAM,  UNUTSAN DA..

Gözlərinə dönüm sənin,
gəl üzmə qəlbimi mənim.
Unut desən ay gedənim,
Unutmaram, unutsan da.

Ürəyimin başı qandı,
yarın, yarım ilə təndi.
Göz yaşım vallah dən-dəndi,
Unutmaram, unutsan da.

Getmə, getsən, gedəmmərəm,
ürəyimə su səpərəm.
Sənlə qol-boyun gəzərəm,
Unutmaram, unutsan da.

Dərdimə, dərd də gətirdin,
qoxlanmaqçın, ətirləndin.
Nə biləydim sərsəmlədin,
unutmaram, unutsan da.

Sıxma qəlbin, mən sıxmaram,
sıxılsam da qəlb sıxmaram.
Desən uzaqlaş, sormaram,
unutmaram unutsan da.

***2020***

## APAR MƏNİ UZAQLARA

Apar məni uzaqlara,
nə göz görsün, nə də könül.
Ürəyimdə məhəbbətin,
nə odlanır, nə də sönür.

Gizli-gizli düşünürəm,
necə adlayım bunu mən?
Qüruruma sığışmayır,
baxıb mənə üzü dönür.

Sən sevənin sevmir səni,
haqsızlığın həddidi bu?

Axtardığın məhəbbətin,
nə artımı, sonudu bu?

Ayrılıqlar olmasaydı,
qəlbim yanıb alışardı,
İstədiyim zirvələri,
alçaq, hündür adlayardım.

"Zalım zaman" tarixlərdə,
bir zalım tək qaldı adın.
Ürəklərə yol tapmadı,
sevincimi də qopardı.

O bir düşmən, amansızdı,
ayaqlar alta atıldı.
Qəlbində sevgi olsaydı,
zalımlığı unudardı.

***2017***

## TEZ GƏL..

Mən səni dünyamla bərabər tutdum,
bütün arzuları uddum, unutdum.
Nəhayət taleylə barışaraq mən,
ölümü, həyatla bərabər tutdum.

Mən sənin üzünə həsrət də qalıb,
yemədim, içmədim, aclıq da çəkdim.
Bu xəstə canımla vurnuxa, dözüb,
hər zaman mən sənə dayaq da durdum.

Sındırma qəlbimi, qöz sulanmasın,
bu tənha könlümün mehmanı ol sən.
İnsan etibarsız, dünya fanidir,
naəlac qəlbimə, bir məlhəm ol sən.

***2020***

## SEVƏNLƏRƏ UĞURLAR

Sevgi dolu bir ürəyə,
toxunma sən, zədələmə.
Bacardıqca hər bir anın,
məqamını  al qələmə.
Gör nə qədər sevənin var,
körpə bir quşcuğaz kimi.
Açıb ağzın dayanıblar,
yem ilə yemlənən kimi.
Sevgi dilə gəlməsə də,
gözlərdə alışlb, yanır.
Onun  da bir özəlliyi,
ağız dadını qaçırmır.
Onun bir toxtaqlığı var,
doyduracaq aclığını.
Sanma səni sevən yoxdu,
sən ki, sevirsən hamını.
Sevgi gözdə işıq saçır,
dənizdə mayaklar kimi.
Bütün qəmini dağıdır,
qasırğa, tufanlar kimi.

***2022***



# FİKİR XƏRİTƏSİ

## SIĞINMA NADANA

Sığınma nadana, bir gün yıxacaq,
Hər çətin məqamda səni vuracaq.
Ayrılmaz dostunu, saxta dostundan,
Ayıra bilməsən, o, ayıracaq.

Heç zaman saqqalı vermə ələ sən,
Səni vurmaq üçün, hər an tələsən.
Sirrini-sözünü elə ki, bildi,
Dostu vurmaq üçün, vasitəçisən.

Zalım bir zamanda yaşayırıq biz,
Bəlkə də dərindən heç düşünmədiz.
Mal-mülkə hərislər, vara şübhəsiz,
Tələni quranı  fikirləşmədiz.

***2021 Xaçmaz***

## QARANQUŞLAR

Top-tüfəng əlindən, bomba səsindən,
Yoxa çıxdı qaranquşlar ölkədən.
Səmalar boş qaldı, bitdi sözümüz,
Gözləməkdən saraldı cüt gözümüz.

Qayıdın quşlarım, səmamız boşdur,
Həmişə sizinlə, könlümüz xoşdur.
Yuvanız boş qalıb, gözləyir sizi,
Nigaran qoymayın quşlarım, bizi.

Sizsiz səmaların yoxdur bəzəyi,
Çox sevirdik sizi, biz izləməyi.
Qayıdın quşlarım, sevinək yenə,
Artırın nəsili, artırın yenə.

## NƏ BİLİR EEE

O sənə bir ümüd versin,
Sən də ona, hər şeyini.
İşlətsən  sən bir balaca,
Çiynində baş- beyinini.

Sən müqavva, o da tülkü,
Ayılmasan, qalar kürkün.
Onun vardır, böyük mülkü,
Sən kasıbın bir daxması.

Həyət deyil, bağırasan,
Bu həyatdı, sən biləsən.!
Qapıdan yox, pəncərədən,
Məcbur deyil sən girəsən.?!

Dinc olmasan, sən bir  xəta,
Çıxaran böyük bəlasan.!
Gözəllər yox hasarları,
Bir-bir söküb, dağıdasan.!

Sevgi baxmır, gözəllərə,
Seçdin, gərək evlənəsən.!
Şeir deyib yaz dəftərə,
Sonra da, onu siləsən!

Nə gəldi beyninə demə,
Cəmiyyətdə görünməkçün.
Hörmətin, izzətin olsun,
Hər cəhətdən seçilməkçün.

Həyat acı, bibər kimi,
Hər an səni yandıracaq.
Nəyin var ver sən yetimə,
Masajlayıb, ovduracaq.

Düşdüyün  mühüt də bomba,
Geyindiyin xarici mal.
Söyüş söymə, düzünə  qal.
Görməməkçün belə bir hal.

***Bakı***

## QOCALIQ

Sevincim aşıb daşardı,
Səni sevinən görəndə.
Fərəhim coşub daşardı,
Səni şad-xürrəm görəndə.

Elə sevinərdi qəlbim,
Saçıma sığal çəkəndə.
Qəlbim sevinclə dolardı,
Kürəyimə əl qoyanda.

Cavanlıqda uzun saçlar,
Bəzəyərdi kürəyimi.

İndi qocalıq tutubdu,
Kürəyimdə öz yerini.

***26-10-2017***

## GÖZÜM VAR

***(Bayatılar)***

Dağlarında gözüm var,
Ürəyimdə sözüm var.
Baxma mənə qıyğacı,
Gözləlində gözüm var.

Yamacında çiçəklər,
Halay vurur böçəklər,
Nə edirsiz göyçəklər,
Mənim sizə sözüm var.

Yanır qəlbim dərdindən,
Sıxılıram qəmindən.,
Od tuturam dəmindən,.
Daşlarında gözüm var.

Qocalar dəstə-dəstə,
Gəzirlər xəstə-xəstə.
Söhbətləşib ahəstə,
Deyərlər gözüm üstə.

***Bakı***

## AY GÖZƏL...

Bu gözəl vücudu, gözəl ruhunu,
Necə gizlədirsən, orda ay gözəl?
Sinən bir qalxandır, dilin də qılınc,
Necə qoruyursan, özün ay gözəl?

Günəş bərq vuranda siman parlayır,
Bütün qaranlıqlar, nura boyanır.
Əsəndə sərt külək, qopanda tufan,
Buludlar toqquşur, səs də qoparır.

Unutdururmu sənə, eşq-məhəbbəti,
Yadına salırmı, hicran, həsrəti?
Solurmu yarpağı, ağaclarının,
Qopara bilirmi budaqlarını?

Çox gözəl yaraşır ruh bədəninə,
Getmə uzaqlara, gəl sevgilinə.
Nuhun gəmisi tək "gəmin" batacaq,
Səni də qərq edib, dərya udacaq.

Gəl sən yanımda dur, məndən ayrılma,
Batan arzulara can verək, durma.
Sənin arzuların, istəklərinlə,
Qol-qanad çırparaq, biz pərvazlanaq.

***2022***

# FİKİR XƏRİTƏSİ

Var-dövləti yaxın qoyma özünə,
Uzaqda dur, qiyməti ver sözünə,
Qurban olum, səndəki cüt gözünə.
Bala-bala qazan gətir, razıyam,
Mən səninəm, bir kasıb balasıyam.

Arxasız insana, köpək də hürməz,
Kimsə ətrafında gəzməz- döyünməz,
Varlının dərdləri gözə görünməz.
Gücsüz canım sənə qurban "varlıyam",
Mən səninəm, bir  kasıb balasıyam.

Etibarsız bir həyat yaşayıram,
İstəyim bol, xəyalların quluyam,
Ürəyimdə min bir dərd daşıyıram.
Qürurluyam, ailəmə bağlıyam,
Mən səninəm, bir kasıb balasıyam.

Varlı-kasıb bir süfrədə oturmaz,
Qürurundan yeməyə əl uzatmaz.
Kasıb arzusunu varlı doğrultmaz,
Varlının malını kasıb dağıtmaz.
Hər arzuna, istəyinə hallıyam,
Mən səninəm, bir kasıb balasıyam.

***2022***

# ALLAHIM

Mən kiməm ki, bu gün göstəriş verəm...?
Tanrım, yol göstərəm, qərarlar verəm...?
Sənsən kainatı idarə edən,
Bizi həm ağladan, həm də güldürən.

Xoşbəxtlik hormonu sənin əlində,
Gözəllik çiçəkdə, həm qələmində.
Özünsən eşidən, bilən və görən.
Hər kəsin taleyin, alnına düzən.

Millət əzab çəkir, canları yanır...
Yaş ağac qurunun, oduna yanır...
Yalançı həyatda, sözünü danır...
Oğurluq qanında, haram qazanır.

Bizlərin borcudur səcdə eləyək,
Dualar söyləyək, diləklər deyək.
Küsmüsən ey Tanrım yolun azandan...?
Üzünü döndərdin quyu qazandan...?

İmamı gözləyir dərdin söyləsin,
Yığıb dərdlərini sənə gətirsin.
Ağlaya, əlləri göyləri süzən,
Səndən ümüd ilə, imdad gözləyən.

Balası acından qundaqda ölən,
Özünün gözündə işıq da sönən.
Ey zalım məmurlar, zallm zəmanə,
Bu cah-cəlalları neyləyəcəksiz...?

Beş metrlik kəfənə bürünərək siz,
Mal-dövlət qalacaq, siz gedəcəksiz.
Barı kömək edin kasıb-küsuba,
Az-az bəzək verin vücudunuza,

Çoxlu savablara sahib olun siz,
Baxaraq kənardan fərəhlənək biz.
Mən kiməm ki, bu gün göstəriş verəm...?
Sənə yol göstərəm, qərarlar verəm...?

Həyat keşmə-keşlər içrə qurulur,
Kasıblar "alçalır", məhkum olunur.
Məmurlar piylənir, günbəgün şişir,
Tərbiyə verdiyi övlad  qudurur.

***2022***

## UŞAQLIQ AİLƏM

Vəzifə sahibi olan adamın,
Qapısı, bacası, dolu olardı.
Nə rüşvət verərdi, nə də alardı,
Qəlbi xeyirxahlı, dayaq olardı.
Boş olmazdı süfrəsi heç bir zaman,
Tək qalacaq bu həyatda, tək yeyən.

Kasıba, hər kəsə, çox dayaq idi,
Xeyirxahlıq, mal-dövlətdi deyərdi,
Allah yetirəndən verək, söylərdi.

Süfrəsində, çox idi əlhəm deyən,
Tək qalacaq bu həyatda, tək yeyən.

İllər ötüşdükcə, hamı böyüdü,
Oxuyan oxudu, mövqeyli oldu.
Unuduldu o ev-eşik, bərəkət,
Nə qohum axtardı, nə də ki, millət.
Övladı olduğun, tam unutdular,
Sanki mən ölmüşəm, can qurtuldular.

Bircə zəng nədi ki, salmırlar yada,
Ötüşüb hər bir şey, qan da, qada da.
Elə bil həyatdan tək mənəm gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

"Nə uşaq olmuşuq, nə də görmüşük,"
"Nə də təbiəti biz seyr etmişik."
Burdan ora, düzülərdi süfrələr,
Oturardı süfrə yanı körpələr.

Nağıl oxuyar, lətifə deyərdim,
Mahnı oxuyardım, şeir söylərdim.
O vaxt buğlanaraq yeyib gedən sən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Nə axtarır, nə də ki, soruşurlar,
Nə qonaq gedir, nə də arayırlar,
Haram pullar yığaraq saxlayırlar.
Gözü dalda, baxa-baxa ay gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Molla Nəsrəddinin sözü olmasın,
Vəzifə, əbayə, hörmət olmasın,
Öküz öldü, ortaq da  ayrılmasın,
Sanki bir borc idi, aldı bayıldı.
Vəzifə axtarıb, mövqe diləyən,
Bir kimsəyə, bir loxma da verməyən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Nə hoqqan var, bu dünyada çıxar sən,
Yaxşı-pisi ayırmağı bacar sən,
Vallah axırı yox ,pis bitir bilsən.
Var-dövlət dünyada qalır, ay gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Varlanıbdı, pulun yoxdu, saymayır,
İldən aydan, heç yada da salmayır,
Qohum, qardaş, məclislərdə oynayır.
Sanki yoxsan, kasıbsan, sən ay gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

***2022***

## BİL, CƏHƏNNƏM YOLUDUR

***(Nəsihət)***

Sığmaz heç bir məkana,
        Hər kəsin, bir sevgisi...
Ən gözəli həyatdır,
        O da, Allah vergisi..!

Nəsib olmayan bir eşq?
Bir həyat əfsanəsi.
Sevib, sevilmək özü,
Bir gənclik nişanəsi.

Yaşamasan həyatın,
Sənə olan payını?
İtirərsən dövrünün,
Bütün haqqı-sayını!

Keçmə gözəl Allahdan,
Səni qoruyan odur..
Əgər naşükür olsan,
Cəhənnəm alovudur.

***02-12-2017***

## PAXILLIQ

Paxıllıq dünyanı alıb cənginə,
Namərdlik qayışın sarıb belinə,
Əclafa söykənib, aldanma yenə,
İnamın itirmə yar, baxa-baxa.

Xəbislik tökülür insan, üzündən,
Zəhrimar tökülür, acı dilindən,
Kimliyin bilinmir, görmürsənmi sən?
Qismətidir bəlli zor, baxa-baxa.

Suallar qəlbimi didir, dağıdır,
Cavab verə bilmir, dilim ağrıdır,

İki damla yaş da gözdən axıdır,
Yumub gözlərimi kor, baxa-baxa.

Əclaflıq, namərdlik yağır gözündən,
Suallar cavabsız qalır özündən,
Baxsa da mehriban gözləriylə, sən,
Aldanma sözünə xor, baxa-baxa.

Paxıllıq çənginə alıb dünyasın,
Qurudub boğazda sözün dəryasın.
Qiymətsiz eyləyib sözlərini sən,
Açma ürəyini sar, baxa,- baxa.

Axırda  deməyə sözü olmasa,
Dərdini deməyə gücü çatmasa.
Xışlama sevinci, çölə atma sən,
Yağmasın qəlbinə qar, baxa- baxa.

Bir tələ qurulsa, ona bu anda,
Öləcək sevinc də, öləcək anda.
Dinləyib dərdini, ürəyinlə sən,
Sancmasın qəlbini mar, baxa- baxa.

Demişdim qanından uzaq durma  sən,
Anadan-atadan, düşmən tutma  sən,
Dosta güvənərək, doğma atma sən,
Car çəkmə dünyaya xor, baxa-baxa.

***2022***

## SUSARDIM, DİLLƏNMƏZDİM

Nədən yazılar yazır, şəkillər çəkməyirdin...?
Ürəyindən süzülən, sözləri deməyirdin...?
Sənmi inamı qırdın, etibarsız çıxdımmı...?
Yoxsa mühüt dağınıq, ürəyini  sıxdımmı...?
Sözün varsa söylə sən, gözümün önündəsən...
Susuram, dinlənmirəm, ay zalımın balası...
Dayanıbdır önündə, cüssəli qız atası...

Üzünü görməsəm də, siman canlanır öndə,
Vaxt vardı yaşayardın, köksümdə,ürəyimdə,
Dərd çəkməkdən qorxmurdum,
gözlərin göz önümdə.
Getmə deyərdim sənə, getmə gözünə dönüm,
Gedəcəksənsə əgər, ölərəm göz önündə.
Sözün varsa söylə sən, gözümün önündəsən...
Susuram, dillənmirəm, ay zalımın balası...
Dayanmışdır önündə, cüssəli qız atası...

Uzadanda əlimi, toxuna da bilmirdin,
Çünki bir xəyal idin, görünə də bilmirdin,
Söz demək istəyəndə, özünü itirirdin.
Deyirdim dayanmışam, mən gözünün  önündə....
Sözün varsa söylə sən, gözümün önündəsən...
Susuram, dillənmirəm, ay zalımın balası...
Dayanmışdır önündə, cüssəli qız atası...

İndi yoxsan həyatda, xəyallar məni sıxır,
Həyat möhkəm əllərdə, amma fəsadı çıxır,
Sevinc yoxa çıxıbdır, dərdlər yerini tutur.

Sevincdən kül tozanaq, bir də yalnızlıq qalır,
Ürək param-parçadır, yerində bir  iz qalır.
Sözün varsa söylə sən, gözümün önündəsən...
Susuram,  dillənmirəm, ay zalımın balası...
Dayanmışdır  önündə, cüssəli qız atası...

***2022***

## ALIŞDIQ

***(Xruşşovun dövründə)***

Bu dünyanın hər işinə alışdıq,
Toylarına, həm yasına qarışdıq.
Bir qarın çörəyə olsaq da möhtac,
Aclığına, susuzluğa barışdıq.

Vaxt vardı çörəyə, pəpə deyərdik,
Nə tapırdıq, elə onu yeyərdik,
Hər gün gedib, növbələri düzərdik,
Ayaq üstə yux(u)lamağa alışdıq.

Daş qoyurduq, ad yazırdıq, yatıqdıq,
O vaxt çörəyi də qram-qram  alırdıq,
Soyuq kəsə, yavaş-yavaş donurduq,
İsti bədən, şaxtasına alışdıq.

“Şükür” olsun bu günlərin halına,
Kimsə  “dəymir” bir kimsənin malına,
Söz soruşmur, təpik vurur dalına,
Dava, qırğın eyləyənə alışdıq.

Elə oldu üzləşdilər insanlar,
Toplaşdılar həm küçələr, dalanlar,
Qoca, cavan daldalandı qalanlar,
Təhqirlərə məruz qaldıq, alışdıq.

Gün gələcək, açılacaq yalanlar,
Var-dövlətdə itib-batıb qalanlar,
Səriləcək yol üstünə palanlar.
Düzüləcək palan üstə qarışıq,
Dözə-dözə deyəcəyik alışdıq.!!!!

***2022***

## GÖRƏN DEYƏR GƏRƏYİMSƏN

Mənim sənlə nə işim var.??
Sən tayımsan, rəfiqəmsən.??
Şərini məndən uzaq et,
Sevgilimsən, əzizimsən..??

Gözlərini geniş aç sən,
Ətrafına bir nəzər sal.
Şirin-şirin var-gəl etsən,
Görən deyər ki, mənimsən.!

Yaxın durma, aralı gəz,
Əməlini atıb-tut sən.
Yaxın durub, yaxın gəzsən,
Görən deyər ürəyimsən.!

Get xoşbəxt ol, azma yolun,
Gözəllərdi sağım -solum.

Mənim zövgüm sən deyilsən,
Görən deyər gərəyimsən.

***2022***

***(1918-2022)***

***Vətənin müstəqilliyinin, torpaqlarının azad olunması yolunda xalqım 100 illərlə (əsr)çox əzab çəkib və bu günkü gündə də alınmayan ərazilərin tam azadlıq əldə etmək üçün savaşı davam etdirirlər...Eşq olsun igid əsgərlərimizə. Vətən oğullarımıza ki, yardım əlini həmişə uzadırlar. Həlak olan İgid şəhidlərimizədə Allahdan qəni-qəni rəhmət diləyir. Azərbaycanımın mərd insanları ("1918-2022")***

## KOMANDİR ATAM

***(1942-45)***

Ordudan qayıdıb gələn atamı,
Qəhrəman əsgərtək qarşıladılar.
Anam məhəbbətim, atam eşqimdi,
Öpüşüb, görüşüb, qucaqladılar.

Sinəsi medallı qəhrəman insan,
Düşmənlə dururdu, o səngərlərdə.
Unuda bilmirdi müharibəni,
İgidlik göstərən əsgərlərini.

Yataq xəstəsinə çevrildi bir gün,
Əməliyyat oldu, yatdı uzun il.
Əridi bədəni, günbəgün onun,
Avqustun doqquzu  tapşırdı canın.. **(1969).**

Bütün sevincimi aldı özüylə,
Yox oldu simamda, getdi sözüylə.
Unutdu "oğul"u, qucdu ölümün,
Köçdü bu dünyadan, sevincim mənim.

Qarabağ dərdi də, bizi öldürdü,
Həyat eşqimizi, hər an söndürdü.
Namus da, qeyrət də getmişdi əldən,
Yaşaya bilmirdik, dərdimiz vətən.

Birinci Qarabağ döyüşlərində**, (1992-94)**
Minlərlə insanlar tələf oldular.
Atıb el-obasın, doğma yurdların,
Qaçqın həyatına, məhkum oldular.

İkinci Qarabağ döyüşlərində,
Üç mindən çox şəhid qanından keçdi.
Ağır yaralılar, qospitallarda,
Dünyasın dəyişib, canından keçdi.

Qeyrətli oğullar səfərbərliyə,
Yazılıb, silaha sarıldı onlar.
Düşmənin əlində olan torpaqlar,
İgid oğullarla alındı onlar.

44 gün savaşda şəhid versək də,
Bütün topaqları qaytardı onlar.
Səkkizi noyabrda zəfər gününü,
Azadlıq deyərək, qeyd etdi onlar.

***2020***

## VALİDEYN MƏHƏBBƏTİ

Ana bir başqadı, onun istəyin,
Ananın qədrini biləndən soruş.
Gəzsən  hər bir yeri sən qarış-qarış,
Ana xiffətini çəkəndən soruş.

Ata-ailədə böyük rolu var.
Ailə başçısı, bərəkətlidi.
Ata-ailənin əminatçısı,
Daima həyatda hərəkətlidi.

Ata bel sütunu, ana dayaqdır,
Onlara kənardan baxmayın, oğul!
Atanı, ananı incitmək olmaz,
Onlara nəvaziş gərəkdir oğul!

Atanın, ananın məhəbbətini,
Kimsə verə bilməz, sədaqətini.
Etsə də övlada səxavətini,
Bu gəldi gedərdi, deməyin  oğul!

Onların nazını çəkin siz hər vaxt,
Kəm gözlə baxmayın məhəbbətinə.
Çalışın möhübün dözün siz hər vaxt,
Əlində imkanın olanda oğul!

***2022***

## YOXDUR

Mən getdim, dünyanın qaranlığına,
İşıqlı dünyada, baxanım yoxdur.
Sinəm dolub daşır, yüklənib, qalıb,
Götürüb sinəmdən, atanım yoxdur.

Həyat məngənətək, sıxır qəlbimi,
Qəlbimin dərdlərə, dözümü yoxdur.
Xəyallar fikrimi elə dağıdıb,
O fikri başımdan, atanım yoxdur.

Yoxdu ətrafımda məhəl qoyanım,
Bir yol  göstərənim, bəyanım yoxdur.
Bir ipdən asılı qalıb həyatım,
Yerə çırpılarsa, həyanım yoxdur.

Ağlama ey qəlbim, hər yer göz yaşı..
Söyləsəm də dərdə, məlhəmim yoxdur.
Hayqırır içimdə dərd qayğılarım,
Sakit qulaq verib, dinənim yoxdur.

Sinəm qalxıb enir, çarə tapmıram,
Bu elə bir dərddi, bilənim yoxdur.
Səhərəcən oyaq, yuxu yatmıram,
Dərdimə bir çarə edənim yoxdur.

Nə deyim Allahım, kasıbam  deməm,
Varlının bu haldan, xəbəri yoxdur.
Danışmıram, çünki qızıldı sözüm,
Kasıbın halına yananı yoxdur.

***2022***

## NÖVBƏYƏ GECİKMİŞƏM

Yaşadır Allah məni,
Canla-qan ona məxsus.
Qaldırıb ayaq üstə,
O da, Allaha məxsus.

İstəsə ölləm o gün,
Yaşada bilər məni.
İstəyəndə ağladar,
Ya da güldürər məni.

Bir bağçada əkilən,
Meyvə ağaclarıtək.
İstəsə dirildər o,
Ya da qurudar məni.

Əlim çənəmdə durub,
Xəyallara dalmışam.
Keçdi gənclik illərim,
Özüm çaş-baş qalmışam.

Yarışda üçüncü yer,
Atıcıtək tutmuşam.
Düşüncəmdə hər zaman,
Mən bir qalib olmuşam.

Sevgi məsələsində,
Mən geridə qalmışam.
Hamı növbə tutanda,
Növbədə axsamışam.

## TÖVSİYYƏ

***(Yaşı ötüb, hələ də insanları şit zarafatları ilə qəlbini qıran kişilərə)***

Yadlar səni anar, doğma aramaz,
"Badalaq" atmağın, sənə yaraşmaz,
Qəlbi təmiz olan, heç vaxt qocalmaz,
Sırtıqllq eyləmə, yerini bil sən.

Nə qədər desələr özünü düzəlt,
Kimsəyə sataşma, sözünü düzəlt.
Lağ etmə özündən kiçik birinə,
Söz atma ay insan, yoldan keçənə.

Kömək etmək üçün əlin uzat sən,
Xeyirxah əməllə, qoy tanınasan.
Yox əgər sən onu edə bilməsən,
Belə yavaş-yavaş, İtib gedərsən.

Cavan oğlanlar tək, qədəşlik edib,
Olan hörməti də, gəl sən itirmə.
Yolunu azana, sən yol göstərsən,
Bir işin düşəndə, hörmət görərsən.

Tövsiyyəm budur ki, düşün sən bir az,
Çək-çevir eyləmə, seçil sən bir az.
Qocaya, cavana, nümunə bir az
Ol, səni görəndə özün düzəltsin.

Sözündən, söhbətdən qoy bəhrələnsin,
Dinləyən, canına bir dua etsin.
Uşaqdan böyüyə, saymaz keçməsin,
Yanından keçəndə, qoy təzim etsin..

***2022***

## VƏSİM

Yadıma düşəndə döyünür qəlbim,
Sıxılır bu sinəm, oyanır dərdim.
Bir çıxış yolunu tapa bilmirəm,
Haradan başlayım, bitsin bilmirəm.

Pozulur əhvalım, başım fırlanır.
Qəlbimin istəyi, məni "aldadır".
Gözümü yumuram, göz önümdəsən,
Açdığım zamanda birdən itirsən.

Geriyə dönməyə nə hal, istəyim,
Nə cavanlıq qalıb, ömür sürməyim.
Can, canı qoruyur möhtac olmayım,
Ey Tanrım, görənim, bilənim mənim.

Özün yoluna qoy, istəyim mənim,
Dərdimə çarə et, dinlə dərdimi,
Mənə bir qüvvə ver, izlə əhdimi.
Əzrayıl qapımı döydüyü zaman,
Kiçicik əhv eylə, qoy versin aman.

Vəsimi eyləyim, vergimi verim,
Axrıncı arzumu əzizə deyim.
Demə ki, qorxuram, ölüm bir haqqdı,
Bir gün gəlmişiksə, demək ki, vaxtdı.

## RUH TƏZƏLƏNSİN

Dərdimə dərd vermə, özüm çəkirəm,
Allah dərd verməsin, sevinc əkirəm.

Cücərsin, çoxalsın qoy qat-qat artsın,
Qəlbimiz gülüşlə dolsun, boşalsın.

Övladlar anaya baxıb ucalsın,
Bu sağlam həyatda, sağlam qocalsın.

Yetişsin nəvələr, savadlı olsun,
Geriyə baxmadan başı ucalsın.

Oxusun bülbüllər, çiçəklər açsın,
Qoxuyaq ürəkdən, ruh təzələnsin.

## YAZIB O KİŞİ

Məcazi mənada dediyin sözün,
Gözümdən qaçmayır ay canım-gözüm.
Həyat çox qəlizdi, nə etsən özün,
Hər vaxt məzəmmətdə qalacam özüm.

Canını saf saxla, dilini də dinc,
Dərdi-dərd üstünə qalama ömrüm.
Sözünü elə de, cümlə elə qur,
Çalış sevincinlə ömrü başa vur.

Xəstə Qasım hər vaxt xəstə yatandı,
Batmalısa, “batağlıq”da batandı.

Yorğanı-döşəyi olmayan bir kəs,
Çöllərdə lövbərin salıb yatandı.

Fikrini cəm eylə, düşünmə pisi,
Gözəl bir planla, sən qur öz işini,
Dərdə-dərd söyləmə, Allahın işi,
Hər kəsə taleyin yazıb o kişi.

***2023***

## DÜNYADA

Nə qədər insan var, uşaq dünyada,
O qədər sevinc var, xoşbəxt dünyada.
Nə qədər kədər var, nə qədər qəm var,
O qədər əziyyət, əzab dünyada.

Ağlama can ana, can balam mənim,
Ağlama ay ata, can qardaş mənim.
Yoxdu bu dünyada sizlərdən başqa,
Dərdimi-sərimi daşıyan mənim.

Ümüd yaxşı şeydi, ümüdəm sizə,
Mənə kömək edin, arxayam sizə.
Arxa-dayağımsız, ümüdsüzlüyə,
Qoymayın qapılım, ruhum getməsin,
Ruhunuz dayaqdır, köməkdir bizə.

***2023***

# FİRONUN QUYUSU

Darıxma ey vətən, sıxılma insan,
Haqqı, ədaləti deyən tapılar.
Dünya etibarsız, qərarsız deyil,
Səbr eylə, deməyə zaman ayrılar.

Nə qədər satqınlar, yuxarı başda,
Alçaqlar, əclaflar bax ortalıqda,
Sayılıb, seçilən, sevilənlər də,
Düzlər, heç bir zaman yer tutmayacaq.

Nə qədər Firoun firounluğun,
Edib, eləsə də, çox çəkməyəcək.
Özgəyə qazdığı quyularına,
Çox çəkməz, vaxt gələr, özü düşəcək!

Məsləhət bilmirəm çox sevinəsiz,
Bir vaxt mən deyəni əsas biləsiz.
Belə davam etsə, qısa müddətdə,
Mütləqdi əvəzin bir gün görəsiz!

Nə qədər zalımlar at oynatsa da,
Nə qədər haqqsızlıq kürsü tutsa da,
Nə qədər dünyanı kədər bassa da,
Nifrətə ədalət qalib gələcək!
Hər bir kəs, hər zaman, varam deyəcək.

***2023***

## ŞİRİN-ŞİRİN YAT BALA

Səhərəcən yuxum yox,
Durub mən hərdəm-hərdəm.
Uşaqlar oyanmasın,
Pəncərədən baxıram.
Arxadan bir səs gəldi,
-Sənə nolub anacan?
Niyə yuxun yox sənin?
Dərdini bir söylə can..
Qulluğunda duraram,
Musiqi də qoşaram.
Heç şikayət etmərəm,
Axı mənim anamsan,
Ürəyimsən, canımsan!
Dərdini söylə mənə,
Axı niyə yatmırsan?
Gözünə yuxu getmir?
Bəlkə dərman atasan!
Yox ay bala, darıxma,
Qocalıq əlaməti.
Arada dərman atıb,
Atıram əsəbimi.
Sizi görüb yanımda,
Taparam təsəllimi.
Fikir etmə, ay bala,
Cavanlıq gedib daha.
Günümüz-rüzgarımız,
Belə keçir, ay bala!
Təsəlli tapmaq lazım,
Olar ki, quyu qazım.

Bütün dərdi-sərləri,
O quyuya basdırım.
Bəlkə onda vücudum,
Rahatlanar, yataram,
Kədərimi, qəmimi,
Birdəfəlik ataram.
Sən mənə fikir vermə,
Gözünü yum, yat bala.
Mən də indi gəlirəm,
Halım dəyişir, bala.
Narahatlıq keçirmə,
Bu gün gecikdik daha.
Dünənini unut sən,
Şirin-şirin yat bala.

## DƏRD-QƏM GÖRMƏSİN

Nə olar bir səhər qalxıb yuxudan,
Hər kəsə xoşbəxtlik yelləri əssin.
Elə o anda da, dərdi-bəlanın,
İti bıçaq ilə kökünü  kəssin.

İnsanlar dərindən bir nəfəs alsın,
Üzləri gülüşlə dolsun, bitməsin,
Bir daha dərd nədi, qəm-kədər nədi,
Ömrünə yazmasın, gözün silməsin.

Silsin sevinc yaşın, xoşbəxtlik yaşın,
Dünya sakitləşsin, cihad görməsin.
Balalar dünyada firavan günlər
Yaşasın, bir daha dərd-qəm görməsin.

***2024***

## HƏYAT NƏDİ

Bilmirdim eşq nədi, məhəbbət nədi,
Bunu ilk öncədən səndən öyrəndim.
Bilmirdim dərd nədi, kədər, qəm nədi,
Bunu da, ilk dəfə həyat öyrətdi.

Bilmirdim acı nə, sevinc necədi,
Onu da yaşayıb, görüb, öyrəndim.
Bilmirdim dost nədi, aşina nədi,
Ətrafa boylanıb, ordan öyrəndim.

İndi yaş da ötüb, saç, baş, ağarıb,
Rənglə bir ehtiyas hissi duyulur.
Onu da hər zaman eyləmək olmur,
Çünki sağlam ruhda,həyat bulunur.

## ZÖVQ ALANLAR

Ey dünyanı bərbad hala salanlar!
Heç nə hiss etmirsiz siz bu dünyada?
Şəxsi mənafeyi üstün tutanlar,
Şər-böhtan atırsız, bezib insan da?

Konis(ti)tusiya qanunu  pozulur,
Günahsız insanlar cəzalanırlar.
Alaraq dünyanı bax həyasızlar,
Kişilik hüququn taptalayırlar.

Namus kağızdadı, böhtan vərəqdə,
Çoxdandı hallanır yalan, iftira.

Pula atasını satan əbləhlər,
Kişilər 41-də gedib deyirlər.

Əxlaqsızl  dünyanı alıb cənginə,
Qızlar valideynlə hesablaşmırlar.
Pullu məmurlarla kef məclisində,
Eyş-işrət içində baxın üzürlər!

Bəzi məmurların "qeyrət simvolu",
Küçə,yol kənarı uçan "quşlardı".
Yerişin itirən binamuslarsa,
Kişilik məktəbi deyir yollardı.

"Kişinin qeyrəti, qadın namusu",
Çıxıb leksikondan, ədəbi sözlər.
Pulu hər bir şeydən üstün tutanlar,
Bunları görərkən bərəlir gözlər.

Nə böyük bilirlər, nə də ki, kiçik,
Namussuz həyatdan min zövqlər ala.
Dünyanı dolayıb barmaqlarına,
Kefi nə istəyir qalmayır dala.

## BƏNDƏM

Bir yumruqluq canın yoxdu,
Girirsən hər zaman gözə.
Əzilmək istəsə başın,
İnan ki, bəndəm bir sözə.

Sözümü gözləsən əgər,
Deyərəm ki,sözüm çoxdur.
Gözümü görmək istəsən,
İnan ki,bəndəm bir gözə.

Yumruğu işə salaram,
Mən səndən geri qalmaram.
Dərdinə dərdi qataram,
İnan ki, bəndəm qaş-gözə.

## ATA NALƏSİ

Bir tikə çörəyə möhtacdı külfət,
Bir kimsə baxmayır,  etməyir ülfət,
Qazancım çatmayır, basıbdı möhnət.
İnsafın yoxdurmu edəsən hörmət?
Ey qansız məmurum, ayıl nəhayat.

Yatıb axşamacan yol gözləyirlər,
Ac qarnı durmadan övkələyirlər,
İndi atam gələr, səslə deyirlər.
İnsafın yoxdurmu edəsən hörmət?
Ey qansız məmurum, ayıl nəhayət.

Tox qarın sizlərdə nə vaxtacandı?
Kasıbın axrına çıxanacandı?
Haramı yollarla toplanan dövlət,
İnsafın yoxdurmu edəsən hörmət?
Ey qansız məmurum, ayıl nəhayət.

Körpələr ağlayır eşitmirsiniz?
Lütdü bədənləri, görməyirsimiz?
Sən uzat əlini, eylə mərhəmət,
İnsafın yoxdurmu edəsən hörmət?
Ey qansız məmurum, ayıl nəhayət.

## MÖHTAC DA OLMA

Dostu, rəfiqəni sına hər zaman,
Sənə xəyanətə,bax vermə aman,
Qazancda doğru ol, olmasın yalan,
Sındırma qəlbini, möhtac da olma.

Sına yollar boyu, hər bir anını,
Sına süfrəsində, yemək dadını,
Yatanda, duranda, gəzən zamanı,
Öldür öz nəfsini, möhtac da olma.

Ağlama heç zaman, yıxılan zaman,
Özü yıxılanlar, ağlamaz inan,
Ayıq ol, sayıq ol, dostluqda hər an,
Xəyanət eyləmə, möhtac da olma.

Əlin açıq olsun, kasıb olsan da,
Varlı nəcib olmur, bunu duysan da,

Dostun kömək eylər, sənə hər anda,
Xayinə yol vermə, möhtac da olma.

***2023***

## EHH

Doldum bulud kimi, yağıştək yağdım,
Dərdimə bir çarə, əlac tapmadım.

Ləldi, cavahirdi, boldu sərvəti,
Uca dağlarımın,hər bir tərəfi,
Nə olsun dünyanı, gəzir qüdrəti,
Bəhrəsin görmürük, bu var-dövlətin.

Qızıl yataqları, mazutu, nefti,
İllərdi daşınır, ucuz qiyməti.
Mendeleyev cədvəl  geridə qalıb,
Bitib tükənməzdi, saysız sərvəti.

Bizdən bəhrələnən milyarder olub,
Sağımız, solumuz düşmənlə dolub.
Xəbər eşitməkdən qulaq kar olub,
Rüşvətxor sahibkar,zonda oturub.

## NƏSİHƏT

Allahım, möhlət ver qoy keçsin zaman,
“Zalımlar” çoxalıb, verməyir aman.
Öz dərdin bir yana, özgənin dərdi,
İlişib boğazda, keçməyir loxman.

Bürüyüb ətrafın yalanlar sənin,
Çox gedə bilməzsən soyarlar dərin.
Zalımın zəncirin uzun ediblər,
Kafirin quyusun, dərindən dərin.

***2023***

## AXİRƏTDƏ

Ey dünya malından əlini üzüb,
Axirətdə öz yerin arayanlar.
Doymayıb paradan, yaşamaq üçün,
Elə bu dünyada, maya qoyanlar.

Kasıbın malına ey göz tikənlər,
Hər zaman əl qoyub, mənimsəyənlər!
Namusu, qeyrəti tapdalayaraq,
Elə bu dünyadan, zəpt eyləyənlər.

Tutmuşuz zalımın, əclafın yolun,
Ələ gələnlərdən çəkinməyirsiz..?
Olmaz bu dünyadan siz köçən zaman,
Allah rizasıyçın ehsan verəsiz...?

Niyə qoymayırsız, rahat yaşasın?
Pulu yoxdursa da, qoy nəfəs alsın?
İşləyib namusla, zəhmətkeş kimi,
Vermədən kimsəyə ziyan, dolansın?

## ŞAİRLƏR

Yenə zirvələri fəth eyləyirlər,
Başları ucadan uca şairlər.
Görən qəlblərindən keçən nələrdir,
Nələri düşünüb yazır şairlər?

Dağ döşündə bənövşələr, lalələr,
Görənləri hər an heyran edirlər.
O gözəllik fədaisi qönçəni,
Qoxuyla qələmə alır şairlər.

Kimi sevinclidi, kimisi qəmgin,
Kimisi halından bədbindi-bədbin.
Sonsuz səadəti varda görənlər,
Kasıb dözümlüdür deyir şairlər.

Kimisi özünü bəxbəxt sansa da,
Kasıban, mən mərdəm, vallah deyirlər.
Kimisi aclıqdan köpük qussa da,
Həmişə tox tutur özün şairlər..

Gördüyü hər şeyi yazar durmadan,
Qələmi itidir,qəlbi isə qan.
Xəyallı var-dövlət uzaq olsa da,
Hər an tanınırlar, yazan şairlər.

Xoşbəxtlik arzusu daim qəlbində,
Yaşayır, yaşadır gələcək üçün.
Həssas qəlbləriylə gördüklərini,
Tarixə bəxş edib, gedir şairlər.

***2020***

## BAŞI DAŞDAN-DAŞA DƏYSİN

Döyüşənə qiymət verin,
Yaralarını sarıyın,
Çayın, çörəyini  verin,
Sağlamlığını qoruyun!

Şəhidlik zirvəsi uca,
Siz yüksəklərə qaldırın.
Kasıb balası şəhiddir,
Yenə "kasıb"ları  yığın!

Dövlətlinin bircəciyi,
Otellərdə kef eləsin.
Kasıbı önə göndərib,
Arxadanda güllələyin.

Qan bahası torpaqları,
Düşmənimizdən alınsın.
"Əziyyətin çox çəkmisiz,
Bəhrəsindən faydalanın".

Yenə hay-haray salaraq,
Kasıb balasın  toplayın.

Düşmənə aman verməyən,
Əsgərləri tapdamayın..!

Göndərin məmurun özün,
Dərisini də soydurun,
Yerin altın, qoy çevirsin,
Düşmənləri  də qırdırın.

## DAYAĞAM MƏN

Mənə qəlbi yanana,
Y ananlardan biriyəm.
Mənə "qulaq" verənə,
"Qulaqlardan" biriyəm.

İstərəm hər nazını,
Çəkəm, çəkdirəm hər an.
Dərdi tutub qulaqdan,
Yerə əkdirəm həmən.

Anlamazı anladıb,
Anlasa dayağam mən.
Dayağında duraraq,
Ona bir arxayam mən.

# OVÇU

Ovçu necə etsin, bu günkü ovun,
Meşənin əlindən alıb aparsın?
Tutub şikarını, paylara bölüb,
Kasıb ailəsin qarnın doydursun...?

Necə hazırlasın özün bu hala?
Necə yaraqlansın, ovun tutmağa?
Qəm də yaxasını buraxmır axı,
Güc qalıb, tutduğu ovun soymağa?

Əvvələn ov düşmür qurduğu tora,
Şikar da fırlanır, düşmür qarmağa.
Yazığı gəlsə də, baxmır sözünə,
Qəlbi də istəyir, ov ovlamağa.

Dayayıb özünü öz tüfənginə,
Nişan alıb ovu, tutdu tətikdən.
Beləcə səhəri axşam eyləyib,
Çəkib tətiyini, atdı güllədən.

Uçdu səndirlədi quşcığaz göydə,
Bir dəfə "Qa" dedi, güllə dəyəndə.
Tutub qanadından atıb tərkinə,
Sevinə-sevinə qaçdı evinə.

## HƏKİM

Sevgi dünyasının  bağbanısan sən,
Xəstə canımızın loğmanısan sən.
Hardandı bu bilik, bu cür istedad?
Tapırsan hər kəsə, məlhəm o saat.

Xəstəylə xəstəsən, sağlamla sağlam,
Kimsə də arasa, həyatda varsan.
Unutmaq olmayır  yaxşı əməli,
Pislik bir bəladı  gəldi,  gedəli.

Xəstənin dərdini  tap, ver dərmanın,
Sağalmış olarsa ver sən fərmanın.
Durmuşuq arxanda,  budur bədəli,
Dilin badam isə  əlin şəfalı.

İllər üst-üstədi,  ömür də yarı.,
Yaxşılıq edərsən,  görərsən barı.
Biz yada saldıqca  xatirələri,
Ömrümüz qısalır, gedir günləri.

***2023***

## “TÜLKÜ HƏCCƏ GEDİR..”

Sən düz seçməmisən həyat yolunu,
Axsayır həyatda səntək insanlar.
Nə irəli gedib arzularına,
Nə də geri qalıb halallarına,
Sahib çıxa bilmir, kor yaşayırlar.
Mühütün ən ağır əzablarına,

Dözməyib nəhayət ki, məhv olurlar.
Sən düz seçməmisən həyat yolunu,
İstək, arzuları məhv eyləmisən.
Sən qalib olmaqdan de, uduzaraq,
Özün həyatına qəsd eləmisən.
Axtarma günahkar, məhv edər səni,
Tülkü tülkülüyün sübut edincə,
Dərisi soyular desəm boğazdan,
Uzaqlaş yaxşısı bu intiqamdan.
Yaşa sən ömrünü səssiz səmirsiz,
Deməsinlər tülkü bax həccə gedir.
O qədər bəd əməl etdikdən sonra,
Guya ki, günahın yumağa gedir.

## ŞEYTAN BATA BİLMƏZ

***(nəsihət)***

Sənsən mənim dərdimə dərman balam,
Neyləsəm də elə yadam ki, yadam.
Bir rüzugar əssə başının üstə,
Hər zamantək həmdəm, yanında varam.

Keçirsən yanımdan, biganə kimi,
Maraqlıdır, niyə salamlaşmadan...?
Yəqin səni şeytan çıxardı yoldan,
Kef eylə həyatda, nə qədər varam.

Özgə malı halal olmaz adama,
Keçmişləri, çalış sən sal yadına.
Kəlmə-kəlmə şəhadəti, oduna,
Şeytan bata bilməz, hər anda varam.

## AĞRILI BAXDI, KEÇDİ

Özgəyə atılan ox,
Sinəmi dəlib keçdi.
İçimin duyğuların,
Parçalayaraq keçdi.

Sızlamadı heç yaram,
Yaralıydı bu qəlbim.
Necə, acı gəldisə.?
Acıyla dəldi keçdi.

Sinəmi ovxaladı,
Yay özü qattalandı.
Səpələnmiş arzuya,
Ağrılı baxdı, keçdi...

***26-11-2017***

## YAŞA EMFİRAM..!

***(Emfira xanıma ithaf edirəm)***

Gecə yuxusunu alıb əlimdən,
Gözümü yumsam da, yata bilmədim.
Əllərim əlinə elə dolaşdı,
Ayırmaq istədim, ay(ı)ra bilmədim.

Gecə də gündüz də yuxularımda,
Hara baxıramsa, səni görürəm.
Dolaşıb fikirlər, mənim başımda,
Dərdimi deməyə, kimsə tapmıram.

Al məni qoynuna, qoru bəladan,
Tək bir ümüdüm var, o da Yaradan,
Məlhəmi Allahdır, ömrü yaşadan,
İnamı itirmə, yaşa Emfiram.

***Solmaz Şirvanlı***

## XƏBƏRSİZ

Kimi dil pəhləvanı,
qollarında gücü yox.
Kimi qoldan qüvvətli,
yekə başdı, ağlı yox.

Gəzir kənd-kənd, el, oba,
rəftarı da, çox qaba.
İnsanlarla dalaşır,
sanki çay qırağıdı,
Qurd quzuyla savaşır.

Bilir ki, sonu yoxdur,
öndə getmir heç zaman.
Ağlı başından çıxır,
onun sözündən çıxsan.

Əyri, dolanbac yollar,
onda da əsəbləşrir.
Xəbəri yox xəbərdən.
vəziyyət kəskinləşir.

Hər yağışlı bir günün,
günəşlidi səhəri.

Minik atlarının da
hazır olur yəhəri.

Yaz gəlişi hər zaman,
şənlik, toy, bayram olur.
Hamı təmizlik edir,
novruza hazırlaşır.

## MÜƏLLİM

Yaxşını-yamanı, ədəb-ərkanı,
oyrədib valideyn, bir də müəllim.
Həyatda dostluğu, sirdaşlığı da,
öyrədib analar, bir də müəllim.
Vətəni sevməyi, sadiq olmağı,
onun sərhəddini tam qorumağı,
O ucsuz-bucaqsız ərazilərdə,
ayıq-sayıq olun, deyib müəllim.
Evdə ailəni, oğul-uşağı,
ətrafda yaşayan, qohum-qonşunu,
Qoru el-obanı, vətən daşını,
hər zaman söyləyərdi, bizə müəllim.

***2023***

## SƏBR VER ALLAH

Süd gölündə üzən də var,
Həsrətindən  ölən də var.
Ailəni təmin edən,
Ehtiyaca dözən də var.

Ərzağını tapmayan da,
Qururundan sınmayan da,
Hissiyyatla oynayan da,
Acı sözlə döyülən var.

İmtahanı var hər günün,
Cəmiyyəti də düşünün.
Alışıb dünya, bürünün,
Palazında sürünən var.

## VECSİZ HƏYATDI

Ay təklikdən bezdim deyən sevgilim,
məhəbbət oduna alışdınmı sən.?!
İndi tək deyilsən, gündə birinən,
gözlərin azdırır, gün keçirirsən.?!
Axtarıb arayıb sevmədinmi sən,
ey dar düşüncəli, deyə bilmirsən.?!
Əsil sevgi düşməyirdi dilindən,
nə oldu ki, indi düşdü gözündən.?!
Düşünürsən hər gün kefdi, damaqdı,
bundan yaxşı həyat olmaz, qınaqdı.
Gündə bir şəhərdə, istirahətdə,
pula pul demirsən, vecsiz həyatdı.!

## BİLMƏDİM

Həsrətindən qurudum,
Dərdindən həlak oldum.
Dodağından qəlbinə,
Bircə keçid istədim,
Amma keçə bilmədim.

Vüsal məni əritdi,
Hicranı da tərk etdi.
Duyğuların kilitdi,
Açıb keçmək istədim,
Qıfıl, aça bilmədim.

Həyat şahmat lövhəsi,
Sinələr qəlb pərdəsi.
Sevgi də seçiləsi,
Seçimimdə səhv etdim,
Doğru seçə bilmədim.!

## KİM ÇATACAQ DADINA

Gözünü də qırpmadan,
              bax həqiqət üzünə.
Haqq varsa bu dünyada,
              qayıdacaq özünə.
Yaxşını pis görənlər,
              bir gün kor olacaqlar.
Pisi yaxşı edənlər,
              bir gün məhv olacaqlar.
Paxıllıq bir xəstəlik,

müalicəsi də yox.
Savadlı insanlara,
qiymət verənlər də yox.
Yanasan, dağılasan,
necə yanırsansa sən.
Haqqı nahaqqa satıb,
cibini dolduran sən.
Ey vəfasız dünyanı,
zəpt eləyib tutanlar.
Vaxt gələcək tələniz,
qurulacaq meydanlar.
Dərinizi soyacaq,
O toplaşan insanlar.
Baxacaqlar kənardan,
O cansız vücudlara.
Kimlər yaxınlaşacaq,
Mənə'cən ucuzlara.?

***2023***

## HAQQ YOLUNA DÜŞÜB, HAQQ DEMƏKDİR!

Dost baxıb sevinsin, düşmən xar olsun.!
Vətənin təməli bərkiməkdədir.!
Bizim istəyimiz, əməlimizlə,
Haqq yoluna düşüb, haqq deməkdədir.!

## XƏYALLAR ALƏMİ

Hansı xəyallarda olmuş olsam  da,
Alınmaz xəyaldan çönüb qaçmışam.
Qəlbimdə saf eşqim alovlansa da,
Gerçək arzularla mən tanınmışam.
Hicran bir həyəcan, vicdan susduran,
Eşqin  atəşiylə alışıb yanan,
Əlini qaldırıb İmdad da uman,
Xəstə bir varlıqdan uzaqlaşmışam.
Eşqi məhəbbətdən yanıb kül olan,
Vəfasız sevgidən göyə sovrulan,
Lazımsız işlərdən kənar durmuşam.
Bilmirəm düz etdim, ya da ki, yanlış,
Dərdimi dərdsizdən alıb qaçmışam.
İndi çox rahatam, dərdim özümlə,
Fikirlər özümlə, kədər özümlə.
Qəlbimin boşluğu sıxmayır məni,
Bütün xəyallarım olub çözümlə.
Bir gün pəncərəni açdığım zaman,
Əlini uzatdı görüşmək üçün.
Əlim də xəyalda uzana qaldı,
Qəlbim parçalandı o günlər üçün.
“Vaxt vardı qucaqla çiçək alardı”,
Gəlib qaça-qaça göyə atardı.
Güllər səpələnib başımın üstə,
Tökülən zamanda, haray qopardı.
Sevinc anlarımı xatırlayanda,
Mənim qəm-qüssəm, bir an yox olardı.
Eşqidən gözlərim gülümsəyərdi,
Utancaq baxışla, baxıb qalardı.

Sanki yanımdadı, dayanıb mənim,
Xəyal aləmində, o da donardı.
Gündüz günəşimə, gecə də aya,
Sanki bu həyat yox, xam-xəyallardı.
Uzadıb əliylə gözümü silər,
Gülümsər nəzərlə məni izlərdi.
Düşüncə doğru yox, yalan da olar,
gercəklər silinər, xəyal doğular.
Sevgi-məhəbbətin şirinliyinə,
Ona aldananın bəxti də solar.
İnamın yox olub itdiyi zaman,
Demək sevgi bitər, ümüd yox olar.

## AYRI-AYRI BƏNDLƏR

Oturma torpaq üstə,
          sonda peşman olarsan.
Sən otur dizim üstə,
               həyatı anlayarsan.

Bəzək vermə özünə,
              sən elə də gözəlsən.
Ənnik-kirşan boyadı,
            etmə vallah bezərsən.

Qara eynək qaraldır,
               ürəklərdə arzunu.
Aç gözünü dünyaya,
              qərib etmə sözümü.

Çox çəkindik, qorxmadıq,

bu aclıq, susuzluqdan.
Müsəlman ölən deyil,
qərib yuxusuzluqdan.

Yalan demə həyatda,
həyat izləyər səni.
Doğru de, doğru söylə,
həyat özləyər səni.

***2023***

## SÖZ VAR

Sözlər var ki yandırır,
Söz də var ki, qandırır.
Ürəyindən su içir,
Səni susuz yandırır.
Sözlər var bir bəladır,
Sözlər var bir baladır.
Yerində deməsən sən,
Tonqaltək alışdırır.
Söz qaldırar göylərə,
Söz endirər yerlərə.
Söz var eşiklərdədi,
Söz var beşiklərdədi.
Söz ağaca qaldırar,
Söz də var usandırar.
Sözlərin yerləri var,
Sözlərin dəyəri var,
Deyilən məqamı var.
Sözlər var gözlər qırpar,
Qanını da coşdurar.

Ona görə əzizim,
Söz deməyin tərzi var.
Söz deyərsən yumulu,
Olar ki, çox qorxulu.
Açanda gözünü sən,
Onu ölmüş görərsən.
Ehtiyatı sən əldən,
Vermə öyrən aqildən.
Oyanmısan səhərdən,
Söz açmırsan təpərdən.
“Ədəbin” olsun sənin.
Sözlər bitən deyildir,
Gedəcəyik biz əldən.

***2023***

## YUXUDAN AYILA BİLMİRƏM KAŞ Kİ YUXU OLAYDI

Mən sənsiz ey dünya necə söyləyim?
Yaşamaq həstəri öldürər məni.
Mən belə dünyadan necə əl çəkim?
Sinəsi qan verən, qübar balalar,
Vətən həsrətiylə, şəhid olanlar,
Gözləri səmada qaldı, getdilər.
Övlad həsrətiylə şəhid olanlar,
Qəlbləri sevgiylə yanan balalar.
Kim bilir nələrdən keçib  yumdular,
O qara gözləri min həsrət ilə.
Nələr düşündülər, nələr andılar,

Od alov içində yanan balalar.
Göz yaşı qurumur, dərd əzab verir,
Oğlunu mafədə görən analar.
Dərdi örpəyinə büküb ağlayar,
Gözünü yollardan yığan analar.
Atalar dözməyib dünyadan köçür,
Qardaşlar can qardaş deyə ağlayır.
Bacılar üzünü cırır, qanadır,
Ata həsrətində olan balalar.
Mafənin üstündə göz yaşı tökür,
O körpə balalar, fidan balalar.
Gələcək həyata, belə atılır,
Yadigar olaraq, qalan balalar.

***2023***

## BÜTÜN ELLƏR EŞİTSİN

Çıxdım dağ başına seyr eyləməyə,
Dərdimi o dağdan mən söyləməyə.
Nə dedim, demədim eşitdi səma,
Pərvazlanıb uçan quşlar eşitsin.

Uçan quşlar, söylədim eşitdiniz?!
Uzaq ellərdən köçüb gəlmisiniz.
Xahişim bu, burdan köçüb gedəndə,
Aparın ki, o ellər də eşitsin..

Müharibə çox ölkələr dağıtdı,
Çoxlu ürək, çox canlar da alıbdı.
Qoy getsinlər, bu torpaqlar bizimdi,
Mərd oğullar, qızlar şəhid olubdu.

Söyləyin siz, o ellərə gedəndə,
Xaxaları, ağaları görəndə.
Sizin də, ana bacınız ağlasın,
Bizim yurdlar qoy viranə qalmasın.

Bax o zaman anlayarsız, qanarsız,
Yaralanıb yer yurdlarda yatarsız.
Can verərsiz, ağlayar-sızlayarsız,
Onda bizi lap gözəl anlayarsız.

## NƏDƏN YAZASAN Kİ

Gün dönsə geriyə ay məhvərindən,
İnanmıram xoş günümüz qayıda.
Bir dərdin deməyə yaxınlaşanda,
Futbol topu kimi  tullanır adam.
Bu nə idarədi, nə rəhbərçilik,
İnsanlar çıxıbdır hədəqəsindən!
Nə qədər zəlzələ olsa da inan,
Qayıdan deyildir əvvələ adam.
Nə kitablar oxuyur, elmdən uzaq,
Qalıbdır çöllərdə, sanki yalquzaq.
Bir qarın çörəyi qazanmaq üçün,
Üz tutur xaricə, yollanır adam.
Tarixin unudur, vətən unudur,
Fikri yalnız uşaqlardı, sonudu.
Necə etsin, nə eyləsin ki, hər gün,
Bir qarın çörəyə möhtacdı adam.
Nə qədər ailə qayğıları var,
Keçdiyi yolları ələk-fələkdi.
Köhnəlib əyin-baş çırılmaqdadır,

Tapmayır bir çıxış yolunu adam.
Evə gəlib nəsə gətirməlidir...?!
Körpə balaları yedirtməlidir...?!
Gələn qonağını o görməlidir...?!
İtirib başını çaş-başdı adam.
Qonşuya çıxmağa üzü də yoxdu,
Toyuna getməyib pulu da yoxdur,
Nədən danışsın ki, sözü də yoxdur,
Baxır sağ-soluna, dərdlidi adam.
Molla Nəsrəddinin gününə düşdük,
Qonşu xəşilinə gözü də dikdik,
Necə planlar çızaq, xəşil də bizlik .
Qalıbdır gözləri qazanda adam,
Nədən yazasan ki, dəyişsin zaman...?!

***2023***

## BURDA MƏN, BAĞDADDA KOR XƏLİFƏLƏR

Mənəm-mənəm deyənlər,
elə "məndə" qaldılar.
Çəıtinə düşəndə,
"sənlə" kifayətləndilər.
Məsuliyyət hər kəsdə,
olsa idi nə vardı?!
"Özxəsvirus sindromu",
insan canına vardı.

Sağalmaz bir yaradır,
işləyibdir canlara.

Bunca  kifayətlənsə(lər),
işləməyər qanlara.
Onda can sağ-salamat,
sürəcək illər boyu.
Dərdi-səri unudub,
dinc yaşar ömür boyu.

***2023***

## YOX OLSUN

Süzün badələrə eşqin meyini,
Soysuz ermənini narahat etsin.
Alıb avtomatı sərhəddə biçək,
Düşmənlər sərhəddi keçə bilməsin.
Yatmayaq, ayıqlıq-sayıqlıq edək,
Tək bizə məxsusdu, qalibik çünki.
Vətəni düşmənin tapdaqlarından,
Məhv edib, qoylayıb kökünü kəsək.
Yollar təmizlənsin, yollar açılsın,
Qayıtsın qaçqınlar el- obasına.
Dünənki qan qada, bu gün yox olsun,
Qayıtsın çıraqla yurd-yuvasına.

## QATIRDIQ BİZ

Ey Allahım..!!!
Nə qədər dərd çəkmək olar?
Öz dərdin də unudulur.
İnsanlara yaxşılıqlar
İçimizdə qurudulur.

Belə bəxtsiz həyat bizə,
Düşündükcə əzab verir.
Sağlam, xəstə bir mühütdə,
Can getməsin, imdad edir.

Niyə, nədən, nəyçün Allah?
Bü günlərə yetişdik biz,
Yaş ağacı yanmaq üçün
Qurulara qatırdıq biz.

## İSTƏMİRƏM

İstəmirəm pisə toxunmayasan,
Yaxşılar ətrafa dolacaq bir gün.
Nə gəlir əlindən eylə yaxşılıq,
Pisi xatırlanma itəcək bir gün.

Pis, pislər içində özü yaxşıdır,
Yaxşı da, yaxşının içində o cür.
Heç vaxt gəzməyirlər onlar yanaşı,
Çünki fərqlidilər, hərəsi bir cür.

Həyat aşılayır, düzəm də verir,
Necə lazımdısa, gələcək o gün.
Vaxt gəlib çatanda qoşa gəzəcək,
Qoşa addımlayan görərsən bir gün.

Allah səbr verib, səbr də əta edib,
İnsanı həyata gətirib bir cür.
Həyatın keşmə-keş günləri içrə,
Dəyişib zamanla insan da  bu cür.

Necə yaranmısan eləcə yaşa,
Necə yaşadırlar, elə də yaşa.
Dəyişmə məcranı, axarı ilə,
Allah məsləhəti, yoluyla yaşa.

***2023***

## AZAN SƏSİ GƏLƏNDƏ

Min dəfə söyləmişəm,
At daşı ətəyindən.
Həyat davam eyləyir.
At daşı ətəyindən.

Qəlblərə hökm olunmur,
Lap vursan kürəyindən.
Dərdə dərman axtarma,
At daşı ətəyindən.

"Xəstələrə" fərmanı,
Allah verib əzəldən.
Məlhəmi da bil odur,
At daşı ətəyindən.

Ən böyük məlhəm namaz,
Səcdə eylə önündə.
Müntəzir ol hər zaman,
Azan səsi gələndə..
Şeytana uyma heç vaxt,
At daşı ətəyindən.

## SƏHƏRİ BAŞLAYIRAM

Mənə zəhər deyənə,
Bal-şəkər söyləyirəm.
Diqqət eyləməyənə,
Diqqəti yetirirəm.
“Badalaq” atanlara,
Mənə kəm baxanlara,
Qəlbimi sıxanlara,
Mən hörmət eyləyirəm.
Hər İllər keçə-keçə,
Bərkiməkdi istəyim.
Heç vaxt bir kimsə ilə,
Olmayıb söz-söhbətim.
Mən belə optimistəm,
Zəhmətimə xor baxan,
Onları yamsılayan,
Yalanları danışan,
İnsanları tanıdam.
Yavaş-yavaş canlandım,
Arxlarımı hoppandım,
Dostlarıma bağlandım,
Sübut etməkdən ötrü.
Bu yaşımda-başımda,
Mənə lazımdı rütbə?
Vəzifə istəmirəm,
Yaşım ötübdür artıq.
Var-dövlət neyləyirəm?
Başım ağarıb artıq.
Mənim ətrafım olsun,
Deyim-gülüm, şadlanım.

Dostları sevindirim,
Əzabına qatlanım.
Şair desəm ayıbdı,
Ustadlar var önümdə.
Sinədəftər deyiləm,
Deyirəm söz gələndə.
Edirəm müqayisə,
Yazıram bala-bala.
Ünsiyyət istəyirəm,
O da vardır qanımda.
Arada yada salıb,
Ehtiram göstərsinlər.
Dərdə şərik də olum,
Mənə salam versinlər.
Bala-bala şeirlər,
Yazıram, yaradıram.
Nəsillərçün yadigar,
Nəsihətlər qoyuram.
Bəyənənlər bəyənsin,
Bəyənməz özü bilsin.
Şəkəri qalxan zaman.
Bir stəkan tez su içsin.
Bəyənəndə sevinir,
Yan keçəndə sönürəm.
Unutqan olanlara,
Söyləmirəm ölürəm.
Hər şeyim var həyatda,
Həyatımın yoldaşı.
İki oğlum, bir qızım,
Yeddi nəvəm, dərd daşım.
Yaxşı dostlar var olsun,

Pisləri kənar dursun.
Sınmaram heç bir zaman,
Desələr ki, lal olsun.
Mənə daha nə lazım?
Ömrümü yaşayıram.
Bir tikə çörəyim var,
Sözümdə ki, bir anbar.
Günüm qara olmasın,
İstəməyən yan dursun.

***2023***

## AZƏRBAYCAN QADINI

Haqsızlığın sonu yox,
Biçilməmiş donu yox,
Əzabların sonu yox,
Azərbaycan qadını!

Zülümlərə tabesən,
Hərb və sülhdə qalibsən,
Hər bir işdə salehsən,
Azərbaycan qadını!

Oyanmısan, oyat sən,
Qayıtmısan, ayıl sən,
Hər bir işdə sayıq sən,
Azərbaycan qadını!

Kişi kimi kişisən!
Dişi kimi dişisən!

Sındırmısan dişi sən!
Azərbaycan qadını!

Müstəntiqsən, rəissən,
Müəllimsən, həkimsən,
Snayperçi, hərbiçisən,
Azərbaycan qadını!

İtirib axtaran yox,
Dərdlərinə baxan yox,
Qarşısını alan yox,
Azərbaycan qadını!

Səngərlərdə əsgər sən,
Vuruşan cəngavərsən,
“XTQ” də “Yaşma”da,
Azərbaycan qadını!

“Komando”da canavar,
Kitablarda nağıllar,
Əfsanəvi taborlar,
Azərbaycan qadını!

## İŞ VERİRLƏR QOYUNA

*(zarafatla)*

Dünya qatma-qarışıq,
hamı durub yazmağa.
Qələmi küt olsa da,
başlanır cızmaqara.
O qədər paxıllıq var,
bel alırlar qazmağa.
Anlamırlar bir zaman,
növbə çatacaq ona.
Özünü düzəlt, qazan,
Qurtar, düşmə oyuna.
Poeziya güclüdü,
qatılmışam oyuna.
Yerindən duran yazır,
saxlamayır qəlbində.
Qara qələm, ağ vərəq,
artıq düşübdü moddan.
Telefon, kompyuterdə,
nişan qoyur hər yazan.
Heç bir çanta gəzdirmir,
tənbəllik alıb canın.
İnternet asan olub,
qeyd eləyir “cananın».
Telefon daim bizdə,
Sallamışıq “torbaya”.
Elə ki, lazım olur,
çıxarırıq ortaya.
Nəyi var döşəyirik,

hər kəs, bir-birimizdən.
Şe(i)riyyət çıxır yaddan,
şəxsi münasibətdən.
“Hayqırıb” çıxır birdən,
bu dözən sinəmizdən.
Kim təksirkar...olmayan,
o da keçmir sözündən.
“Keçi”lər diri olur,
iş verirlər “qoyuna”.
Cəzası bitmir onunda,
Yığışırlar “vayına”.

***2023***

## MƏN VARAMSA SƏN DƏ VARSAN

Mən elimin mərd qızıyam,
Mənə dayaq elim-obam.
Sındırmayın insanlığı,
Vuruşmağa mən hazıram.

Sındırmayın qollarımı,
Yazmaq üçün lazım mənə.
Qırmayın siz qıçlarımı,
Dayağımdı onlar mənə.

Qollar mənim qanadımdı,
Oxlamayın siz onları.
Gözlərə möhtac olmayım,
Çıxarmayın siz onları.

Qulaqlarım eşitməkçün,
Nə deyəcək elim mənə?
Boynu bükük olmamaqçın,
Lazımdı dik durmaq mənə.

Vücudumun sağlamlığı,
Beynim ilə çox bağlıdır.
Bütöv insan olmaq üçün,
Yaraqlanmaq da lazımdır.

Sındırma "qol-qanadımı",
Lazım gəlsə açmaq üçün.
İşlədəcəm ürəyimi,
Kainatı "gəzmək" üçün.

Gəl sındırma sən özünü,
Mənə dayaq olmaq üçün.
Mən varamsa, sən də varsan,
Qanad açıb uçmaq üçün.

***2023***

## POLİSİNDƏ GÜCÜ NƏNƏYƏ ÇATIR

Gözünün odunu alıb məmurlar?
İşləmir heç yerdə ali qanunlar!
Şücaət göstərən bizim oğullar!
Polisin də gücü nənəyə çatır.

Hardadı bu qanun, arxivə girib?
Yoxsa ki, palaztək yerə sərilib?

Əvvəldən görünür tədbir görülüb?
Polisin də gücü nənəyə çatır.

Gözlərə qaz vurub duran oğullar,
Balağlar altında yatan oğullar,
Üz-üzə gəlməkdən qorxan oğullar,
Polisin də gücü nənəyə çatır.

Kor olsun məmurlar işıq üzünə,
Geçirib kaskanı, iki gözünə,
Göstərmir gözünü saf millətinə,
Gülür kaska altdan naqiscəsinə,
Polisin də gücü nənəyə çatır.

Gün gələcək, cavablar veriləcək,
Dubinkanın zərbəsi də enəcək,
Əzab verən şəxslər orda köpəcək,
Polisin də gücü nənəyə çatır.

***2023***

## ODA KÖZƏ

Atdın həyatını oda, gözə sən,
İllərin mənalı gözəl çağında.
Heç vaxt anlamadın, nə edirəm mən,
Nə ilə bitəcək, oynamayım mən?

İndi düşünə bilmir, qərar da yoxdur,
Artıq qərarlara lüzum da yoxdur.
Ömrünü vəsf etdin, "ölümsüzlüyə",
Dözə bilərdinmi sən, sənsizliyə?

“O  hardan bilsin ki, əsil sevgi nə”,
“Əsil məhəbbət nə, əsil eşqi nə”?
Həyat vəsvəsəsi, fikirləriylə,
“Düşünə bilmədi” həyat, yoxsa nə?

“Ağlama”, ağlatsan dadı yox bunun,
Qəlbin çox sınıqdı, adı yox bunun.
Nə qədər axtarsan, tapa bilməzsən,
Axtarsan, sonunu gerçəkmi bunun?

Həyat silkələdi, səndirlədin sən,
Unuda bilmədin vəfadarını.
İllərin, ayların, ötüb geçsə də,
Onun  insanlığın, iqtidarını.

Qəlbinə vurmusan sağalmaz yara,
O gedib hələ də sağalmamışam.
O qara torpaqda sən isə burda,
Yarım əsir keçib unutmamışam».

# BEŞ BARMAQ (ƏL)

***(Barmaqların fəaliyyətində olan insanlar var ki, oxusalar özlərini orda görə bilərlər.)***

***Məcazi mənada.***

Sevinc də, kədər də, əkiz qardaşdı.
Ört-bastır eyləyir biri-birisin.
Baş barmaq təklikdə qala  bilsə də,
Anlaya bilməzsən, fəaliyyətin.

Hərəsi öz boyuyla qürrələnir,
Baş barmağam, hamı mənlə birləşir.
Yol göstərən barmaq fəxrlə, ədayla,
İşiniz olmasın, hədələ biçir.

Üçüncü barmağın da neytrallığı,
Boyuna görə də hərəkət edir.
Yanında dayanan dördüncü barmaq,
Həmişə hər zaman sizləyəm deyir.

Nə tənbəl deyiləm, nə də işgüzar.
Bölürəm gücümü yeri gələndə.
Yan keçmərəm axı, kənar olsam da,
Sözümü deyirəm yeri düşəndə.

Çeçələ barmağam qardaşlarıma,
Dayağam söylədi, sirdaşlarıma.
Qısılmaq yoxdur ki xasiyyətimdə,
Aralı gəzirəm hər an,  daima.

***2023***

## KƏDƏR ƏVƏZİNƏ

Allah, göz yaşıyla qınama məni,
Qəlbimdən süzülüb gəlir, görəndə.
Silə də bilmirəm sanki, təsəlli,
Gəlir hər bir zaman, yeri gələndə.

Ağlama, gözlərin yoracaq səni,
Aramsız axanda, o göz yaşların.
İnan ki, heç zaman silinməyəcək,
Özün atmayınca o qəm daşların.

Bəzən də sevincə məruz qalırsan,
Onu da çox görür, bəzi insanlar.
Sevincdən süzülüb gələn yaşı da,
Qəmin göz yaşına, bənzədir onlar.

Dünya sağlam olsa, insanları da,
Sevinc qarşılayar, kədər əvəzi.
Çözüb hər dərdini, ani olaraq,
Alıb caynağına göydən atacaq.

## HÖRMƏT VƏ XƏYANƏT

Sənə böyük hörmət bəsləyirəm mən,
Eşitmə yaltağın, satqının sözün.
Ayıq ol, sayıq ol, etibar etmə,

Səbr et, dözümlü ol, yoxla sən özün,
Dostluqda sınaqlar mütləq gərəkdir.
Bu gün bir xəyanət eyləsə mənə,
Sabah o xəyanət edəcək sənə.

Yaltaqdan, satqından dost ola bilməz,
Dostluqda etibar inam bəzəkdir.

Səninlə duz çörək kəsən, bir insan,
Sabah da o səni satar, sən inan.
Öz xeyri xətrinə sağ-solda duran,
İnanma dostluqda, o bir kələkdir.

## SƏBİRLİ-SƏBİRSİZ

Nə olsun sevirəm, sevirəm deyir,
arada nifrəti cövlan eyləyir.
Nə qədər ehtiyat tədbiri görsən,
nifrət öz işində, davam eyləyir.
Sevgi də, nifrət də durur yanaşı,
təmkinli aparır, sən görməyirsən?
Nə onun üzünü görə bilirsən,
digərin səsini eşitməyirsən.
Beləcə yaşayır onlar yanaşı,
həm onun, həm bunun qarışır başı.
Ötürə anları, illəri bir-bir,
uzun müddətdi ki, edirlər səbri.
Bax belə insanlar qazanır uğur,
yeməyir, içməyir, heç vaxt aldanmır.
Sakit bir guşəyə çəkilib durur,
Heç kimlə dalaşmır, saxlayır qurur.
Ucalır, ilbəil nüfuzu artır,
hər yerə zamanla dəvət olunur.
Yaxşı çərgələrdə çəkilir adı,
səbirsiz insanlar daima yanır.

***2023***

## NOXUDU TƏNBƏLLƏRƏ

***(hər iki cinsə aiddir)***

***Nəsihət***

Gün qalxıb zenitə, hələ yatmısan,
Ruzu paylananda, geri qalmısan.

Yazıq nə gündəsən, ay başı batmış,
Hamımız oyağıq, sən isə yatmış.

Qalxsana ayağa, bax ətrafına,
Ehtiyac olanın sən  çat dadına.

Köpükləndi ağız, oyan  deməkdən,
Qanacaq qananda, dur söyləməkdən.

Həyat qaynayır ee..dur qayna, qarış,
Bu gözəl həyatla, dur sən də barış.

Divtək yatıb qalma, çırtdantək oyan,
Ruzu qazanarsan vaxtında dursan.

Gör hamı oyanıb, olmusan gülünc,
Hamını incidib edirsən girinc.

Cümləmiz oyağıq, etmə tənbəllik,
Dur qoşul bizlərə, qalx, biz gedirik.

## QANMAZSAN SƏN

***(Xəyalın məhsulu)***

Bir ala gözlüyə verdim könlümü,
**Dedi:**
- Bilki etibardan söz gedə bilməz.
**Dedim:**
-Niyə inanmırsan?...İnan sevgimə,
**Dedi:**
- Bu məşquliyyət mənim nə vecimə?
**Dedim:**
-Ölməyib sevgilər, yaşayır hələ,
**Dedi:**
-Bir vaxt vardı bunu söyləyirdilər.
Dedim:
-Yəni heç etibar, inam qalmayıb?
**Dedi:**
-İnan bu sevgiyə lüzum olmayıb.
**Dedim:**
-sevmək çox gözəldir, uduzmazsan sən,
**Dedi:**
-sevgi bir məvhumdu inanmazsan sən.

***2023***

## “ÇIXIB GEDƏSƏN”

Məni belə tanı, belə qəbul et,
Gördüyün səhvdisə, onda dönüb get.
Get yarat özünə böyük kahkəşan,
Sən olasan adam, bəlkə o zaman.
Yığ dost-aşinanı, kef məclisi qur,
Yığılsın başına, artsın otur-dur.
“Xərclə” sağa-sola hər varın-yoxun,
Düşünmə kimsəni, xərclə sən çoxun.
Yığmısan sərvəti, qazan “hörmət”i,
Tökülsün başından, olsun “şöhrət”in.
“Arvad uşaq nədi, unut sən getsin”,
Özləri dolanar, nə işin, “ölsün”.
Sənə ailə yox, bir “eşşək” gərək,
Sevgin insan deyil, “eşşək”di deyək.
Alıb o eşşəyi minib çapasan,
Sonra da dost yoxdu deyib atasan.
Ölənə yaxın da eyş-işrət içrə,
Dəyər-dəyməzinə, satıb “gedəsən”.

***2023***

## LAL, KAR, KOR DÜNYASINDA

Çağırdılar, hay vermədi,
Dedi eşitmir, o, kardı.
Toxundular dəbərmədi,
Dedi  hissiyyatda  kaldı.
Dedilər ki, laldı yazıq,
Danışığında məhduddu.
Göz gəzdirdi gözlərinə,
Dedilər çox baxma kordu.
İndi yaşa bu dünyada,
Bu lal, kar, kor dünyasında.
Yaşamaq asan olsaydı,
Sən bax gör hissiyyatın da.

***2023***

## "YOXDU VALLAH"

***(Dəstəksiz insanlara həsr etdim)***

"Yox" mənim həyatda səndən savayı,
nə qohum, qardaşım, dostum, sirdaşım.
"Yox" mənim dünyada gedib gəzdiyim,
qəlbimi açacaq kahkaşanlarım.
Şükür ki, paxıllıq yoxdu qəlbimdə,
sevinirəm hər kəs deyib güləndə.
Ruzum Allahdandır, övlad Tanrıdan,
"gözəLlik" bir lütfdü bu İlahidən.
Yox bircə artığım, olmuşam incə,
kövrəlirəm biri bir "söz" deyəndə.

Həyat mübarizə, insan mübariz,
dil tapıb danışmaq olubdu qəliz.
Fikrini deyəndə oldun demaqoq,
nə olsun təhsilim deyil pedaqoq.
Yaxşı anlayıram, mən hər birini,
sözümlə basdırım ölü-dirini.
Yeri gəlsə əgər anıb- anmayan,
qandırıb qanmazı, sözün danmayan.
Aparıb çaylara, susuz gətirrəm,
dara düşəni də mən yola verrəm.

## ALIŞAN DEYİL

Mən sənin qeydinə qaldığım zaman,
Sən özgə birini əzizləyirdin.
Sənin qulluğunda durduğum zaman,
Sən başqa birinin dərdin çəkirdin.

Nə qədər yaxınlıq edirdimsə də,
O qədər sən məndən uzaqlaşırdın.
Yığdığım sərvəti elə dağıtdın,
İnan gözlərimə heç inanmadım.

Nə qədər nifrətin olsa da sənin,
Belə alçaq yolu gərək tutmazdın.
Nə qədər vicdansız olmuş olsan da,
O qədər nifrəti  sən yağdırmazdın.

Artıq dözülməzdi davranışların,
Yaşının  üstünə artıbdı yaşın.

Artıq vücudunda bir soyuqluq var,
İstilik qalmayıb soyuyub canın.

Nə edim yanasan, alovlanasan?
Qalanan ocaqlar, sönmək üzrədir.
Kicik bir közcükdən işartı qalıb,
Alışmaq istəmir, o halda deyil.

## GÜLLƏRİN QİSASI

Dünya budur gül-çiçək,
Qoxla sən, ürkək-ürkək.
Tikanlı ya tikansız,
Batacaq o ünvansız.
Qəşəng-qəşəng sancacaq,
Ətrindən qoxlanacaq.
Neçə qoca, neçə gənc,
Bihuş olub yatacaq.
Seyr edərək səmanı,
Ağ bulub damar-damar,
Yerdən göyə nur yağar.
Dərindən ah çəkərək,
Ürəklər dincələcək.
“Qanlı-qanlı” sükutu,
Kənardan izlənəcək.

## KEÇMƏSƏN BİLMƏZSƏN

Eniş yoxuşuna baxma zamanın,
Enişli yoxuşlu həyatdı dünya.
Qəlbimdən qəlbinə keçən yolları,
Keçməsən bilməzsən keçiddi dünya.
Səni bu dünyada sevmədim ki, mən,
Sevgi həyatımız deyildir röya.
Kim var bu sevgidə, sən-məndən başqa,
Sənlə keçirdiyim ömürdü dünya.
Başından dərdləri, at bilələkdən,
Yadına da salma, de güləərəkdən.
Allah verən ömür, de sevərəkdən,
Bu həyat mənimdi, sənindi dünya.
Məhəbbət həyatın bir hissəsidir,
Onu bizdən  başqa, deyəndi dünya?

## İTİRDİ..

İlk məhəbbət öz gücünü itirdi,
Xöşbəxtliyi bədbəxtliklə bitirdi,
İllər keçdi, yaddaşlardan silindi,
Daha bəsdi düşünmə sən, gəl bəri.

Qocalığın dayanıb astananda,
Yara qalıb qaysağının altında,
Toxunarsan, qoparar dırnağında,
Göstərir ki, daha bəsdi gəl bəri.

Bundan sonra keçən aylar, illərin,
Neyləyəcək yazsan sən son əsərin?

Neyləyim ki, açılıbdı səhərin,
Günlərin də az qalıbdı, gəl bəri.

Hər sətrində, hər dərdin bir əsəri,
Hər bəndində illərinin qəhəri,
Zamanında içdiklərin zəhəri,
Bir gün gələr qusacaqsan, gəl bəri.

Sevincini eşqin gəldi apardı,
Məhəbbətin yarpağını qopardı,
İlk sevgidən əsər belə qalmadı,
Ay insafsız tərpən görüm, gəl bəri.

Qəbir artıq qazılıbdı,  gözləyir,
Əzrayılın axşam-sabah izləyir,
Dərd səndədi, məni niyə gözləyir?
Gözləyirəm mən yolunu, gəl bəri,
Eşqimizin davamıdı, gəl bəri.

***2023***

## NƏSİHƏT

***(Dosta, övlada, rəfiqəyə)***

Sənsiz nə edərdim görən həyatda?
Sənə çox yaraşır, toy da, büsat da.
Azdırma özünü, sözdə inamda,
Arxalan doğmana, ata- anana.

Heç vaxt arxalanma hay- küy salana,
Arxalan dalınca daşlar atana.

Yetimlik böyük dərd, daşı satan yox,
Arxalan doğmana, ata-anana.

Dost da, rəfiqə də, müvəqqətidi,
Valideyn təzyiqi, mərddi, mətindi.
Verdiyi öyüdlər, inan qətidi,
Arxalan doğmana, ata- anana.

## NİYƏ KÖVRƏKSƏN ANA..

Niyə kövrək olub indi insanlar?
Ünsiyyət axtarır hər addım başı.
Sanki dərdlərini unutmaq üçün,
İnsaflı insanı çox arayırlar.
Sanki qorxurlar ki, unudacaqlar.

Bəlkə də elədir, bəlkə də səhvdi,
Düşüncəm aldatmaz məncə də məni.
İndi soyuyublar qohum, qardaşlar,
Özgəyə nə verib, nə alacaqlar?

Gün gələr bu günlər yaddan çıxacaq,
Gözəl bir həyatda yaşayacaqlar.
Övladlar böyüyüb ata ananın,
Adını tarixə yazdıracaqlar!

***2023***

## AXMA BAŞQA SƏMTƏ

Baxıram hər zaman pəncərənizə,
Gah işıqlı olur, gah da kı, zülmət.
İşıq keçirəndə qəlbim sıxılır,
İşığın yananda qəlb alovlanır.

Söndürmə qoy yansın hər zaman ki, tək,
Qəlb(lər) sıxılmasın məngənədəki tək.
Bəlkə mənim kimi izləyənin var,
"Quruyar zirvədə cücərmiş otlar".

Quruyar damarda təzə şaxələr,
Quruyar çəməndə çiçək, lalələr.
Quruyar ürəyin şah damarı da,
Ölər cavanlığın yaz, baharı da.

Bəlkə mənim təki izləyənin var,
Bunun sabahı var, biri günü var,
Bəlkə mənim təki bir sevənin var.
Qəm-kədərə batıb gözləri ağlar,
Bəlkə həsrət ilə gözləyənin var.

***2023***



# XEYİR VƏ ŞƏR

## MƏNZUM ŞEİR

Maqsudkəndli Səbuhi müharibəyə getdi, kimi evli, kimi nuşanlı, balasın qoydu getdi. Kimi xəbər eylədi, kimisi də gizlicə, cəbhə yoldaşlarına qoşuldu birgə getdi. Məhəbbətin dadını bilən də, bilməyən də, bir gün toyun eyləyib səhər cəbhəyə getdi. Gözləmədi çağrılsın vətən dardadı deyə, kimi həyat yoldaşın hamilə qoydu getdi. Gözü yolda analar, qulaqları səsdədi. Gecələri yatmayıb qəlbləri qəfəsdədir. Qəlbi narahatdı çox, dəfən-dəfən, çırpınır. Acı xəbər gələndə...

## GÖMÜLÜRÜK TORPAĞA

Daşlı-kəsəkli yolu,
istəməm kimsə keçsin.
Həmin acı şərbətin,
dadını kimsə bilsin.
Zəhər dolu bardağı,
bəh-bəh ilə içirik.
Xoş günlər də bundadı,
deyib başa çəkirik.

Bizə yazılan tale,
Allahdan bir incidir,
Xoş güzaran, xoş həyat,
qəlblərin sevincidir.
Qara qələm, ağ vərəq,
yaranıb cızılmağa.
Bel verib Allah bizə,
torpağı qazımağa.

Pis günlərin ömürü,
deyirlər ki, az olur.
Yaxşı günlər insanın,
ömrünü də uzadır.
Ömür verilib bizə,
yaxşı işlər görməyə,
Həmin gözəl həyatda,
gözəl həyat sürməyə.

İllər keçdikcə artıq,
Qocalırıq, soluruq.
Əlimizdən bir iş də,
gəlməyir, yoruluruq.
Heç nə edə bilmirik,
eyləyirlər qadağa.
Zaman gəlib çatanda,
gömülürük torpağa.

***2023***

## ACİZ OLSAN...?

Yavaş-yavaş illər ötür,
Günlər, aylar işin görür,
Anlar öz möhürün vurur.
Səndə də olsun bir təpər,
Özün qazan, pisdi məgər?
**Cahil**

Özün qazan, özün dolan,
Dolanacaq yerdə qalan,

Varlanacaq alıb satan.
Möhtac olmuş olsan əgər,
Özün qazan, pisdi məgər?
**Aqil**

İmkan olsa gör ehtiyat,
Etmə bir kimsəyə minnət,
Buyurub bizə şəriyyət.
“Quran” deyir olsun dəyər
Özün qazan, pisdi məgər?
**Cahil**

Neyləyirəm dost-tanışı,
Qoy kasıb sorsun qamışı.
Hər ay aldığı  maaşı,

Xırdalasın səhər-səhər,
Özün qazan, pisdi məgər?
**Aqil**

Elə həyat  sür ki, yaşat,
Həmişə eylə ehtiyat.,
Övlad olmasın narahat.
Sözündə olsun bir kəsər,
Özün qazan, pisdi məgər?
**Cahil**

Dədəm, babam mülkədardır,
Nəslimiz də xeyli vardır,
Yediyimiz yağdı-baldır.
Kasıb malın yemək dəyər,

Özün qazan, pisdi məgər?
**Aqil**

Nəsillərin yadigarı,
Övlad olub tacidarı,
Lazım deyil mülkədarı.
Kasıbların mərdindən ol,
Kimsə sənə, versin dəyər,
Özün qazan pisdi məgər?
**Cahil**

***2023***

## İNSANLARDAN UZAQ GƏZİR

Yiyəsini atan köpək,
Bir gün səni də atacaq.
Yediyi o yağlı əppək,
Səndən də şirin olacaq.

Kimə yemək verdiyini,
Dəqiqləşdir, çaşma heç vaxt.
Köpəyində yoxdusa bəxt,
Səndə də heç olmayacaq.

Şüurunda şübhən varsa,
Şüuruna sən göz gəzdir.
Bəzən şüursuz köpəklər,
İnsanlardan uzaq gəzir.

***2023***

## SABUTİLNİKLƏR

Arada görüşür yüz-yüz vururlar,
Hər yüzü vuranda üzə dururlar.
Ağıldan çıxmamış fikir bölürlər,
Mədəni sözlərlə bəzən söyürlər.

İki yüz olduqda dəyişir donu,
Keçirlər üç yüzə olmadan sonu.
Dostlar yada düşür, baş da fırlanır,
İçkini içdikçə çöl dumanlanır.

Dörd yüz yavaş-yavaş  süzüldükcə bax,
Rəngi də dəyişir, bayaq ki, tək şax.
Əyilir sütunu  səndirləyərək,
Tutmağa yer tapmır, yıxılır şaqraq...

Dost da əl uzadır, şaqqanaq çəkir,
Arada telefonla  şəklin çəkir.
Böyüklük yaxşıdı, saxlamır əyir,
Normasın bilməyən  əziyyət çəkir.

Əyilməz cüssələr birdən əyilir,
Ölçüsün bilməyən dal-dalı gəzir.
Alçalır evdə də, cəmiyyətdə də,
Ağzı söz tutmayır, çıxır söyüşə,
Qalmır arvad-uşaq, qalxır döyüşə.

Qəlbinin yanğısın, odun almasın,
Başını bəlaya  necə salmasın?
Axırda palislər tökülüb gəlir,
Dəmir barmaqlıqlar onu lap əyir.

Çıxmağa üzü yox,  deməyə sözü,
Qəlbi qırılaraq  söndürür közü.
Bir daha çıxmayır, elin içinə,
Yaşayır hörmətlə  özü özünə.

Bağlanır yenidən  işi, gücünə,
Bir daha düşməyir İçki gölünə.
Övladlar başına fırfıra kimi,
Fırlanır daima  bir ata kimi.

***2023***

## ÖPÜŞMƏ

***(Nəsihət)***

Hər yetənlə öpüşmə sən, qadası,
İnan mənə, pis olacaq sonrası.
Dərdə dərman istəsələr verən yox,
Möhtac oldun, verməyəcək parasın.

Məram arar səni müflisləşəsən,
Möhtac olub dərdini bölüşəsən.
Sirr dağarı deyilən bir boxça var,
O boxçanı sən də açıb tökəsən.

Vaxt gələcək mövqeyi yüksələcək,
Sənlə onun arası da dəyəcək.
Onda açıb sandığının pambığın,
Dəskar edib səndən üz döndərəcək.

Elədiyin yaxşılıqlar bir qəpik,
Axırda da vuracaq sənə təpik.
Unutma ki, dost arxasın dost vurar,
Sonra baxıb çalacaq sənə çəpik.

***2023***

## BAYATILAR

Aşiqəm,  kimə deyim ,
Dərdimi kimə deyim..?
Mənə qulaq verən yox,
Harada, kimə deyim..?

Aşiqəm, mən özünə,
Dilinə,  həm özünə.
Deyilən  alqışları,
Söyləyəcəm özünə.

Aşiqəm, sözə bəndəm,
Bir gözəl qıza  bəndəm.
İçimdə yanır qəlbim,
Bir şirin  sözə bəndəm.

Aşiqəm  dağlarına,
Dağdakı qarlarına.
Əriyib suya dönsə,
Axacaq bağlarına.

Aşiqəm sözlərinə,
O qara gözlərinə.

Dərdi dərdlə ağlaram,
Dözəmməz sözlərimə.

Aşiqəm səhərinə,
Olduğun şəhərinə.
Gözəllər burdan keçir,
Demirəm qəhərim nə.

Aşiqəm, bala bəndəm,
Şan(ı)dakı bala bəndəm.
Arının ayağına,
Sarılan bala bəndəm.

Aşiqəm gözlərinə,
Baxan göy gözlərinə.
Gözünü yumub açma,
Çop düşər gözlərinə.

Aşiqəm ala gözə,
Dözmürəm ala gözə.
O baxışın, duruşun,
Salıbdı oda-gözə.

Aşiqəm həyatına,
Baxımlı həyatına.
Uzaqda durma gözəl,
Mən girim həyatına.

Aşiqəm dövlətinə,
Bolluca sərvətinə.
Ondan mənə nə çatır?
Qovuşum sərvətinə.

Aşiqəm o, gedənə,
Sevirəm söyləyənə.
Dərdini yükləyərəm,
Məni ondan edənə.

Aşiqəm yanan gözə,
Nə deyim yanan gözə?
Gözündən od ələnir,
Salıbdı oda-közə..

Aşiqəm axsaq ata,
Nal vuraq axsaq ata.
O qədər narahatam,
Mıx batmır sarsaq ata.

Aşiqəm gəl cüt gəzək,
Nə olar, gəl cüt gəzək?!
Ayrı-ayrı dolansaq,
“Qurd” basacaq, cüt gəzək.

Aşiqəm əndamına,
Toxunma əndmına.
Peşmançılıq çəkərsən,
Toxunsam əndamına..

## BAYATILAR

Bu dünya bir pəncərə,
Biz də gəlib gedəni.
Allah xəta bəladan,
Qorusun səni, məni.

Dünya malı olandı,
Yolçu getdi, qalandı.
Bircə sevgi, məhəbbət,
Ürəklərdə qalandı.

Dərdi qovlaya bilsən,
Qəlbi ovlaya bilsən.
Sənə heç zaval yoxdur,
Kimliyin duya bilsən.

Düşmən həmin düşməndi,
Kətmən həmin kətməndi.
Elə qazıyıb at ki,
Yaxşılıq bilməyəndi.

Batanı ay batanı,
Kol dibində yatanı.
Qoyub getmə heç zaman,
Bataqlıqda “batanı”.

Dünyanı keçib gəldim,
Hər şeyi seçib gəldim.
Məni sevən cananı,
Nədənsə, atıb gəldim!?

Dərdini de qanana,
Sənə qəlbi yanana.
Qanmaza qandırma sən,
Söylə yalnız qanana.

## HEÇ VAXT..

***(nəsihət)***

Vəsi yüngüllükdü, deyib atalar,
Etməsəm, narahat olar balalar,
Əzab-əziyyəti çəkir analar,
Dünya məhvərindən çıxmasın heç vaxt.

Deyilməli sözlər artıq bitibdir,
Yaşa da dolmuşuq, ömür kedibdir,
Ələ heç nə keçmir, zaman ötübdür,
Dinləmə vecsizin sözünü heç vaxt.

Dilə Allahından və ruzuna çat,
Nə qoysan qaşığa hər gün xatırlat,
Əlhəmdü söyləyib, sonra uzan yat.
Sözlə düşüncən də, birdirsə əgər,
Valideyn sözünü, göyərtmə heç vaxt.

Gəl-gəl söyləyənlər həyatda çoxdur,
Amma çörəyini..gör.. verən yoxdur,
Ehtiyat ruzusun, qoruyan çoxdur,
Əlindən malını çıxarma heç vaxt.

## BAĞIŞLANMAQÇIN

***(qəmli)***

“Yuxuda görürəm əzizlərimi”,
“Ürəyim acıdı, doğmalarımçın”.
«Anadı, atadı, əmi, bibimdi”,
“Açıram qolları qucaqlamaqçın”.

Əmini görmədim, döyüşdə batdı,
Bibim əfsanəydi, çox şey yaratdı.
Atam döyüşlərdən xəstə qayıtdı,
Anam tək böyütdü, qorumaq üçün.

Hərə bir cür həyatında qoşadı,
Hərə bir cür dünyasında paşadı,
Hərə bir cür əzab çəkdi, yaşadı,
Nəslini həyatda qorumaq üçün.

Bir gün anamız da bizi tərk etdi,
Gözü yolda qaldı, həsrətli getdi,
Doyunca dadmadıq, şirinliyini,
Bu gün övladlara anlatmaq üçün.

Ünvana çatmayır, yaxınlaşsam da,
Qolum boşa gedir, qucaqlasam da,
Qollarım sustalıb, cavan olsam da,
Yazıram tarixdə, bağışlanmaqçın.

***2023***

## DƏRD GÖRMƏSİN

Nə varım var, nə dövlətim,
Bir  ailəm, övladlarım.
Allahdan bir arzum budur,
Qorusun şah balalarım.

Nəvələrim tutsun mövqe,
Kasıb vurunmaz tək tale.
Bir qarın çörəyim olsun,
Möhtac olmayım bax belə.

Allahın nəzəri olsun,
Üstümüzdən yel əsməsin.
Dərdləri külək aparsın,
Bu canımız dərd görməsin

***2023***

## GÜVƏNMƏ

Varına güvənib qolun zorlama,
Başını dağıdar yumruq, zırrama.
Elə bir zamanla rastlaşmısan ki,
Yaxşı düşün, münasibət korlama.

Üzə çıxaracaq elədiklərin,
Nifrət yağdıracaq, evdəkilərin.
Başını soxmağa yer axtaranda,
Peşiman edəcək eşitdiklərin.

Gördüyün bu dünya həmin dünyadı,
Yatıb gördüklərin həmin röyadı.
Təkcə dəyişilən varsa simadı,
Sən gəl, pərt eyləmə o sevdiklərin

Hayandan baxsan da yeniliyi yox,
Sevincin azalır, dərdlərin də çox.
Qəlbində niskil çox, dəyişilən yox,
"Ağıl dəryasısan", pərt edər səni.

***2023***

## ƏMİNAMANLIQDA GÖRƏK

Allah, bu dünyanı bərqərar eylə,
Qalmasın millətlər çar-naçar bu gün.
Sabahı düşünüb bir qərar ver sən,
Həyat keşmə-keşlə doludur bu gün.

İnsanlar qərarda çox gecikdilər,
Alimlər həllinə qərar vermirlər.
Təbiət bezibdi topdan, tüfəngdən,
Çoxdu öz canını intihar edən.

Bütün dövlətlərin müsəlmanları,
İslama sığınıb imdad edirlər.
Xaçpərəst bezibdir əməllərindən,
İslam dinimizə bax sığınırlar.

Məscidlər tikilir bütün dünyada,
Kilsəyə gedənlər çox azalıbdır.

Məscidə sığmayan müsəlmanları,
Bəzi xaçpərəstlər çox qınayırlar.

İndi məqamıdı razılaşıblar,
Məscidlər davamlı tikiləcəkdir.
Rusların içkiyə və narkotikə,
Nifrəti artıbdır, tərgidəcəklər.

İslama qayıdış istəyir onlar,
Məsciddə oxunsun, desin dualar.
Hörmət, ədəb-ərkan təbliğ  edilsin,
Bütün möminlər də hər an sevinsin.

Açılsın çiçəklər, gülsün ürəklər,
Dayansın dünyada  müharibələr.
Gülsün körpələrin gülər üzləri,
Əminəmanlıqda görək hər kəsi.

***2023***

## NƏ DEYƏSƏN ?

Haqqı, ədaləti qoyub bir yana,
Haqsızın yolunu tutmuşuq bu gün.
Haqlı vücudunu qoyub ortaya,
Haqsız varlığına güvənir bu gün.

İndi nə ağıla ehtiyac yoxdu,
Nə savad lazımdı, nə də ki təhsil.
Bu gün varın yoxsa, ortaya çıxma,
Bircə gözəlliyin bəs edər səfil.

Gücünü göstərmə, qoy bilməsinlər,
Dərdi də bildirmə zəif gülsünlər.
Yaltaq ol, satqın ol, ortalıqda ol,
Vecsiz bur insan ol, səni görsünlər.

***2023***

## NƏ EDİM..?

--Nədi, niyə sən beləsən?
Sanki tamam dəyişmisən.
--"Toxam bu gün, toxdu dünya",
"Ac günümdə acdı dünya".
--Hiss olunur, davranışın,
O şirin-şirin baxışın.
Daxilindən dəyişmisən,
Sanki bu gün tam fərqlisən.
--Yaralıyam, yaraladı,
"Dünya  məndən güc alırdı",
Saf qəlbimi paraladı!
--Sordum ki, sən çəkişmisən?
Dedi:- yox-yox, nə deyirsən?!
O qəlbimdən yol salmışdı,
Arzularla can almışdı.
Baxışıyla, duruşuyla,
Məni o, əfsunlamışdı.
Ümüdlərim puça çıxdı,
Arzularım yoxa çıxdı.
Sevincimi və sevgimi,
Alıb məndən aparmışdı.
İndi də qayıdıb gəlib,

Ürəyimi dəlib gəlib.
Başqasının ocağında,
Həyatını qoyub gəlib.
Onu necə bağışlayım?
Əməliylə alqışlayım?!
Nə mən qovlaya bilirəm,
Nə atıb, tuta bilirəm.
Qəlbim sınıb, yaralıyam,
Bu dağların maralıyam.
Ceyranımı aldatdılar?
Bu sinəmdən qopartdılar,
Yarpaq kimi saraltdılar.
Bir lazımsız əşya kimi,
Süpürərək tulladılar.
Qəbul etmir bu ürəyim,
İndi bilmirəm nə edim...?!

***2023***

## ATMARAM !!!

Bu gün yazdığımı poza bilmərəm,
Yaxşını yamana yoza bilmərəm,
Atıb hər şeyimi gedə bilmərəm.
Vətən miras qalıb əjdadımızdan,
Bir addım atmaram torpağımızdan!

Dediyim sözlərin yiyəsiyəm mən,
Etdiyim əməlin kölgəsiyəm mən,
Çıxaram gəzməyə vətənimdə mən.
Vətən miras qalıb əjdadımızdan,
Bur addım atmaram torpağımızdan!

Atmaram heç zaman elim- obamı,
Atmaram heç zaman əbəjdadımı.
Körpə balaları, qazilərimi,
Sərhəddə vuruşan əsgərlərimi.
Vətən miras qalıb əjdadımızdan,
Bir addım atmaram torpağımızdan!

***2023***

## XEYRİYYƏÇİ ZEYNALABDİN TAĞIYEVA

Zeynalabdinin dünyaya qədəmi,
Vətənə, millətə yardımçı oldu.
Layiqli ömrüylə, əməlləriylə,
Xalqa xeyriyyəçi bir insan oldu.

Gözündə olmadı yığdığı sərvət,
Əl tutub hər kəsə köməkçi oldu.
Ehtiyac duyduğu insanlara da,
Zamanla təhsildə bir dayaq oldu.

Xalqının dilindən adı düşməyir,
Gül-çiçək səpilir sinəsi üstə.
Gecələri qəbri Nura boyanır.
Gətrilir əklillər məzarı üstə.

## KEÇMİŞİ UNUTAMAM..

Getdi gənclik çağlarım,
Cavan olmam birdə mən.
Arzuların puç oldu,
Keçmişi unutamam.

Nə açıb söyləyirəm,
Nə gizlədə bilirəm.
Bircə onu bilirəm,
Keçmişi unutamam.

O qarlı, yağışlı gün,
Ayazlı, şaxtalı gün.
Əynim yalın, ay atam,
Keçmişi unutamam.

Rastıma gəldiyin gün,
Dadıma çatdığın gün.
Saçım ağarıb tamam,
Keçmişi unutamam.

Heyif deyil cavanlıq,
Yemək də, yox yavanlıq.
Ağır olmayıb zaman,
Keçmişi unutamam.

İndi hər şey yolunda,
Sevgilin qoltuğunda,
Balaların yanında.

Amma dəyişib zaman,
Keçmişi unutamam.

***2 may 2023***

## A DÜNYA

Mən elə bildim ki, dağıldı dünya,
Gördüyüm yuxudu, yoxsa ki, röya?
Üzüb keçmək olmur, qarşımda dərya,
Mən necə unudum, səni a dünya?

Sən elə bilirsən hər şey asandı,
Kim nə deyirdisə, hamı yalandı?
Könlüm parça-parça olub talandı,
Mən necə unudum, səni a dünya?

Qəlbim bir bütövdü, deyildir yarım,
Dünya bir yanadı, sən isə yarım,
Sən mənim qeyrətim, şöhrətim, şanım,
Mən necə unudum, səni a dünya?

***2023***

## ƏL-AYAQDA DOLAŞIR

Mövzu yaman çoxalıb,
Fikirlər başdan aşır.
Həyat elə qəlizdi,
Arzular da çaxnaşır.
Müharibə sorağı,
Sərhədləri dolaşır.
Düşüncələr bir deyil,

Beyinlərdə dolaşır.
Gündə bir şəhid gəlir,
Ata, qardaş çallaşır.
Analar dözə bilmir,
Göz yaşı aşır-daşır.
Qələbə gözləyirik,
Ara-bərə qarışır.
Bu qədər şəhid olmaz,
Günəgün ağırlaşır.
Pənahımız Allahdır,
Ordumuz da, vuruşur.
Xankəndidə düşmənlər,
Əl-ayaqda dolaşır.
Məhv olsun düşmənimiz!
Doğmadı vətənimiz!
Azərbaycan ürəkdi,
Qarabağsa canımız!

***12-04-2023***

## CANAVARIMIZSIZ

Döyün-döyün sinənizə,
"Müsəlmana düşmənik biz".
Biz sizdən daha qüvvətli,
Siz ki gücsüz ermənisiz.

Oğullar var ordumuzda,
Biri yüzünüzə bəsdir.
Vətənimin torpağından,
Əlinizi üzün, bəsdir.

Dəyəri sizdən dəyərli,
Gücü qüvvəti, tükənməz.
Dursanız da qol bükməyə,
Heç birini bükə bilməz.

Çiyninizdə başınız var,
Düşünən varsa düşünsün.
Ordumuzun əsgərini,
Görən varsa çox çəkinsin.

Qarabağı almışıq biz,
Xankəndiyçün vuruşuruq.
Xocalı böyük dərd bizə,
Siyasətlə çalışırıq.

Sürüş, yavaş get buradan,
Dərd deyil ki, qəlbiniz yox,
İçinizdə olan orqan,
Ürək deyil, vallah  o yox.

Əsirsiz yeldə yarpaqtək,
Qorxaq, ürkək bir vücudsuz,
Qol-qanad qoymarıq sizdə,
Qarşımıza çıxmayasız.

Yaşa, Azərbaycan əskər(i) !
Necə varsız olacaqsız.
Şərəfsiz etməni-rusu,
Torpaqlardan qovacaqsız.

Şərəfimiz, şanımızsız,
İgid qəhrəmanımızsız.
Azərbaycan sərhəddində,
Danılmaz bir ordumuzsuz.

## BİR ZAMANI VAR

İstəklər, arzular bitib tükənməz,
Hər arzu etdiyin məqamda yetməz,
Arzu olunmazlar səni tərk etməz,
Onların getməyə bir zamanı var.

Qəlbindən keçənlər hər vaxt önəlməz,
Ağacı əkərsən, anında bitməz,
Hər meyvə dərdinə dəva da etməz,
Meyvənin yetişən bir  zamanı var.

Həkim xəstəni müayinə edir,
Xəstə dərmanları alır və gedir,
Dərdinə bir çarə dərman etməyir,
Xəstənin sağalan bir zamanı var.

Bir işi görəndə heç vaxt tələsmə,
Sənə yol versələr tələsib keçmə,
Zalımlıq edərlər, əvəz eyləmə,
Onun cavabının bir zamanı var.

***2023***

## ZİNƏTİSƏN

Umüd verən gözlərini,
Unutmaram heç bir zaman.
Sərvi boylum, saf sevgini,
Gözləmişəm hər bir zaman.

Unutmaram tarix boyu,
Mənə edən insanlığı.
Bir vaxt mənə bağışlanan,
O dəyərli boyunbağı.

Nə günəşsən, nə də aysan,
Alışaraq sən yanırsan.
İşartısı qəlbimdədi,
Gözlərimdə parlayırsan.

Sevgi gözəl bir məvhumdu,
Sən də onun aşiqisən.
Sinələrdə parıldayan,
Zər-zibası, zinətisən.

## FƏDAKAR QADIN

Yaranışımızdan təpik döyürük,
Elə pis ağrıyır ayaqlarımız.
Səhərdən axşama ayaq üstdəyik,
Daha davam etmir şah damarımız.

Qadının hər şeyə dözümü çoxdur,
Ən ağır yükləri daşıyar, aydın.

Allah əzaların möhkəm eyləyib,
Anadır, vücudu gözəldi,  qadın.

Gözəldi hər işi, zövqlü geyimi,
Əlindən gəlməyən işi yox onun.
Həkimdi, müəllim, bir  idmançıdır,
Atmaz, dar günündə qoruyar qadın.

Özün oda atar, heç nədən qorxmaz,
Yanğınsöndürəndi, hərbçidi  qadın.
Qəhrəman, fədakar övlad böyüdər,
Qızdırar günəştək, əzizlər qadın.

***2023***

## LAYLAY DEYİRDİ

Töküldü başıma dünyanın qəmi,
Elə bil sevincim, yox olub getdi.
Yaylığı isladan, o göz yaşlarım,
Günəş şüasında, quruyub getdi.

Qaldırıb lövbərin, gəmi astaca,
Uğultulu səslə, yırğalanaraq.
Tutub haqq yolunu, ləpələr üstə,
Zəhmli görkəm ilə aralanaraq.

Gəmi uzaqlaşır, sevincim isə,
Sanki bu dünyadan, təcrid olurdu.
Yadıma düşsə də, geri dönməyən,
Uşaqlıq çağlarım, bax yox olurdu.

Rahatca kayutda uyuyanlara,
Elə bil beşikdi, laylay deyirdi.
Cananı, uyuyan sevgilisi də,
Burdayam gözəl yar, yat söyləyirdi.

***2020***

## ÇOXDURMU..

***(müasir tapmaca)***

Çoxdurmu dünyada ağıllı, nadan?
Çoxdurmu dünyada, ağılsız insan?
Çoxdurmu dünyada ağı, qaradan?
Əgər bilirsənsə söylə ucadan.

Çoxdurmu halalla çörək qazanan?
Çoxdurmu haramlar, say doğru yazan?
Çoxdurmu balanı anadan alan?
Əgər bilirsənsə söylə ucadan.

Çoxdurmu vətəni küsərək atan?
Çoxdurmu milləti yadlara satan?
Çoxdurmu qonşudan qonşuya qaçan?
Əgər bilirsənsə söylə ucadan.

Çoxdurmu uzadıb əlini çəkən?
Çoxdurmu çörəyə möhtac eyləyən?
Çoxdurmu dediyi yalanı danan?
Əgər bilirsənsə söylə ucadan.

Çoxdurmu çağıran, sonra da qaçan?
Çoxdurmu həyatda dostuna atan?

Çoxdurmu soyuqda torpaqda yatan?
Əgər bilirsənsə söylə ucadan.

Çoxdurmu yaralı, şəhid ay anam?
Çoxdurmu ağlayan, gizli sısqanan?
Çoxdurmu acından gözün yummayan?
Əgər bilirsənsə söylə ucadan.

Tapmaca söylədim, açılsın bəndlər,
Abadlaşsın obalar, şəhər-kəndlər,
Suya möhtac olan o susuz çöllər,
Əgər bilirsənsə söylə ucadan.

## NƏ EDİM?

Mənə dayaq olub nələr edərsən?
Arzular yollara səpələnibdir.
Qəmli günlərim də azalmır, neynim?
Cücərib göz yaşım təzələnibdir.

Qocalıq dayanıb astanamızda,
Sevinc yoxa çıxıb, xəstələnibdir.
Bilmirəm, həyat da çox qəlizləşib,
Qəm də sevincimdən bəhrələnibdir.

***2023***

## GÜLDÜRMƏ SƏN, GÜLMƏYƏNİ..

Azərbaycan, qara geymə,
Düşmənlərə aman vermə.
Sevindirmə sevməyəni,
Sevindir səni sevəni,
Güldürmə sən, gülməyəni.

Ağrıt ürəyinin başın,
Sal başına tale daşın,
Qoyma oynada göz qaşın.
Düşmən söyləməz dərdini,
Güldürmə sən, gülməyəni.

Əzab verən əzab çəkər,
Toxum səpən məhsul görər,
Hamı mən doğruyam deyər.
Boynuna almaz səhvini,
Güldürmə sən, gülməyəni.

***2023 Bədahətən***

## UCALIQ İNSANIN BAXIŞINDADIR..

Sən başqa insansan, bərabərin yox,
Mən başqa insanam, tərəfgirim yox,
Sinəmə döymürəm, xəstəliyim yox,
Ucalıq insanın baxışındadır.

Elə dağlar var ki, ucadan uca,
Elə təpələr var, dağlardan qoca,
Qoca alimlər var, təhsilli, xoca,
Ucalıq insanın baxışındadır.

Sinəni irəli qabartmaq deyil,
Başının saçını ağartmaq deyil,
Mənəm mənəmlik də, ucalmaq deyil,
Ucalıq insanın baxışındadır..

***2023***

## QƏLBİMDƏ BİR YARASAN..

Saz gətirin, elimizi haylayaq,
Layla deyib ürəkləri dağlayaq,
Qəm dəryasın musiqiylə adlayaq.
Səsin gəlsin, söylə görüm, hardasan?
Azərbaycan, qəlbimdə bir yarasan.

Yaylıq alıb dərdlərinə ağlayaq,
Ana-bacı hər halını odlayaq,
Yetim-yesir qalıb, çöldə saxlayaq.
Səsin-sədan gəlsin sənin, hardasan?
Azərbaycan, qəlbimdə bir yarasan.

Qələbənin işartısı göründü,
Şəhidlərin bir-bir evinə döndü,
Qəhrəmanın işığı evdə söndü.
Qələbəmiz uzaqdasan, hardasan?
Azərbaycan, qəlbimdə bir yarasan.

İgidlərin səpələnib dağlara,
Od vurulub əkinlərə, bağlara.
Şır-şır axan bulaqlara, çaylara,
Zəhər qatır suyumuza, çay(ı)mıza.

Düşmən oyaq, sən sayıq ol, hardasan?
Azərbaycan, qəlbimdə bir yarasan.

***2023***

## BULAQ SUYU

Xan bulaqdan axan suyun,
dadından doya bilməzsən.
Göz yaşıtək, dumdurudur,
suyu görsən, sən getməzsən.

Axar, gedər bulaq suyu,
İçərəmsə, heç doymaram.
Qayışını möhkəm bağla,
sıx belini, qadan allam.

İç, qoluna gəlsin qüvvət,
harda vardır belə nemət?
Sür maşını, qaldır sür’ət,
kimdə olar belə cür’ət?

İgidləri boy-buxunlu,
saymaq olmur, gül qoxulu.
Elə bil ki, bir qayadır,
Lay divardır, yeməz haram,
Kölgəsində dayanaram.

Dağlar keçibdir kəməndə,
nəfəs qalmadı ta məndə.
Ruhu səndə, gah da məndə,
təb gəldimi, sən bax onda?!

# NOVRUZUMUZ MÜBARƏK

Gülüşün qəlblərə bir işıq saçsın,
Ürəklər döyünsün sənin eşqinlə.
Həyatın ən acı xatirələri,
Unutdulsun sənin o gülüşünlə.

Bahar gəlsin vətənimə, elimə,
Xoş günlər paylasın saf millətimə.
Qız-gəlinin əlləri göyə qaxsın,
Novruzumuz bəzək versin telinə.

Müharibə alovu görünməsin,
Şəhid gəlir, bir daha eşitməsin.
Qız-gəlinlər qara ləçək bağlayıb,
Vətənimdə ah-nalə eşitməsin.

Bahar qızı qaldırsın əllərini,
Çiçəklərə  qərq eləsin elini.
Qoxulasın şəhidlərin anası,
Qopalmasın onun bir də yarası.

Qazilərin, oğulların taleyi,
Qoy gül açsın sevgilinin yanında.
Əl  qolunu qaldıraraq oynasın,
Allah versin düşmənimin bəlasın.

## MƏNİ DƏ DÜŞÜNƏRSƏN

Kitab kimi qəlbimi vərəqləsən,
Sətirlərdə, çox şeyə rast gələrsən.
Bir vərəqin iki üzün görəndə,
Oxuduqca, sən özünə gələrsən!
Onda yəqin... məni də düşünərsən..?!

Oxunmamış, hələ çox şeirim var,
Yazılmamış, gizli məqamlarım var.
Şeirlərin hərəsi bir taledən,
Oxuduqca, onları izləyərsən,
Onda yəqin... məni də düşünərsən...?!

Tövsiyyəmdi, özünə sən yaxşı bax...!
Arada bir düşüncəni, ara, bax.
İstəmirəm, sınıxıb üzüləsən,
Fikirləri tarazla sən,sazla sən,
Onda yəqin... məni də düşünərsən...?!

Həyat fani, ömür ani üzülməz,
Hər anlar da, zivələrə düzülməz,
İnan mənə hər ehtiyac çözülməz.
At daşları ətəyindən, ayıl sən...!
Onda  yəqin... məni də düşünərsən...?!
Onda yəqin ....məni də düşünərsən...?!

***23-03-2019***

## HALAL

Həyat bir pəncərədir,
Biz də gəlib gedəni.
Tanrı baxıb görəndi,
Hələm-qələm edəni.
Yollarını azana,
Qadağa edib Allah.
Özgə ruzu yeyənin,
Yolunu kəsib Allah.
Haqq dərgahı, kisəsin,
Açıb halal olana.
Heç vaxt imkan verməyib,
Haqq yolunda yalana.
Başını aşağı sal,
Ruzini qazan halal,
Halala qarışmasın,
Yediyin o haram mal.

## YARADANA QURBANAM

Seçilmir ağ qaradan,
Ölən gedir dünyadan,
Sağ qalan da, sıradan.
Dünya özün itirib,
Bilmir, kimdi dağıdan?

Dağılıb ailəsi,
Qəflətdən zəlzələsi,
Malı, mülkü, hər kəsi.

Səsi çıxan, sağ qalan,
Çıxarır  dağıntıdan.

Dağları dərd əridər,
Qoç oğlu qoçdu deyər,
Şikəstə qəlb əridər.
Orda görən kim qaldı,
Gör nə çəkir axtaran?

Elin dörd tələbəsi,
Ata-ana naləsi,
Qardaşın vəsvəsəsi.
Ellər lərzəyə gəldi,
Getdi eldən, obadan!

Hamı köməyə gəlir,
Hay da sökməyə gəlir,
Haramı cib dağıdır.
Qandallanıb ad qoydu,
Dərsin verdi Yaradan!

Türkün öz Allahı var,
Nər kimi ordusu var,
Tanrısı var,qəlbi var.
Azərbaycan dəstəkdi,
Qurtaracaq bəladan!

***2023***

## XƏBƏRSİZ

Dilini dinc saxla, qəlbini təmiz,
Yaxşılıq eylə ki, qoy qalsın bir iz,
Pislik eləməyə həyatda nə var,
Bacarırsan yaxşılıq et, xəbərsiz.

Təməli elə qoy, qəlbə toxunma,
Yaralı ürəyi çalış sındırma.
Əlini sinənə qoyduğun zaman,
Alışıb yanmasın sinən də o an.

Yaralıdı hər yer, ana qəlbi  tək,
Aralıdı ürəklər, qaşla göz tək.
Dünya parçalanıb neçə min yerə,
Vətən dərdə düşüb gör neçə  kərə?

Qalibiyyət hər an bizim tərəfdə,
Ədalət görmədik heç bir ölkədə.
Sınağa çəkildik, “yanan” Quranla,
Qənimi olacaq böyük Turanla!

***2023***

## DÜYÜN

Yenidən sevsəm səni,
Yenə sevərsən məni?
Dərdimə şərik olub,
Çölə atmazsan məni?

Bax dünənki gününə,
Bu gün düşən düyünə.
Sabah nələr olacaq,
Sual verdin özünə?

Ağlasan, sısqasan da,
Bağlı düyün açsan da.
Qapıları  döymə sən,
Məndən uzaq qaçsan da.

## BİR AZ DUYUQSAN

İki gözün mayaktək işıq saçır,
İşıltıdan milçək, cücülər qaçır.
Güvənmə sən özünə, əməlinə,
Uduzarsan, çox getmə sən dərinə.

Ayaqların güclə çatır dadına,
Əməllərin yaraşmayır adına.
Sanksiyalar qoyularsa malına,
Uduzarsan, çox getmə sən dərinə.

Yığışdırıb mal-dövləti qoyubsan,
Onun sevincinə yaman uyubsan,

İki əlin donubdu soyuyubsan.
Barı başın işlət, bir az  duyuq ol.
Uduzarsan çox getmə sən dərinə.

***2023***

## OĞUL...

***(nəvəmə nəsihət)***

Həyat məngənəsi səni sıxmasın,
Ancaq  öz gücünə arxalan, oğul.
Yığma dərdi-səri, sən səbirli ol,
İş açma başına, bəladı oğul.

İnsanlarla ünsiyyətdə ayıq ol,
Qəlbini açanda, bir az sayıq ol.
Düzgün danışmayıb, əyri yozarsa,
Sən onun içində düzü gör, oğul.

Sən mənin canımsan, şah damarımsan,
Həmin damarımda, axan qanımsan.
Həyat keşmə-keşdi, gözlərini aç,
Axtarma səhvləri, özgədə oğul..

İnsafsız insanla, insafla davran,
Zalımla, zalımlıq eyləmə, oğul.
Libassıza libas, əsməsin əlin,
Evsizə daxma ver, çöldə qalmasın,
Zalımın məkrinə, uyma sən, oğul.

***2021***

## BACIM HARDA GÖRÜŞƏK BİR...?

***(Şövkət xanım  Xanməmmədovaya ithaf olunur.)***

Günü günə verə bada,
Sonda yadlar düşür yada,
Bizdən uşaq, o qan-qada,
Bacım harda görüşək bir?

Nəvələrimlə qalıram,
Səni mən yada salıram,
Düşünəndə xoşlanıram,
Bacım harda görüşək bir?
.
Dünya fani bir dünyadı,
Düşüncələr də röyadı,
Həyat yolun, nə boydadı,
Bacım harda görüşək bir?

Axtardım, aradım səni,
Danışdın, kövrəltdin məni,
Yaxşı-pis köklədin məni,
Bacım harda görüşək bir?

Qardaş itkisi sarsıtdı,
Cənnətini o, qazandı.
Bir-bir(i)mizə olaq dayaq,
Gəl, kədəri biz unudaq,
Bacım harda görüşək bir?

## LALƏM

***(Lalәmә bәdahәtәn)***

Gözəl siman,  nurlu üzün,
Cəlb eyləyir sevənləri.
Şirin dilin, bal sözlərin,
Heyran edir gözəlləri.

Ürəklərə yol tapmısan,
O mehriban baxışınla.
Dərdlərinə bir dərmansan,
Oturuşun, duruşunla.

## AXI GÖYCƏKSƏN...?

Hərə bir maşını qoyub altına,
"Bağdadda kor Xəl(İ)fə, burda mən" deyir.
Gözünə xoş gələn incə mələyə,
Sən, sən olsan da bil, mən də, mən deyir.

Çəkmə sən yaxanı, o əlimdədi,
Dartınsan parası əlimdə qalar.
Axı sən  incəsən, müqavimətin,
Güc etsən sonunda dartışmaq olar.

Qəlbimdə arzular çiçək açmışdır,
Sən bir açılmamış gülsən, çiçəksən.
Tərsliyin arzuya nə dəlaləti,
Sevmişəm mən səni, axı göyçəksən...?

## OXU "BÜLBÜL"

Sən həyatım,  səadətim,
Dünyamsan, balım, pətəyim.
Şirindir avazın, səsin,
Axtarır gözlərim səni,
Oxu, ciyərparam mənim.

Arzuların əlçim- əlçim,
Seçilibdir biçim-biçim.
Gözləyimmi, durum, keçim?
İzləyir gözlərim səni,
Oxu, ciyərparam mənim.

Budur gəldi bahar fəslim,
Qızınıbdı qar nəfəsim,
Həsrət də sıxır ürəyim.
Arayır gözlərim səni,
Oxu, ciyərparam mənim.

Oyanıb bülbül səsinə,
Avazına, nəfəsinə.
Bənzəri var "Xan" səsinə.
Qulağım dinləyər səni,
Oxu, ciyərparam mənim.

Dünya dağılmış olsa da,
Ağacda yarpaq solsa da,
Budağım dibdən qopsa da.
İzləyəcək gözüm səni,
Oxu, ciyərparam mənim.

Ürəyə mən olsam qənim,
Param-parça olsa qəlbim,
Ağzımda qurusa dilim.
Nəfəsim birdən kəssə də,
Sonacan  dinlərəm səni,
Oxu, ciyərparam mənim

***25-04-2019***

## TANRIM MƏNİ  UNUTMA

Bu nə idi bilmədim,
ayaqlarım tutuldu.
Əsdi bütün vücudum,
boğazım da qurudu.

Soyuq bir tər də gəldi,
qəlbimi də titrətdi
Fikirlərim yönəldi,
arzularım puç oldu.

Vidalaşma zamanı,
mən sözümü bitirdim.
Tərpənmədi qolum da,
mən özümü itirdim.

Yumuldu gözlərim də
bir kimsəni görmədim,
Mən səni unutmadım,
Tanrım məni unutma.

## QARDAŞ

Qatma siyasəti yeməyə, qardaş,
Soyuqdu havalar, yağacaq qar, daş.
Nemətin çörəkdi, süfrədə bozbaş,
Yedikcə yeyirsən, nuş olsun, qardaş.

Kasıbı unutma, gözü yaşlıdı,
Anan da, bacın da, qələm qaşlıdı.
Süni gözəlliyə aldanma heç vaxt,
Səni aldatmasın baxışlar, qardaş.

Şümalsan, gözəlsən, seçilmişlərdən,
Qara ol, eybəcər, sevilənlərdən,
Varına dövlətə uyaraq gələn,
Sabah açıb qapı gedəndi, qardaş.

Bu gün sağ-salamat gəzirsən eldə,
Yeməyin, içməyin boldu süfrədə,
Səhər ola bilər qalmaz bir dən də.
Açılıb başından gedəndi, qardaş,
Varıma, malına, uyandı, qardaş.

## SİYASƏT VƏ DİN

Bu nə həyat, bu nə qədər?
Dağılıb, qalmayıb əsər.
Millət batıb dizə qədər,
Əlac edən yoxdur məgər?

Siyasəti qatıb dinə,
Yeridirlər kor-kopanə.
Oğul-uşaq itib başı,
Rüşvətdi hər şeyin başı.

Gözü üstə olan qaşı,
Hər vəch  ilə dağıdırlar.,
Siyasətlə quranları,
Din əliylə qoruyurlar.

Nə həkim var, nə min başı,
Nə də xəstənin saf-başı.
Sığortaya bu daş-başı,
Yeridirlər beyinlərə.

Siyasətlə aldadırlar,
Dinlə başların qatırlar.
Turan birliyi sonunda,
Birləşiblər müsəlmanlar.

Zəlzələlər aquşunda,
Batanlar qalıb amanda.
Siyasətlə iş keçməyir,
Allahdan yardım gözləyir.

## LOVĞA..

***(Dar düşüncəlilərə)***

Qaçanı qovlayırsan,
canında təpərin yox.
Kimi tutdun soyursan,
işində təpərin yox.

Güc edirsən başına,
içi də boş bilirsən.
Söz-sözə güc gələndə,
zarafatla gülürsən.

İş-işdən keçdiyi an,
sən görməzdən gəlirsən.
Sənə lazım olanda,
qabırğaya girirsən.

Kişi kimi kişi ol,
dişilərlə işin yox.
İşlərin xod gedəndə,
lovğalanırsan sən çox..

## ATA, ÇÖLƏ ATMA MƏNİ

***(yetimlərə)***

Atıb getmə ata, məni,
Nəzarətsiz qoyma məni.
Nəvazişdir ehtiyacım,
Ata, çölə atma  məni.

Nə qədər anam sağ idi,
Nənəm, babam,qııvraq idi.
Anam öldü, yandı bağrım,
Ata, çölə atma məni.

Heç kəs baxmır mənə burda,
Nə sağımda, nə solumda.
Ağrım da var bax buramda,
Ata, çölə atma məni!

Ata, mənə navaziş et,
Ögey ələ vermə məni.
Anamın goru çatlayır,
Ata, çölə atma məni.

Nənəm, babam qocalıbdır.
Böyüklüyü azalıbdır.
Nəzarətim qalmayıbdır,
Ata, çölə atma məni.

## GÖZLƏRİ DOYMUR

***(qansız tibb işçilərinə)***

Nə qədər vaxtdı ki, yatır yataqda,
dərdinə bir çarə, dərman tapılmır.
Aldığı məvacib o qədər azdır.?
xəstə canın verir, rüşvət azalmır.

Nə qədər qonşular kömək eyləsin,
dərdini deməyə bir adam tapmır.
Kasıblıq belini elə qırıb ki,
dərman keyfiyyətsiz, xəstə sağalmır.

Həkimlər nə qədər sistem yazsa da,
damarlar partlayır, adam da dözmür.
Laxtası çıxıbdı kəllə-çarxına,
qansızlar pul alır, əsasın vurmur.

Gizli saxlayıblar müalicəsin,
vurulan iynələr, təsir göstərmir.
Ümüdü qalıbdr bir Allahına,
cibi boşaldılır, xeyri görsənmir.

Gündə bir məmuru işdən çıxarır,
yerinə təzəsi təyin olunur.
Nə qədər insanı aldatmaq olar,
postlar zəpt olunub, gözləri doymur.

***2024***

## DİDİB-DAĞIDIR

Onun hər sözünə cavab tapardı,
İndi nə söz qalıb, nə cavabı var.
İçində alışıb yanan arzular,
Vaxt olur qəlbini, didib- dağıdır.

Çıxıb hədəqədən o ala gözlər,
Aşiq o baxışla qalıb sevgisiz.
Çox heyif, sağlamlıq qalmayıbsa da,
Gizli bir haliyla, tək qalıb onsuz.

Həyat çox qəribə, tənha qalarkən,
Təkliyi hər şeydən üstün tuturlar.
Sevdiyi insanın arzularını,
Ən "nazik" hissədən, nəbzin tuturlar.

O baxış, o duruş, oda salanda,
Yanan ürəkləri sevgi ovudur.
Nə üçün sevgilər bu qədər ağır,
Aşiqlər bu qədər əzazil olur?

***2024***

## AYRILMAZ DOSTDU ONLAR..

Bircə fərqim var mənim,
yaltaqlana bilmirəm.
Sifətlərə hərzayi,
baxıb gülümsəmirəm.

Öz aləmim var mənim,
bəs eyləyir hər yerdə.
Torpaqdan ayrılanda,
göylərində süzəndə.

Bir qorxum da var mənim,
unuduram özümü.
İnsanlıqdan ayrılıb,
axtarıram çözümü.

Tək qalmağı sevsəm də,
o da qorxudur məni.
Qəlbimdə daşıdığım,
iki sevgim var mənim.

Ayrılmaz dostlar idik,
ayrılmaz dost da qalaq.
Bir sənin, bir də mənim,
sevgimizi qoruyaq.

***2024***

## SƏNİ MƏN UNUTAMAM

*(nakam gedənlərə)*

Niyə unutdum səni?!
unutmadım biləsən.
Dərd əlindən qaçaraq,
baxıb gendən güləsən,
halıma da yanasan.
Sevəsən bildiyin tək,
sevərəm mən də ürkək.
Sağa-sola boylana,
qəlbimdə yana-yana.
Tüstü təpədən çıxa,
közərə və alışa.
Baxanlar qibtə ilə,
sevgimizlə barışa.
Yox nə qədər çətindir,
ağırdır, bunu sən bil.
Sevəcəm bildiyimtək,
amma sən məndən əl çək.
Sıxma sən ürəyimi,
saf saxla sən qəlbini.
Bir gün dünyadan köçsəm,
səni də mən unutsam.
İnanma sən heç buna,
düşün ki, artıq yoxam.
səni mən unutamam.!
Sən çoxdandı ordasan,
mən də gəlirəm..tamam.!

***2024***

## MÜQƏDDƏS AYLARDA ƏL TUT AY İNSAN..

Kasıb yuxusunda gördüklərini,
utanar, heç kimə söyləyə bilməz.

Kasıbın etdiyi yaxşılıqları,
varlı insanların könlündən keçməz.

Kasıb balaları çəkən əzabı,
varlı balaları çəkmək istəməz.

Kasıbın geydiyi ayaqqabları,
varlılar heç zaman kandara qoymaz.

Var nədi, çox nədi, ayrı seçkilər,
hər zaman soyudur incə qəlbləri.

Ac qarnı doyura bilməyənlər də,
Allah dərgahında, yer tuta bilməz.!

***2024***

## SƏMAVİ GÖZLƏR

***(Təbliğ etmirəm. Sadəcə şeirdir)***

Göy gözə aldanıb aşiq olma ki,
peşiman olduğun söyləməyəsən.
İlk öncə göy gözlər aldadıcıdır,
ömrünü sən ona sərf etməyəsən.

Onun baxışları qeyri adidir,
göy gözlər insanı çox cəlb eyləyir.

Qəhvəyi gözlərə çalış aşiq ol,
onlar heç bir zaman yalan deməyir..

Gözlərin içinə zillənib baxsan,
sevgi bir bəladı, hər an sezdirir.
Lətifəsi bizdən qoy uzaq olsun,
"Köpəyi" də gözlər əsəbləşdirir.

***2024***

## ARXALANMA..

Ağacdan ağaca qonan bir quşsan,
nə arzun bilinir, nə də diləyin!?
"Qarğanı" axtarıb, çox dolaşırsan,
qorxmursan gözünü, çıxarar sənin?

Çat olmuş budaqdan xəbərin yoxdur,
budaqdan budağa qonursan hər an.
Kötüyü nə qədər möhkəm olsa da,
heç vaxt arxalanma "şah" budağa sən.

***2024***

## ANA

***(1970 –ci il Xaçmaz rayon Dostluq qəzetində mənim ilk "Ana" şeirim şair Murad Qudyalçaylı tərəfindən çap olunmuşdu.)***

Anadan da əziz dünyada nə var?
Ana mehribandı hər an, həmişə.
Sinəsi qalxanlı atalar kimi,
Analar çox girib cəngə döyüşə.

Onun vüqarı dağ, sevgisi gülgün,
Onun arzuları, həyatda min-min.
Mən kimə bənzədim anamı bu gün?
Günəşə, günəşə parlaq günəşə.

***1970***

## MÜBTƏLAYAM MƏN

Allah! Bu gözəli çox görmə mənə,
Onun xəyalıyla yaşayıram mən.
Onun gözlərində olan məhəbbət,
Bir dünya sevgisin daşıyıram mən.

Baxıb gözlərimə sanki danışır,
Vücudu qəlbimdə yanır, alışır.
Demə ki sevmirsən, sevirsən axı,
İncə baxışından anlayıram mən.

Gəl, gəl sevgilim, nazlı nigarım,
Sənə həyatımı, bəxş edərəm mən.
Dünyanın sevgisi, yığılıb gəlsə,
Sənin saf eşqinə, mübtalayam mən.

***2019***

## MÜNDƏRİCAT

Müəllif haqqında ........ 3
Daima uğurunuz olsun Emfira xanım ........ 5
Ön söz ........ 13
***Vətənimin daşına qurban* ........ 18**
Axır nəfəsində anayla söhbət ........ 20
İslanıb, quruyub, köçənlər var ki.. ........ 21
Şəhidlər ........ 22
Şəhid nuran tapşıralanda torpağa ........ 23
Vətənimin daşına qurbanam ........ 24
Şəhid olsam sevinərəm! ........ 25
Şərəf,ləyaqətlə vuruşun barı ........ 26
Ağla ey vətənim, ağla ........ 27
Tək qalan şəhid atası ........ 29
Əsas sev sən vətəni ........ 30
Xaçmazım ........ 31
Odlar yurdum ........ 32
Komandana müraciət ........ 32
Bir millət iki dövlət ........ 33
Tet-a-tet ........ 34
Həsrətlə.. ........ 36
Fars rejimi taxtın uçsun başına ........ 37
Vətənimin oğluyam ........ 37
Vətənə borcu ........ 39
Zatı qırıq zay ermәni.. ........ 40
Heyif deyil ........ 41
Qələbəylə qayıdın!! ........ 41
Qədrini bil! ........ 43
***Olmasa saf məhəbbət* ........ 44**
Mən səni necə sevmişəm ........ 45

Sevə bilməyib........................................................................46
Sənsiz ..................................................................................47
Bəs eləməz ...........................................................................47
Məlhəmin qoysun ..................................................................48
Qəbrimi bəzərsən ..................................................................49
Kəsdin bir bənd tək................................................................49
Olmasa saf məhəbbət..............................................................50
Sevgiyə qarmaq atmaram.........................................................51
Həyatında olum sənin .............................................................52
Az da olsa çapım mən..............................................................52
Sevənlərə  tövsiyyə ..............................................................53
Bu qəlbimdə payın var.............................................................53
Faydasızdı.............................................................................55
Təxtimin tacısan.....................................................................55
Sənin xəyalındayam ................................................................56
Axı göycəksən... ......................................................................58
Bir anlığa..............................................................................58
Tarixlərə yazılası.. .................................................................59
İsidir məni.............................................................................60
Düşdüm .................................................................................61
Görüşək .................................................................................61
Sən mənim şeirimsən...............................................................62
Sevgi güclü məvhumdur ........................................................63
Kimlə dərdin böləsən? ...........................................................63
Sevənlərə ..............................................................................64
Məni eşqə öyrədənim...............................................................64
Sevgi nədir bilirsənmi..? ........................................................66
Üzümə bax ... ........................................................................67
Sevərəkdən düzək biz... ..........................................................68
Yeksən gülüm..........................................................................69
Donubdur ..............................................................................69
Özünü sevməyən sevməz fərdi də ..............................................70

Taleyim ........ 71
Gəl söhbət eyləyək........ 72
Məcnunam..(Dəlii) ........ 73
Bixəbər ........ 74
Qadın sevdisi.. ........ 75
Möhtacam ........ 76
Közü qalıb ........ 76
Əritdin getdin.. ........ 77
Səhvləri düzəldək... ........ 78
Sorma, gözəl... ........ 78
Həmrəy.. ........ 79
Sevgi deyil..Bəs nədir? ........ 80
Unutmaram, unutsan da.. ........ 81
Apar məni uzaqlara ........ 82
Tez gəl.. ........ 83
Sevənlərə uğurlar ........ 84
***Fikir xəritəsi ........ 85***
Sığınma nadana ........ 86
Qaranquşlar ........ 86
Nə bilir eee ........ 87
Qocalıq ........ 88
Gözüm var ........ 89
Ay gözəl... ........ 90
Fikir xəritəsi ........ 91
Allahım ........ 92
Uşaqlıq ailəm ........ 93
Bil, cəhənnəm yoludur ........ 95
Paxıllıq ........ 96
Susardım, dillənməzdim ........ 98
Alışdıq ........ 99
Görən deyər gərəyimsən ........ 100
Komandir atam ........ 101

Valideyn məhəbbəti ........ 103
Yoxdur ........ 104
Növbəyə gecikmişəm ........ 105
Tövsiyyə ........ 106
Vəsim ........ 107
Ruh təzələnsin ........ 108
Yazıb o kişi ........ 108
Dünyada ........ 109
Fironun quyusu ........ 110
Şirin-şirin yat bala ........ 111
Dərd-qəm görməsin ........ 112
Həyat nədi ........ 113
Zövq alanlar ........ 113
Bəndəm ........ 115
Ata naləsi ........ 115
Möhtac da olma ........ 116
Ehh ........ 117
Nəsihət ........ 118
Axirətdə ........ 118
Şairlər ........ 119
Başı daşdan-daşa dəysin ........ 120
Dayağam mən ........ 121
Ovçu ........ 122
Həkim ........ 123
“Tülkü həccə gedir..” ........ 123
Şeytan bata bilməz ........ 124
Ağrılı baxdı, keçdi ........ 125
Yaşa emfiram..! ........ 125
Xəbərsiz ........ 126
Müəllim ........ 127
Səbr ver allah ........ 128
Vecsiz həyatdı ........ 128

Bilmədim ....................................................................................129
Kim çatacaq dadına ..................................................................................129
Haqq yoluna düşüb, haqq deməkdir! ..................................................130
Xəyallar aləmi ..............................................................................................131
Ayrı-ayrı bəndlər ........................................................................................132
Söz var ....................................................................................................133
Yuxudan ayıla bilmirəm  kaş ki yuxu olaydı ...................................134
Bütün ellər eşitsin......................................................................................135
Nədən yazasan ki ...................................................................................136
Burda mən, bağdadda kor xəlifələr....................................................137
Yox olsun......................................................................................................138
Qatırdıq biz ..................................................................................................138
İstəmirəm......................................................................................................139
Azan səsi gələndə.......................................................................................140
Səhəri başlayıram ......................................................................................141
Azərbaycan qadını .....................................................................................143
İş verirlər qoyuna .....................................................................................145
Mən varamsa sən də varsan ..................................................................146
Polisində gücü nənəyə çatır ..................................................................147
Oda közə ........................................................................................................148
Beş barmaq (əl) ..........................................................................................150
Kədər əvəzinə .............................................................................................151
Hörmət və xəyanət ....................................................................................151
Səbirli-səbirsiz ............................................................................................152
Noxudu tənbəllərə......................................................................................153
Qanmazsan sən ........................................................................................154
“Çıxıb gedəsən” ..........................................................................................155
Lal, kar, kor dünyasında .......................................................................156
“Yoxdu vallah” ..............................................................................................156
Alışan deyil ...................................................................................................157
Güllərin qisası...............................................................................................158
Keçməsən bilməzsən ..................................................................................159

İtirdi......159
Nəsihət......160
Niyə kövrəksən ana......161
Axma başqa səmtə......162
***Xeyir və şər ......163***
Mənzum şeir......164
Gömülürük torpağa......164
Aciz olsan...? ......165
İnsanlardan uzaq gəzir ......167
Sabutilniklər......168
Öpüşmə ......169
Bayatılar ......170
Bayatılar......173
Heç vaxt......174
Bağışlanmaqçın ......175
Dərd görməsin......176
Güvənmə ......176
Əminamanlıqda görək ......177
Nə deyəsən ? ......178
Nə edim..? ......179
Atmaram !!! ......180
Xeyriyyəçi zeynalabdin tağıyeva ......181
Keçmişi unutamam.. ......182
A dünya......183
Əl-ayaqda dolaşır......183
Canavarımızsız......184
Bir zamanı var ......186
Zinətisən ......187
Fədakar qadın......187
Laylay deyirdi ......188
Çoxdurmu.. ......189
Nə edim? ......190

Güldürmə sən, gülməyəni.. ....191
Ucalıq insanın baxışındadır.. ....191
Qəlbimdə bir yarasan.. ....192
Bulaq suyu ....193
Novruzumuz mübarək ....194
Məni də düşünərsən ....195
Halal ....196
Yaradana qurbanam ....196
Xəbərsiz ....198
Düyün ....199
Bir az duyuqsan ....199
Oğul... ....200
Bacım harda görüşək bir...? ....201
Laləm ....202
Axı göycəksən...? ....202
Oxu "bülbül" ....203
Tanrım məni unutma ....204
Qardaş ....205
Siyasət və din ....206
Lovğa.. ....207
Ata, çölə atma məni ....208
Gözləri doymur ....209
Didib-dağıdır ....210
Ayrılmaz dostdu onlar.. ....211
Səni mən unutamam ....212
Müqəddəs aylarda əl tut ay insan.. ....213
Səmavi gözlər ....213
Arxalanma.. ....214
Ana ....214
Mübtəlayam mən ....215